www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 18 avqust 2014-cü il Bazar ertəsi № 206 (5915) Qiyməti 40 qəpik

**Xəbər**

## Çindən gətirilmiş "gizli qatillər"...

yazısı səh.11-də

**Gündəm**

### Fransanın Qarabağ təşəbbüsü niyə fiasko oldu?


Fransua Olland

Cəbhədəki "blits-müharibə"dən Qərbin götürəcəyi dərslər də var...

yazısı səh.8-də

### Yasamalda söküntüyə etiraz edən köçkünlər etiraza qalxdılar

yazısı səh.2-də

### "Padişahim, çox yaşa..." - Ankaradan görünənlər

yazısı səh.10-da

### NİDA-çının imtina elədiyi vəkil danışdı

yazısı səh.3-də

*Ekspert:*

### "Üç ölkə müdafiə nazirlərinin Naxçıvan görüşü Rusiyaya mesajdır"

yazısı səh.6-da

### Bakı Hava Limanında qalmaqal...

yazısı səh.2-də

### "Qış bulvarı"nın növbəti dalğası gəlir

yazısı səh.15-də

### Ərdoğanın Bakı səfərinin gündəliyində nə var?

yazısı səh.4-də

### Rusiyaya qarşı sanksiyalar Minsk Qrupunu bitirə bilər

yazısı səh.9-da

### Yaşlılar sülh, cavanlar savaş istəyir...

Əməkdaşımızın qaçqın yataqxanasında müharibə söhbəti

yazısı səh.12-də

### Avropanın imtina etdiyi internat məktəbləri niyə ləğv edilmir?

yazısı səh.14-də

## Azərbaycan zabitinin ölümündə sirr pərdəsi

# SURƏT HÜSEYNOVUN ADAMININ ADI QƏTL İŞİNDƏ

Mərhum hərbçinin anası yalnız bir nəfərə cəza verilməsi ilə razılaşmır, cinayətin qrup şəklində törədildiyini iddia edir; olayın şok detalları bu yazıda; Şahbazova Xeyra: "Kaş ki, oğlum vətən yolunda şəhid olaydı, indi bu qədər haqsızlıqla üzləşməzdim..."




yazısı səh.5-də

# İran İŞİD-i əzmək üçün İraqa girdi

Terrorçuların türkmənlərin də yaşadığı şiə bölgələrinə üz tutması Tehranın səbir kasasını daşırdı; Türkiyənin tərəddüd elədiyi addımı cənub qonşumuz atdı...

yazısı səh.8-də



### Doktor Cavad Heyətin çap olunmamış müsahibəsi "Yeni Müsavat"da

yazısı səh.7-də


Aleksandr Fomenkov

### Rusiyalı yazar Biləsuvardan Putinə müraciət etdi

yazısı səh.6-da



*Elgiz Əkbər:*

### "Mən istintaqa çağırılmamışam"

yazısı səh.4-də

YENİ MÜSAVAT
N 206 (5915) 18 avqust 2014



# Savalan dağında tutulan fəallardan xəbər var

## Güney Azərbaycan da Cavad Heyəti anır

**Avqustun 14-də onlarla milli-mədəni fəal Savalan dağı ətəklərində həbs edilib. Təhlükəsizlik qüvvələri tərəfindən tutulanlar bu gün avqustun 16-da Meşginşəhr məhkəməsində mühakimə edilib. GünAz TV mətbuat mərkəzinin əldə etdiyi yeni məlumata görə, keçmiş illərdə olan kimi bir qrup milli-mədəni fəal avqustun 15-də Savalan dağı zirvəsinə çıxmaq istəyiblər.**

Lakin təhlükəsizlik qüvvələri Savalanın sığınacaq caddəsində yolu kəsərək əksər fəalların zirvəyə çıxmasına mane olublar. Məmurların gözündən yayınıb yollarını davam etdirən fəallar isə avqustun 14-də yerli vaxtla saat 20 radələrində Savalan dağının ətəklərində təhlükəsizlik qüvvələri tərəfindən tutuqlanıblar. Məmurlar milli-mədəni fəalları Meşginşəhrin polis idarəsinin təcridxanasına intiqal etdikləri zaman fəallara qarşı zorakı hərəkətlərə yol veriblər. Məlumata görə, fəallar məmurlar tərəfindən döyülüb və müxtəlif təhqirlərə məruz qalıblar. Şəxsi əşyaları məmurlar tərəfindən zəbt olunarkən, bəzi fəalların mobil telefonlarının qırıldığı da bildirilir.

Fəallar Meşginşəhrin polis idarəsinin təcridxanasında iki gün saxlandıqdan sonra bu gün avqustun 16-da bu şəhərin inqilab məhkəməsində hakim (qazi) qarşısına çıxıblar. Hakim fəalların sözlərini diqqətə almadan onları sistemin əleyhinə təbliğ və qanunsuz yığıncağa çağırış etməkdə suçlayıb və 2 günlük saxlanma qərarı çıxarıb. Həmçinin fəallar həbs cəzası ilə təhdid ediliblər. Azərbaycanlı fəallar isə elan ediblər ki, həbs ediləcəkləri təqdirdə kütləvi olaraq aksiyaya başlayacaqlar və məhkəməyə heç bir mülki vəsiqə təqdim etməyəcəklər.

Tutuqlanan fəallar bunlardır: Rəhim Qulami, Aydın Zakiri, Meysəm Colani, Cəfər Rüstəmi, Səid Hüseyni, Həmid Qüvvəti, Həbib Nigəhban, İsa Əzizi, Həsən Colani və Rza Qomi. Qeyd edək ki, İran rejimi ölkənin Anayasasının tanıdığı hüquqa rəğmən hər zaman milli-mədəni fəalların dinc yığıncaqlarına maneçilik yaradıb və bu qanunsuz vəziyyət hələ də davam etməkdədir.

Türk dünyası və Azərbaycan türklərinin böyük oğlu, görkəmli kardioloq, böyük ictimai-siyasi xadim, professor Cavad Heyətin Bakıda 2-ci Fəxri Xiyabanda dəfn olunması sosial şəbəkələrdə ciddi müzakirələrə yol açıb. Bir sıra ictimai fəal, xüsusi ilə Güney Azərbaycan Milli Hərəkat fəalları professorun özünü millətinə həsr etdiyini, önəmli fəaliyyətini və unudulmaz əsərlərini xatırladaq, onun məhz 1-ci Fəxri Xiyabanda dəfn olunmalı olduğunu bildiriblər. Güney Azərbaycanda isə millətimizin müxtəlif təbəqələri mərhum Cavad Heyətin vəfatı münasibəti ilə bir-birinə SMS-lər göndərib və bu vasitəsi ilə başsağlığı mesajları yayırlar. Güney Azərbaycanın Sulduz şəhərində isə şəhərin müxtəlif meydan və xiyabanlarında bannerlər asılıb. Bannerlərdə mərhum professorun fəaliyyəti, zəngin əsərləri və əhəmiyyətli xidmətləri barəsində məlumat dərc olunub və millətimizə başsağlığı verilib.

❑ Cavìd TURAN


## Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz,
biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

«QAYA MƏTBUAT YAYIMI» MMC!
İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:
■ Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə catdırılmasını;
■ Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
■ Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;
Ən başlıcası gündəlik
«Yeni Musavat » qəzetinə–0,40 man
və bundan əlavə 2000 adda yerli
və xarici nəşrlər.
■ Abunə yazılmaq üçün uzağa getmək lazım deyil,
Telefonla zəng etməyiniz kifayətdir:
Bakı şəh. 564-63-45 598-35-22
Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur:
mobil: (050)-235-23-41


# Yasamalda məcburi köçkünlər etiraz aksiyası keçirdi

**Yasamal rayonunda evləri sökülən sakinlər etiraz aksiyası keçirib. "Qanlı göl" ətrafında yaşayan məcburi köçkünlərin etirazına səbəb onlara məxsus evlərin heç bir xəbərdarlıq edilmədən sökülməsidir.**

Sakinlərin sözlərinə görə, söküntü işlərinə iki gün öncə başlanıb. Əvvəlcədən heç bir xəbərdarlıq edilməyib. Sakinlər evlərdən əşyaları çıxarmağa belə macal tapmayıblar.

Mənzil sahibləri deyir ki, söküntü zamanı heç bir təhlükəsizlik qaydalarına əməl olunmayıb. Bir nəfər yaşlı kişi başından xəsarət alıb.

Artıq ikinci gündür ki, ev sahibləri etiraz edir. Şahidlərin dediyinə görə, ötən gün etirazçılarla polis arasında münaqişə yaranıb. Bir nəfər gənc həbs olunub.

Hadisə yerində olan əməkdaşımızın sözlərinə görə, aksiyada 50 nəfərdən çox sakin iştirak edib.

Etirazçılar deyir ki, aparılan söküntünün səbəbi onlara izah edilməyib, kompensasiya veriləcəyi haqqında heç bir söz deyilməyib. Söküntü prosesi təxminən 70 hektar sahəni əhatə edir.

❑ Nərgìz LİFTİYEVA








# Con Makkeyn Krımın işğalını Obamanın ayağına yazdı

**"Rusiya prezidenti Vladimir Putinin Krımı işğal etməsinə imkan verməsi Amerika Birləşmiş Ştatları rəhbərliyinin uğursuzluğudur".
axar.az xəbər verir ki, bu açıqlama ilə respublikaçı senator Con Makkeyn çıxış edib.**

O, Putinin Ukraynanı uğursuzluğa düçar etmək üçün əlindən gələn hər şeyi edəcəyini bildirib: "Krımın işğal edilməsinə cavab olaraq Rusiyaya tətbiq edilən sanksiyalar çox zəif idi. Həmin sanksiyalara Putinin gözləri ilə baxsaq, onda hər şey yaxşıdır və hazırda Ukrayna ilə sərhədə qoşunlarını yeritməyə davam edir. Düşünürəm ki, Ukraynanın şərqindəki iğtişaşları davam etdirmək üçün Putin əlindən gələni eləyəcək. Çünki o, Ukraynanın uğura nail olmasını istəmir. Əgər Amerika Birləşmiş Ştatları Rusiyaya qarşı "həqiqi, təsirli sanksiyalar" tətbiq etsəydi və iki il ərzində Rusiyadan enerji asılılığını aradan qaldırmaq üçün Ukrayna və Avropa ölkələrinə enerji tədarükü planına başlasaydı, Rusiya imperiyasını yenidən qurmaq istəyən KGB polkovniki Vladimir Putin "hərəkətlərinin bir qiyməti olduğunu" hiss edərdi".

# Özünü yandıran Qarabağ qazisi "hər şey yaxşı olacaq" deyir

**Avqustun 13 - də Prezident Administrasiyası qarşısında özünü yandıran Qarabağ qazisi Elçin Salahovun müalicəsi davam edir. Hazırda 5 saylı xəstəxananın yanıq şöbəsində müalicə alan E.Salahovun durumunu öyrənmək üçün dünən yenidən onunla əlaqə saxladıq.**

Qarabağ qazisi vəziyyətinin kafi olduğunu desə də, ağrıları səbəbindən çox danışa bilmədi. Qeyd elədi ki, həyat yoldaşının durumunda da heç bir irəliləyiş yoxdur: "Həyat yoldaşım hələ də reanimasiyadan çıxmayıb. Onun da müalicəsi davam edir. Hər şey yaxşı olacaq".

Xatırladaq ki, Sumqayıt şəhər məhkəməsinin qərarına etiraz olaraq intihara cəhd etməsi nəticəsində E. Salahovun bədəninin 20 faizi, həyat yoldaşı Jalə Salahovanın bədəninin 45 faizi yanıb. Hadisəyə bir çox dövlət qurumlarından reaksiya gəlib və Salahovlara problemlərinin həllinə dair söz verilib.

Qeyd edək ki, bir neçə gün öncə məhz mətbuatın dəstəyi ilə problemini ictimailəşdirən Qarabağ qazisi indi məsələnin həllinin nə yerdə olması ilə bağlı açıqlama verməkdən imtina edir.

❑ Nərgìz LİFTİYEVA

# "Xanım Klintonla Mursinin xüsusi münasibətləri vardı"

## Devrilmiş prezidentin xanımı Hillari Klintonu hədələdi: "Amerika Mursini satdı"




**Misirin keçmiş prezidenti Məhəmməd Mursinin xanımı ABŞ-ın sabiq dövlət katibi Hillari Klintonu topa tutub. Bu barədə ərəbdilli "El-Mogaz" qəzeti xəbər yayıb.**

Haqla Mursi xanım Klintonun Məhəmməd Mursi ilə bağlı verdiyi bəyanatlara kəskin etiraz edib.

CBS-də şou-proqrama qatılan xanım Klinton 2012-ci ildə terrorçuların Sina yarımadasında onlarla misirli əsgəri öldürməsindən danışarkən deyib ki, prezident Mursi sadəlövh və zavalı adam idi: "Əlbəttə, mən konkret olaraq onun haqqında bu sözləri deyə bilərəm. "Müsəlman Qardaşları" haqqında eyni fikirləri söyləmək olmaz. Prezident Mursi səmimi şəkildə inanırdı ki, cihad şüarları ilə ortaya atılan islamçılar onun şəxsində görəcəklər ki, hakimiyyətə başqa yolla da gəlmək olar. "Müsəlman Qardaşları"nın əlinə gözəl bir fürsət düşmüşdü. Onlar islam hərəkatının potensialını düzgün istiqamətləndirib dövləti məsuliyyətlə idarə edə bilərdilər. Ancaq onlar dövləti idarə etməyə çox pis hazırlaşmışdılar. Onların da cihadçılara qoşulub - qoşulmayacağı sualına hələ ki birmənalı cavab yoxdur".

Bu bəyanatdan əndişə duyan xanım Mursi ittihamlara cavab olaraq ərinin Hillari Klintonla yazışmalarını dərc edə biləcəyini açıqlayıb. Xanım Mursi deyib ki, həmin yazışmalardan aydın görünür ki, Hillari Klintonla Məhəmməd Mursi arasında xüsusi münasibət olub.

**Məhəmməd Mursinin xanımı deyib ki, xanım Klinton onun ərinin "sadəlövh və zavalı" adlandırmaqla sabiq prezidenti aşağılamaq məqsədi güdüb. Sabiq dövlət katibinin Məhəmməd Mursi haqqında "prezident roluna layiq olmayan birisi" kimi söhbət açması da amerikalıların öz keçmiş müttəfiqlərinə münasibətini sərgiləyir. Prezident Məhəmməd Mursi ABŞ-a sadiq idi. Ancaq Amerika onu satdı...**

❑ Elbəyì HƏSƏNLİ, Sürìx



# Bakı Hava Limanında qalmaqal...

## Artıq Azərbaycan paytaxtında olan 25 nəfərə yaxın sərnişinin yükləri Türkiyənin Sabiha Gökçən Hava Limanında qalıb

**Avqustun 17-də Türkiyənin Sabiha Gökçən Hava Limanından AZAL-ın J2 88 saylı reysi ilə Bakıya qayıdan sərnişinlər gözlənilməz hadisə ilə üzləşiblər. Belə ki, 25-ə yaxın sərnişin öz yüklərini ya tamamı ilə ala bilməyiblər, ya da yüklərin bir hissəsi onlara verilib. Bakı Hava Limanın görəvliləri sərnişinlərə bildiriblər ki, "Yükləriniz Sabiha Gökçən Hava Limanında qalıb".**

Musavat.com-un əməkdaşının verdiyi məlumata görə, Bakı Hava Limanının əməkdaşlarından heç kəs baş vermiş bu hadisənin səbəblərini sərnişinlərə normal şəkildə izah etməyib. Hələlik sərnişinlərə verilən məlumat yalnız ondan ibarətdir ki, Türkiyənin Sabiha Gökçən Hava Limanında qalmış yüklər növbəti reyslə gətiriləcək. Amma buna baxmayaraq, sərnişinlər öz əşyalarına görə ciddi şəkildə narahatdırlar.

Musavat.com-un əməkdaşı bu qeyri-adi hadisə ilə bağlı "Azərbaycan Hava Yolları" QSC-nin (AZAL) mətbuat xidmətinin rəhbəri Məhərrəm Səfərli ilə əlaqə saxlayıb. M.Səfərlinin sözlərinə görə, bu kimi hadisələr hər zaman ola bilər: "Bu, normal haldır. Böyük bir problem deyil. Yəqin ki, sərnişinlərin yükləri bir az gecikdiyi üçün problem yaranıb. Yüklər növbəti reyslə göndəriləcək. Heç bir sərnişinin yükü itməyəcək. Buna tam əmin ola bilərsiniz".

❑ Məhəmməd TÜRKMƏN

# Rusiya çökdürülür: neft gələn il 80 dollara satılacaq

**Dünya bazarında neftin qiyməti 80 dollara qədər düşəcək. axar.az xəbər verir ki, bu açıqlama ilə "Layt Svit Fuller" analitik araşdırma şirkəti çıxış edib. Şirkət gələn ilin əvvəlinə qədər dünya bazarında neftin bir barelinin 75-80 dollara satılacağını deyib.**

Kompaniya bu cür düşmənin əsas səbəbinin ABŞ-ın şərq sahillərində neft yataqlarına qoyduğu embarqonun götürülməsini göstərib. Ekspertlər həmçinin neftin qiymətinin belə tərzdə düşməsinin Rusiyanın da iqtisadiyyatına çox mənfi təsir edəcəyini bildirib.



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# Günün içindən

YENİ MÜSAVAT
N 206 (5915) 18 avqust 2014

# NİDA-çının imtina elədiyi vəkil danışdı

## Elçin Sadıqov: “Təbii ki, bu, Rəşadət Axundovun seçimidir, amma...”

**Həbsdə olan NİDA-çı gənc Rəşadət Axundov öz vəkilindən imtina edib. Bu barədə onun həyat yoldaşı Türkan Hüseynova məlumat verib. T.Hüseynova öz facebook profilində bu barədə yazsa da, imtinanın səbəbini açıqlamayıb.**

T.Hüseynova bildirib ki, R.Axundov təcridxanadan zəng edərək, öz qərarını bildirib: “Xahiş etdi, çatdırım ki, Elçin Sadıqova indiyə kimi göstərdiyi əməyə görə təşəkkür edir. Amma bundan sonra onun vəkilliyindən imtina edir”. T.Hüseynova musavat.com-a deyib ki, həyat yoldaşının bu addımı vəkilin dövlət başçısını dəstəklədiyi haqda bəyanatına görədir: “Başqa vəkil var”.

Hazırda ABŞ-da səfərdə olan vəkil Elçin Sadıqov isə musavat.com-a açıqlamasında NİDA-çının bu addımına belə münasibət bildirib: “Mənim vəkilliyimdən təkcə Rəşadət Axundov imtina edib. Təbii ki, bu, onun seçimidir. Amma hesab edirəm ki, o da ən azı mənim səfərdən qayıtmağını gözləməli idi. Hər halda görüşüb məni dinləyə bilərdi və belə tez qərar qəbul etməyi məni təəccübləndirdi. Mən onun hüquqlarının müdafiəsi üçün az iş görməmişəm”.

NİDA-çının imtinasının bir müddət əvvəl vəkilin özünün verdiyi bəyanatla bağlı olduğunu istisna etməyən E.Sadıqov deyib ki, onun fikirlərinə hörmətlə yanaşmaq lazımdır: “Amma vəkillə müdafiə etdiyi şəxslərin şəxsiyyəti qanuna görə eyniləşdirilə bilməz. Mən heç vaxt partiyalı olmamışam. Həmişə öz müstəqilliyimi qorumuşam. Hər kəsin fərqli düşüncəsi ola bilər təbii. Biz çalışmalıyıq ki hər kəsin fikrinə hörmət edək. Mən həmişə demişəm ki, vəkilin siyasi mənsubluğu bir yana, amma vəkil çalışmalıdır heç bir işdə özünü tərəfə çevirməsin.



Elçin Sadıqov



Rəşadət Axundov

Təbii ki bəzi işlərdə qanunsuzluqlar o həddə çatır ki, qanunsuzluqları ən kəskin ifadələrlə təkzib etmək də az olur.

Ancaq belə işlərdə də mən çalışıram ki, əsəbiləşməyim və soyuqqanlıqla qanunsuzluqların hamısını ifşa edə bilim.

Fərqli fikrə qarşı bu qədər təqibi, açığı, demokratlardan heç gözləmirdim".

O, həmçinin, jurnalist Xədicə İsmayılın hazırda vəkili olmadığı halda, o, vəkildən imtina etdiyini bildirib: “Xədicə xanımın indi vəkili deyiləm. Olmayan vəkildən o necə imtina edib, bilmirəm. Ona böyük hörmətim var. Onun bütün işlərini artıq tükəndirmişik və artıq iş Avropa Məhkəməsindədir. Bu qədər işi apardıqdan sonra imtina olur?”

Qeyd edək ki, E.Sadıqovun işlədiyi Media Hüquqları İnstitutu fəaliyyətini dayandırmaq üzrədir. Vəkil deyib ki, bundan sonra fəaliyyətini müstəqil şəkildə davam etdirməyə çalışacaq.

**Xatırladaq ki, vəkil E.Sadıqov bir neçə gün öncə siyasi məhbus siyahısı müzakirə olunan zaman bildirib ki, o, həmişə prezident İlham Əliyevin siyasətini dəstəkləyib. Bu açıqlama və bəyanat ictimai və siyasi sferada birmənalı qarşılanmayıb.**

❑ **Röya RƏFİYEVA**

# Bakıda təhsil sərgisi keçirilir

## “Akademi Group”un təmsilçisi Razi Vəliyev: “Ölkələrin 90 faizinin universitetləri xarici tələbələri ali məktəbə imtahansız qəbul edir”

**Avqustun 17-də paytaxtın “Hilton Bakı” hotelində təhsil sərgisi keçirilib. Sərgidə Türkiyənin iki dövlət, səkkiz özəl universiteti olmaqla ümumilikdə 10 universiteti iştirak edib. Sərgi ilə maraqlanan abituriyentlər kifayət qədər idi. Onlar müxtəlif universitetlərin masalarına yaxınlaşır və səlahiyyətli şəxslərdən məlumat alırdılar.**

Biz də sərgidə bir neçə universitetin masasına yaxınlaşıb qəbul şərtləri və təhsil haqqı ilə maraqlandıq.

İstanbul Kültür Universitetində magistr təhsili almaq üçün iki il ərzində 8 min dollar ödənilməlidir. Ancaq magistr təhsilindən sonra doktorantura da oxumaq istəsəniz təhsil haqqı toplam 6 min dollar ola bilər.

“Akademi Group” Türkiyə layihələrinin rəhbəri Razi Vəliyev sərginin özəl universitetlərə sənəd qəbulu məqsədi ilə keçirildiyini bildirdi: “Ölkələrin 90 faizinin universitetləri xarici tələbələri ali məktəblərə imtahansız qəbul edir. Bu o demək deyil ki, həmin universitetlər keyfiyyətsizdir. Məsələn, bizim abituriyentlərin attestatla qəbul ola bildiyi yerlərə Türkiyədəki tələbələr öz imtahanları ilə çox yüksək ballarla qəbul ola bilmirlər. İngilis dilli ölkələrin universitetləri də İELTS və yaxud da TOFEL imtahanları ilə tələbələri qəbul edir. Bunlar bir akademik imtahanı deyil. Eyni imtahanın qarşılığı olaraq türk dili imtahanı var. Yəni məntiq belə işləyir və xarici tələbəyə müraciətlə bunu deyirlər: Əgər mənim təhsil verdiyim dili bilirsənsə, gəlib oxuya bilərsən. Bu eyni zamanda Azərbaycan universitetləri üçün də keçərlidir. Xarici tələbələr də bizim universitetlərə gəlir və atestatla qəbul olunur. Xarici ölkələrin attestatla tələbə qəbul etmələrinin bir neçə səbəbi var. Bu səbəblərdən ən başlıcası ölkə üçün ekonomik bir səbəbdir. Yəni xaricdən gələn tələbə istər-istəməz həmin ölkəyə valyuta gətirir. Məsələn, Azərbaycana gələn xarici bir tələbəni düşünün. O, ən ucuz təhsil haqqı ilə hesablasaq ilə 5 min manat xərcləyir. Yəni bu tələbə Azərbaycana gəlir gətirir. Atestatla tələbə qəbulunun əsas səbəblərindən biri budur. Mənə görə isə birinci səbəb lobbi, diaspora məsələsidir. Xaricdən gələn tələbə istər-istəməz həmin ölkəni sevir. Sevməsə belə artıq bu ölkəni tanıyır. Digər bir məsələ də var ki, tələbə qəbul olunsa belə universitet öz təhsil standartını imtahanla o tələbədən ala bilməsə, diplom vermir. İstər tələbə ora 10 min, 100 min dollarlar ödəsin və ya kiminsə qohumu olsun. Bu universitetlərdə bu cür şeylərə tolerantlıq göstərilmir. Tələbə lazım gələrsə 4 illik universiteti 10 ilə bitirir. Universitet tələbənin üzərinə öz imzasını ata bilməsi üçün o keyfiyyəti görməlidir ki, desin bu mənim məzunumdur. Burada qeyri adi bir şey yoxdur. Dünyanın hər yerində xarici tələbə ali məktəbə attestatla qəbul olunur. Bəzi universitetlərdə, xüsusən də bizim əməkdaşlıq etdiyimiz özəl universitetlərdə təhsil haqqlarında endirimlər, güzəştlər edilir. Tələbənin imtahan göstəricisi olarsa burada endirim tətbiq edilir. Tutaq ki, universitetin təhsil haqqısı 8 min manatdırsa, biz bunu aşağı salırıq. Təbii ki, bu özəl universitetlərdə tətbiq edilir. İnsan təhsilini ardıcıllıqla davam etdirir, birinci pilləyə aid sənəd olmadan ikinci pilləyə keçmək mümkün olmur. Biz o attestatı alanadək də imtahan veririk. Abituriyent attestatı əldə edibsə, demək ki, bu imtahanlardan müvəffəqiyyətlə keçib. Başqalarının bunu qəbul edib, bizim qəbul etməməyimiz özümüzə hörmətsizlik olur. Attestatla qəbul ilk olaraq Türkiyədə başladı. Türkiyəyə başlamağı ilə bu bir az da kütləvi hal aldı. Artıq dörd ildir ki, attestatla qəbul imtahanı keçirilir. Attestatla qəbul olan ilk tələbələrimiz artıq məzun olacaqlar”.





R.Vəliyev ildə iki dəfə keçirilən bu sərgidə xarici ölkələrin ali məktəblərinə xeyli tələbə qəbul olunduğunu və müvəffəqiyyətlə təhsil aldığını bildirdi.

**Sərgi avqustun 18-dək davam edəcək.**

❑ **Günel MANAFLI**
**Fotolar müəllifindir**

# Özgələr...



**Hüseynbala SƏLİMOV**

**Cəmiyyət olduqca qəliz məsələdir. Erkən gənclik çağında düşünürdük ki, təbiət elmləri insan zəkasının qadir olduğu ən abstrakt modellərdir. Sonradan ictimai elmlərlə, xüsusən də fəlsəfə ilə daha yaxın tanışlıqdan sonra başa düşdük ki, bu nəticəmizdə bir qədər tələskənliyə yol vermişik - insan, insan toplumu, onun yaratdığı ictimai-siyasi institutlar daha qəlizdi...**

Bu qəlizliyi bəzən emosiyasız ifadə çətin olur. Amma emosiyalar vəziyyəti daha da qəlizləşdirir.

Yadımıza rəsmi senzuranın mövcud olduğu vaxtlar düşür. Nəzərə alsaq ki, Azərbaycanda senzura 1998-ci ildə ləğv olunub, bu, elə də uzaq keçmiş deyil.

Bəli, senzura adamı yorurdu, bezikdirirdi. Həmkarlardan bəzisi deyirdi ki, niyə özümüzə əzab veririk, gəlin, bir nömrədə hakimiyyət haqqında “dişimizin dibindən çıxanı” yazaq, sonra da gedib başqa işlə məşğul olaq, canımız qurtarsın bunların əlindən...

Bu qiyamı, etirazı başa düşürdük. Amma bir az əvvəl səslənən fikri qəbul edə bilmirdik, əksinə daha uzun müddət mövcud olmaq və yazmaq üçün hətta bir qədər mülayimliyə çağırırdıq.

Düşünürdük ki, nə qədər çalışsan da, nə qədər böyük jurnalist olsan da, bir dəfəyə hər şeyi demək, hər şeyi yazmaq heç də mümkün deyil. Biri var, bir aksiya edəsən, biri də var ki, hər gün oxucularla görüşə gələsən... Hansı daha effektlidir?

O vaxtdan özümüz üçün bir deyim, bir ifadə də uydurduq- Ezop dili. Bu ifadə adət olunandan bir qədər də fərqli məzmun kəsb edirdi-bütün üstüörtülü deyimlərin və ifadə tərzlərinin hamsını Ezop dili, Ezop tərzi adlandırırdıq.

Yazı adamı, ictimaiyyət fəalı tək hakimiyyətlə ixtilafda olmur, bəzən onun yazdıqları cəmiyyətin müxtəlif kəsimlərinin də xoşuna gəlmir. Bu halda hakimiyyətin və siyasi institutların sanksiyalarına cəmiyyətin də sanksiyaları əlavə olunur...

Bunları niyə deyirik? Sadəcə, azad olmayan ölkədə azad insanın qarşılaşacagı problemlərin konturlarını cızmaq istəyirik.

Baxırıq indiki Azərbaycana. İnsanların əksəriyyəti sözün əsl mənasında “xoşbəxtdir”. Ona görə ki, burada çox az kəsimə yaşamaq üçün həqiqətən də qazanmaq lazım gəlir, böyük əksəriyyətə “çırpışdırmaq” imkanı verilib. İnsanlar bunu çox normal qəbul edir- qarpız satan müəllimdən, müəllim tələbədən, tələbə valideynlərindən, valideynlərsə onlara müraciət edən, onlara işi düşən, onlarla təmasda olan adamlardan “çırpışdırırlar”...

İndi Azərbaycanda on hüquq müdafiəçisi həbs olunub. Onları nə cəmiyyət sevir, nə də ki, hakimiyyət. Səbəbi? Səbəbi çox qəlizdir. Zənnimizcə, hakimiyyət o adamları ona görə sevmir ki, onlar başqaları kimi hakimiyyətdən asılı deyillər, onların maliyyə müstəqilliyi var...

Cəmiyyət onları guya ona görə sevmir ki, bu adamlar qrant alırlar, xaricilərlə oturub-dururlar. Amma düşünürük ki, bu da əsas səbəb deyil. Doğrudan da niyə görə qrant almaq rüşvət almaqdan pis hesab edilir? Məsələ bundadır ki, rüşvət alıb “özünküləşirsən”, sən də olursan hamıdan biri. Amma qrant alanda özgələşirsən, başqalarından seçilirsən, axı rüşvətdən fəqrli olaraq qrantı hamı ala bilmir.

Hakimiyyətdəkilər heç də qrantların tamamilə əleyhinə deyil. Axı Azərbaycanda daxili qrantlar da var. Onları alanları heç kim qınamır, çünki bunlar özününkülərdir, onlar dövlətin “sirlər”ini- nə qədər siyasi məhbusun olduğunu, nə qədər insanın hüquq və azadlıqlarının pozulduğunu dünyaya faş etmirlər...

Ən başlıcası isə onlar fəaliyyətlərində müstəqil deyillər- hər halda, hakimiyyətdəkilər belə düşünür, çünki hakimiyyət daxili qrantları daha çox müstəqillikdən imtina etməyin müqabilində verir...

Nə qədər qəribə olsa da, bu sətirlərin müəllifi bəzi QHT-lərə qarşı təzyiqləri, “QHT ovu”nu irəlicədən “proqnozlaşdırmışdı”.

Rusiyada əcnəbi donorlardan qrant alanları və xarici hüquq-müdafiə təşkilatları ilə əməkdaşlıq edənləri “xarici agent” kimi qeydiyyatdan keçməyə məcbur edəndə düşündük ki, belə psixoloji təhdid hansısa formada Azərbaycanda da ifadəsini tapacaq. Elə həqiqətən də çox gözləmək lazım gəlmədi-Azərbaycan rəsmiləri nümunəvi şagird kimi “ev tapşırığı”nı dərhal yerinə yetirdilər, ona yaxın hüquq müdafiəçisi həbs olundu, ölkədə əsl “əcinnə ovu” başlandı...

İndi bu proses davam edir. Sonra da deyirlər ki, bu, hələ diktatura deyil...

YENİ MÜSAVAT
N 206 (5915) 18 avqust 2014



# Təbrizin Bakıdakı əmanəti

Elşad PAŞASOY
epashasoy@yahoo.com

**Əslində Tehran rejiminin böyük azərbaycanlı doktor Cavad Heyətə bu cür münasibəti gözlənilən idi. Onun Təbrizdə dəfninə icazə verməməklə İran hakimiyyəti Azərbaycan türkünə yanaşmasını ortaya qoydu. Bu, sanki Tehranın qisası idi, axı Cavad Heyət ömrünün ahıl vaxtlarında Bakıya pənah gətirmişdi, müstəqil Azərbaycanın prezidenti tərəfindən bağışlanmış mənzildə ömür sürürdü, ara-bir Tehrana gedib-gəlsə də...**

Budur, "Varlıq" Dərgisinin yazarı Əlirza Sərrafi, doktorun qızı Maral xanım, məşhur türkoloqun yaxınlarından olan Rza Heyət onun Təbrizdə dəfni üçün xeyli çalışdıqlarını açıqlayıb. İlkin razılıq alınıb. Ancaq daha sonra İranın Azərbaycandakı səfirliyi məşhur alimin Təbrizə köçürülməsinin mümkün olmadığını mərhumun ailəsinə bildiriblər. Görünən budur ki, İran hakimiyyəti inqilab beşiyi Təbrizdə nisbi sakitliyin pozulmasını istəməyib. Axı, son illər Güneydə ən böyük aksiyalar elə dəfn törənlərində, anıt mərasimlərində baş tutub.

Tehran rejimi Azərbaycan türklərinin hansısa bəhanə ilə bir araya gəlməsini heç arzulamır. Hətta doktor Heyətin də çox sevdiyi Təbrizin "Traktor" futbol taqımının oyunlarına azarkeşlik edənlərin "Azərbaycan" hayqırtıları da hakimiyyətin yuxusuna daim haram qatır. Bu mənada İran hakimiyyəti ağrımayan başına dəsmal bağlamaq istəmədi...

İran rejimi hətta bu ölkənin vətəndaşı olan şəxsə belə Təbriz torpağını qıymadı, istəyinə uyğun şəkildə Şairlər Məqbərəsində dəfninə izn vermədi. Hansı ki, dünyada ilk dəfə açıq ürək əməliyyatının müəllifi olan doktor Heyət yarım əsrdən çox həkimlik fəaliyyəti ilə İranın adına da az faydalar gətirməmişdi. Qiymətləndirmədilər. Bakıda fars milliyyətindən olan birisi dünyasını dəyişsə, bu cür davranmazdılar.

Hər halda nə yaxşı müstəqil Azərbaycan dövləti var və Bakı bu böyük insana sahib çıxdı, onun dəfni dövlət səviyyəsində həyata keçirildi. İran prezidenti səviyyəsində nekroloqa rast gəlməsək də, Azərbaycan prezidenti Cavad Heyətin ölümü ilə bağlı başsağlığını bildirdi, rəsmi şəxslərin iştirakı ilə vida töreni keçirildi. Bakı 50 milyonluq azərbaycanın paytaxtı olduğunu bir daha isbatladı türk düşmənlərinin mövqeyinə rəğmən.

Cavad Heyət o şəxslərdən idi ki, 90-cı illərdə Dəmirələ və Rəfsəncaniyə müraciətlə açıq məktub yazaraq onları Qarabağla bağlı Azərbaycanın dərdlərinə biganə qalmamağa çağırmışdı. Mənimlə söhbətində əminliklə demişdi ki, Qarabağ savaşı başlasa, güneyli döyüşçüləri də yanınızda bilin.

***

O böyük insanla üz-üzə oturub söhbətləşməyimdən qürur duyuram. Yadımdadır, ilk dəfə müsahibələrdən yayındığını bildiyim üçün ona zəng edib özümü ürək xəstəsi kimi təqdim etmişdim. Qəbul günündə prezident İlham Əliyevlə görüşdən qayıtmışdı. Xeyli söhbətləşdik, ürəyimi yoxladı, resept yazdı, sonra mətləbə keçdim, uğurlu bir müsahibə alındı. İmzası ilə bağışladığı "Varlıq" dərgisini, türkçülüklə bağlı kitabını, səs yazısını sevə-sevə saxlayıram.

Telefon söhbətimizsə çox olurdu. Hər dəfə zəng edib bayramlar münasibətilə onu təbrik etmək istəyəndə dəstəyi özü qaldırar və şirin Təbriz ləhcəsi ilə "alo" deyə cavab verərdi. Növbəti görüşümüz də onun mənzilində baş tutmuşdu və bu insanın köksündə nə qədər böyük Azərbaycan sevgisi daşıdığının bir daha şahidi olmuşdum. Belə bir ürək sahibinə Tehran şübhəsiz ki, Təbrizdə məzarlıq qıymazdı. 40 milyonluq Azərbaycan türkünü Urmu gölünü qurutmaqla, hərəkatçılarını həbsə atmaqla, dilini kəsməklə susduran, uşaqlarına ana dilində təhsil hüququnu belə tanımayan rejim böyük bir türk kişisinin məzarının ziyarətgahlar sırasına daxil edilməsini istəməzdi. İstəmədi də. Beləcə Cavad Heyət Seyid Cəfər Pişəvərinin uyuduğu Bakıda torpağa tapşırıldı.

"Çox istərdim sən gedib Bakıda oxuyasan. Ancaq neylələmli ki, indi ora dəmir pərdə arxasındadır. Bəlkə qismət oldu, nə vaxtsa dəmir pərdələr aradan qaldırıldı, gedib Bakını da görə bildin..." Bu sözləri atası Mirzəli kişi Cavad Heyətə hələ 40-cı illərdə demişdi. Cavad doktor Bakını ilk dəfə yalnız 1971-ci ildə ziyarət edə bildi. Gözlərini də elə Bakıda əbədi yumdu.

**Yaşar Qarayevin "İki tayın ağsaqqalı", Bəxtiyar Vahabzadənin "Mənəviyyat fədaisi" adlandırdığı böyük əfsanə. Ruhun şad olacaq inşallah, bütün yollar Savalana, Təbrizə, Xoya, Səlmasa...aparanda. Bakının Ankaradakı əmanətini - Məhəmməd Əmini ziyarət edən yerdə doktorun fotosunu yəqin çoxları görüb. Cavad Heyət özü də Təbrizin Bakıdakı əmanəti oldu. Özü də növbəti əmanəti...**

# "Mən istintaqa çağırılmamışam"

## ANS-in aparıcısı Elgiz Əkbər: "Kim bunu uydurub bilmirəm..."

**Xəbər verdiyimiz kimi, avqustun 13-də Sumqayıt şəhərində 29-cu kvartal, ev 11/16, mənzil 30 ünvanında yaşayan Aysel Əhmədovanın 2 aylıq körpəsi naməlum şəraitdə oğurlanıb. Hadisə ilə bağlı Sumqayıt şəhər Polis İdarəsində ananın izahatı alınıb. Teleqraf.com saytının A. Əhmədovanın sözlərinə istinad edərək yaydığı məlumata görə, istintaq prosesində ANS telekanalının "Adam içində" verilişinin aparıcısı Elgiz Əkbərin də ifadəsi alınıb.**

Xatırladaq ki, övladı oğurlanan A. Əhmədova bir neçə ay öncə "Adam içində" verilişində qonaq olub və həmin qadının problemlərinin həllinə yardım edilib.

İstintaqa çağırılması ilə bağlı məsələyə aydınlıq gətirmək üçün teleaparıcı **Elgiz Əkbərlə** əlaqə saxladıq. O bildirdi ki, heç kimə ifadə verməyib və deyilənlər hamısı yalandır: "Kim bunu yazıb, kim bunu özündən uydurub bilmirəm. Bir var, mən hansısa bir hadisəyə münasibət bildirirəm, bir də var ki, istintaqa gedib ifadə verirəm. Bunlar ayrı-ayrı şeylərdir. İstənilən vətəndaşın bu hadisənin baş verməsindən xəbəri varsa, istintaq işinə kömək edə bilərsə, özündə olan məlumatları istintaq işçiləri ilə paylaşmalıdır. Əgər məni istintaqa dəvət etsələr, çox böyük məmnuniyyətlə gedərəm, sadəcə onlar bunu etməyiblər".



Elgiz Əkbər

**Adıçəkilən qadınla olan tanışlığına gəlincə E. Əkbər bildirdi ki, onu verilişindən tanıyır və çox yaxşı insan kimi qiymətləndirir:** "O qadın mənim verilişimdə qonaq olub. Onun haqqında deyə bilərəm ki, çox yaxşı insandır və çox fədakar anadır. Biz o qadına əlimizdən gələn köməyi elədik. Bunu niyə heç kim yazmır? Onun uşaqlarına da biz sahib çıxdıq, ona tibb müəssisəsində ana olana qədər diqqət göstərdik, uşaqlarına da qayğı göstərdik. Onun alimentlə bağlı problemini də həll elədik. Bütün bunlar 3 ay bundan əvvəl baş verib. İndi biz tətilə çıxmışıq, iki aydır işləmirik. Mənim elə bir imkanım yoxdur ki, bütün insanların sonrakı həyatını izləyim".

❑ Nərgiz LİFTİYEVA

# Ərdoğanın Bakıya səfərinin gündəliyində nələr olacaq?

## Orxan Qafarlı: "Bu ziyarət Azərbaycan-Türkiyə strateji əməkdaşlığının önəmini göstərən mesaj olacaq"

**Türkiyənin yeni seçilmiş prezidenti Rəcəb Tayyib Ərdoğan ilk xarici rəsmi səfərini Azərbaycana edəcək. Bu barədə Ərdoğan ötən həftə partiyasının toplantısında məlumat verib.**



Orxan Qafarlı

Qeyd edək ki, Türkiyədə yeni seçilən dövlət və ya hökumət başçılarının ilk xarici rəsmi səfərlərini Azərbaycan və Şimali Kipr Türk Cümhuriyyətinə etmələri artıq bir ənənəyə çevrilib. Gözlənildiyi kimi, Ərdoğan da bu ənənəni pozmaq niyyətində deyil.

Bəs Ərdoğanın ilk rəsmi səfəri zamanı Azərbaycan rəhbərliyi ilə hansı məsələlər müzakirə olunacaq? Məsələ ondadır ki, son bir ayda Azərbaycanla Ermənistan cəbhəsində döyüşlər baş verib və müharibənin yenidən başlanması riski yaranıb. Bu dövrdə Azərbaycan rəhbərliyi Türkiyə hökuməti ilə məsləhətləşmələr aparıb, hətta Soçi görüşündən əvvəl də İ.Əliyevlə Ərdoğan arasında telefon danışıqları oldu.

**Ankara Universitetinin doktorantı, politoloq Orxan Qafarlının** fikrincə, Ərdoğanın prezident kimi ilk rəsmi xarici səfərini Bakıya etməsi Türkiyə ilə Azərbaycan arasında strateji münasibətlərin dərinləşməsinə səbəb olacaq: "İki ölkə arasında ilk xarici səfərlərin biri-birinə edilməsi ənənəsinin formalaşması, regionda Rusiya, İran, Avropa Birliyinə Azərbaycan-Türkiyə münasibətlərində strateji əməkdaşlığın önəmini göstərən mesaj olacaq".

**Ekspert deyir ki, Ərdoğanın Bakıya səfəri zamanı bir neçə önəmli məsələ, o cümlədən Cənubi Qafqazda regional və enerji məsələləri müzakirə olunacaq:** "Regional məsələ dedikdə əsasən Ermənistanın cəbhə xəttində atəşkəsi pozması və Soçi görüşündə müzakirə olunan məsələlər barədə məsləhətləşmələr olacaq. Eyni zamanda cəbhədə yaranan gərginliyin səbəbləri və Rusiyanın bu məsələdə maraqları müzakirə olunacaq. Eyni zamanda Türkiyənin bu gərginliyin aradan qaldırılması, yaxud savaş olacağı təqdirdə hansı yardımları edə biləcəyi məsələsi ən mühüm məqamlar olacaq. Azərbaycan və Türkiyə arasında hərbi əməkdaşlığın son vəziyyəti birgə hərbi təlimlərin 2015-ci ildə davam etdirilməsi mövzusunda razılığın əldə olunması ilə bağlı ehtimallar mövcuddur".

**Bundan başqa, O.Qafarlıya görə, Azərbaycan Avropa Birliyi və Rusiya ilə münasibətlərin dəyərləndirilməsi və eyni zamanda Türkiyənin bu münasibətlərdə Bakıya verə biləcəyi təhlükəsizlik dəstəyi çox mühümdür. O.Qafarlıya görə, Soçi görüşü formatının münaqişənin həlli prosesinə təsir imkanları, Minsk Qrupunun fəaliyyətsizliyi və Soçi prosesinin danışıqlarda yeni mərhələ kimi müzakirə olunması ehtimallar arasındadır.**

**Ekspertin zənnincə, Bakı səfəri zamanı Ərdoğanla İ.Əliyev arasında əsas müzakirə mövzularından biri də 2015-ci ilə qondarma erməni soyqırımının 100 illiyi ilə bağlı iki ölkənin ortaq fəaliyyət strategiyasının müzakirəsidir. Ekspertə görə, bu məsələdə Azərbaycan tərəfi daha çox maraqlı görünür, çünki bu il Ərdoğanın ermənilərə başsağlığı mesajı Bakıda narahatlıqla qarşılanıb. Bundan başqa, Türkiyənin Ermənistanla sərhədlərinin açılması layihəsi, Türkiyənin bu məsələ ilə bağlı net mövqeyi müzakirə olunan mövzular siyahısına daxil ediləcək. Eyni zamanda Bakıda Ərdoğanla müzakirələrdə Azərbaycanın Avrasiya İttifaqı və ya Avropa Birliyinə üzvlüyü ilə bağlı siyasəti müzakirə oluna bilər.**

**O.Qafarlıya görə, gələn il Avrasiya İttifaqı ilə gömrük anlaşması imzalamağa hazırlaşan Türkiyə dövləti Azərbaycanın Rusiya ilə münasibətlərini gərginləşdirməməsi daha çox maraq kəsb edir:** "İndi Azərbaycanın Rusiya ilə münasibətləri kəskinləşdirməsi Türkiyənin maraqlarına cavab vermir. Eyni zamanda İsraillə münasibətlərinin Bakıda müzakirə olunacağı gözlənilir. Ehtimal olunur ki, Ərdoğanın prezidentliyi dönəmində Türkiyənin İsraillə münasibətləri tamamən qırıla bilər. İki ölkə arasında TANAP və onun davamı olan TAP layihəsi də müzakirə olunacaq. Habelə, kürd enerji qaynaqlarının bu layihəyə qoşulması və İranın gələcəkdə enerji layihələrində yer alması müzakirə oluna bilər. Bundan başqa İzmirdə SOCAR-ın yeni limanının açılış tarixi ilə bağlı qərar veriləcək".

❑ KƏNAN

## Azərbaycan zabitinin ölümündə sirr pərdəsi

**19 iyul 2013-cü il tarixdə Əliyev Minas Vaqif oğlu tərəfindən qətlə yetirilmiş ehtiyatda olan zabit Şahbazov Rahib Qurban oğlunun cinayət işi ilə bağlı şok faktlar ortaya çıxıb. Mərhumun anası Şahbazova Xeyra iddia edir ki, çıxarılan hökm ədalətli deyil, çünki cinayətdə ən azı iki nəfər iştirak edib, ancaq bir nəfərə hökm oxunub. Şikayətçi övladının qətlinin səbəblərini və məhkəmənin gedişatını təfsilatı ilə "Yeni Müsavat"a danışıb: "Ailədəki yeganə oğlum bir il öncə heç bir günahı olmadan Əliyev Minas tərəfindən qətlə yetirildi. Oğlumun ilk evliliyi baş tutmamışdı.**



# Surət Hüseynovun adamının adı qətl işində

## Mərhum hərbçinin anası yalnız bir nəfərə cəza verilməsi ilə razılaşmır, cinayətin qrup şəklində törədildiyini deyir; olayın şok detalları bu yazıda; Şahbazova Xeyra: "Kaş ki, oğlum vətən yolunda şəhid olaydı, indi bu qədər haqsızlıqla üzləşməzdim..."

İlk ailəsindən ayrılandan bir müddət sonra Minasın bacısı İlahə Əliyeva ilə tanış olub. Aralarında qurulan münasibət 3 ay davam edib. Bu müddət ərzində Rahib onunla 5-6 dəfə görüşüb. Oğlumun 38, qızın isə 34 yaşı var idi. Münasibət davam etdiyi vaxt məlum olub ki, qız əvvəllər iki ilə yaxın nişanlı olub. Bir müddət keçəndən sonra Rahib qızla münasibətinin baş tutmayacağını mənə dedi. O, istəmirdi ki, qızı bədbəxt etsin. Mən də məcburiyyət qarşısında qalıb, qızın anası Sayat Əliyevaya zəng vurub məsələni ona bildirdim. O, qışqıraraq məni təhqir etdi. Ardınca "mənim əlibıçaqlı oğlum var, sənin oğlunu yaşatmayacağam" dedi. Onun sözlərindən 40 dəqiqə sonra oğlum qətlə yetirildi. Rahibə zəng vuran qızın qardaşı Minas onunla görüş təyin edib. Ağlıma gəlməzdi ki, Rahibi öldürəcəklər. Onun görüşə getməyinə özüm razı idim".

Mərhumun anası oğlunun qətli ilə bağlı dəhşətli faktlar açıqlayıb: "Rahib görüşə gedəndən 1 saat sonra meyiti üstümə gəldi. Hadisə ilə bağlı cinayət işi başlandı. İlk günlərdən məhkəmə açıq şəkildə cinayətkarın tərəfini tutmağa başladı. Belə ki, ekspertizanın rəyindən göründüyü kimi, oğlumun qatili yox, qatilləri olub. Bu cinayət ən azı iki nəfər tərəfindən törədilib. Ekspertizanın rəyində göstərilir ki, ürəkdən vurulan bıçaq yarası yuxarıdan aşağıya doğrudur və güclüdür. Zərbə vurulan zaman mərhumun ön tərəfi cinayətkara tərəf olub. Amma oğlumun bel hissəsindən də aldığı zərbə arxadan önədir. Açıq şəkildə görünür ki, zərbə eyni anda dəyib. Deməli cinayətkar ya əlindəki bıçağı dəyişməli idi, ya da oğlum arxasını çevirməli idi ki, vursun. Bu mümkünsüz bir şeydir. Hadisə törədilən "Gənclik" metrostansiyasının ətrafındakı kameralara oğlumun maşının ətrafında olan bir neçə şübhəli şəxs düşüb. Açıqca görünür ki, onlar kameralardan yayınırlar. Bundan əlavə, hadisə törədilən zamana iki saat qalmışdan Minasın telefonuna gələn zənglər araşdırıldı. Çoxlu sayda şübhəli zənglər ortaya çıxdı. Əsasən də Hüseyn Hüseynov adlı şəxsdən şübhələndik. Çünki zənglərə baxış keçirərkən, qətl törədilənə qədər Hüseyn Minasa 9 dəfə zəng edib, 4 dəfə isə SMS yazıb. Amma məhkəmədə Hüseyn bildirdi ki, Minasın ona borcu olduğu üçün zəng edibmiş. Maraqlıdır, hər 3 dəqiqədən bir pulunu istəyirmiş? Bu suallarımıza Hüseyn məhkəmədə cavab verə bilmədi".

**İstintaqda adı hallanan şəxslərdən biri də Minasın tanışı Aynurə adlı qız olub:** "O, ifadəsində göstərib ki, gün ərzində Minasa zəng etsə də, cavab verməyib. Saat 22:46 radələrində guya Minas Aynurəyə zəng edərək deyib ki, başıma elə bir oyun açmışam ki, bir də mənə zəng etmə. Lakin istintaqda da sübut olunub ki, cinayət saat 23:12 radələrində baş verib. Bu ifadədə şübhəli məqamlar var. Lakin biz zərərçəkən tərəf olaraq, bu sualları Aynurəyə verə bilmədik. Çünki o, müxtəlif bəhanələrlə məhkəməyə gəlmədi. Biz hüquqlarımızdan istifadə edərək, onun məcburi şəkildə məhkəməyə gətirilməsini tələb etdik. Lakin tələblərimiz rədd edildi. Məhkəməyə hadisə yerində olan taksi sürücüləri şahid kimi gətirildi. Onların hər biri cinayətkarın xeyrinə ifadə verdilər. Məhkəmə zamanı yüzlərlə belə şübhəli məqamlar var".

**Şikayətçi Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi İradə Həsənzadə və məhkəmə heyətinin ünvanına da ağır ittihamlar səsləndirib:** "Oğlumun qətlindən sonra Nərimanov rayon Məhkəməsində cinayət işi başlandı. Bir müddət keçəndən sonra gördük ki, müstəntiq Orxan Rüstəmov Minasın tərəfini tutur. Bununla bağlı Mehriban xanıma şikayət məktubu göndərdik. Bundan sonra müstəntiq məktub yazaraq, işin düzgün aparılacağını söylədi. Lakin 5 gündən sonra işi məhkəməyə göndərdi. Beləliklə, ciddi araşdırma olmadan cinayət ört-basdır edildi. Ağır Cinayətlər Məhkəməsində hakim İradə Həsənzadənin sədrliyi ilə məhkəmə prosesi başladı. İlk iclasda məhkəmə heyətinə daxil olan Eynulla Vəliyev açıq-aşkar cinayətkara yönləndirici suallar verərək, cinayətin xuliqanlıq zəminində törədilməsini aradan götürmək məqsədini qarşısına qoydu. Nümayəndəmizi savadsızlıqda ittiham edib aşağıladı. Hətta üstümə qışqıraraq məni alçaltdı. Çünki onlar arxayındırlar ki, istədiklərini edə bilərlər. Biz məhkəmə tərkibinə etiraz etdik. Lakin məhəl qoymadılar. Vəsatətlər verdik, hamısını rədd etdilər. Cinayət işi bir-birini təkzib edən 5 yalan ifadədən ibarət idi. İstintaq işində heç bir istinad olmadan ortaya çıxan şahid Aynurə teleqram vuraraq, guya yas mərasimi olduğu üçün məhkəməyə gəlmədi. Biz araşdırma apardıq ki, o, heç bir yas mərasimində olmayıb. Bundan əlavə, cinayətkarın ailə üzvlərindən olan şahidlərin bəziləri ifadə verməkdən imtina etdilər. Məhkəmə çox pis şəkildə hazırlanmış teatra bənzəyirdi. İş o yerə çatdı ki, cinayətkar işin necə yekunlaşacağını bildiyi üçün bizə rişxəndlə gülürdü. Bütün bunları gördükdən sonra, cənab prezident İlham Əliyeva şikayət məktubu ünvanladıq. Cinayətin qrup şəklində törədilməsini göstərən, lakin istintaq və məhkəmənin göz yumduğu sənədləri məktuba əlavə etdik".

**Şikayətçinin sözlərinə görə, məktub Prezident Administrasiyasından Baş Prokurorluğa, oradan isə Ağır Cinayətlər Məhkəməsinə göndərilib:** "Hakimlər həmin məktubu kağız parçası hesab edərək, nəzərə almadılar. Biz məhkəməyə etiraz edərək, bu ilin fevralın 2-də teatra bənzəyən məhkəmədə iştirak etməkdən imtina etdik. 3 aydan sonra bizə məhkəmənin tarixi qərarı göndərildi. Qərardan aydın oldu ki, guya bizim vəsatəti araşdırmaq istəyiblər, lakin Azərcell və Bakcell şirkətləri arxivləşdirilmiş telefon danışıqlarını verə bilmədiyi üçün araşdırmaq mümkün olmayıb. Cinayət işində həyata keçirilən ört-basdırlar bu məktubun üzərində quruldu. Bu il mayın 26-da məhkəmənin çıxardığı hökmü aldıq. Qərardan aydın oldu ki, gözlədiyimiz kimi, hakimlər xuliqanlıq maddəsini götürüb, cinayətin qrup şəklində törədilməsinə göz yumublar. Minas Əliyev isə 11 il azadlıqdan məhrum edilib. Sonradan dəqiq məlumat aldıq ki, onu 1/3-lə azadlığa buraxacaqlar".

**X.Şahbazova onu da bildirib ki, məhkəmə zamanı cinayətin əsl mahiyyətini üzə çıxarmaq üçün verilən suallar məhkəmə protokolundan çıxarılıb:** "Nümayəndəm məhkəmə qərarı ilə tanış olarkən aydın oldu ki, protokollar hakimlərin istədiyi kimi yazılıb və vəkilimizin cinayətin qrup şəklində törədilməsini sübuta yetirmək üçün verdiyi sualların heç biri qərarda öz əksini tapmayıb. Şikayət etdiyimiz zaman hakim İradə Həsənzadə üzümüzə durdu ki, sualları biz öz xeyrimizə dəyişmişik və məhkəməni öz xeyrimizə dəyişməkdə maraqlıyıq. Bunları Allah götürməz. Övlad itirən də mənəm, mühakimə olunan da. Məgər məhkəmə uzananda cinayətkara verilən cəza artır? Məhkəmədə iştirak edənlər öz imzaları ilə təsdiq edirlər ki, o suallar verilib. İndi də deyirlər ki, qohumlarınız olduğu üçün təsdiq ediblər. İndi siz deyin, insanı bu qədər alçaldarlarmı, əzərlərmi, haqsızlıq edərlərmi? Kaş ki, oğlum vətən yolunda şəhid olaydı, bu qədər haqsızlıqlarla üzləşməzdim..."

***

**Şikayətçi çıxarılan hökmdən apelyasiya şikayəti verdiklərini və avqustun 20-də şikayətə baxılacağını söyləyib:** "Biz çıxarılan hökmlə qətiyyən razı deyilik. Çünki hadisənin törədilməsində cinayətkardan çox, onun anasının təqsiri var. Amma o, hazırda azadlıqdadır. Əminəm ki, əli oğlumun qanına batan bəzi insanlar sərbəst gəzirlər. Buna dözə bilmirəm. Artıq Apelyasiya Məhkəməsinə müraciət etmişik. Əminik ki, bu məhkəmədə heç bir araşdırma aparmadan İradə Həsənzadənin rüşvət gücünə çıxardığı hökmü qüvvədə saxlayacaq. Çünki cinayətkar çox yüksək səviyyədə himayə olunur. Heç kim sadə müəllim oğlunun qətlini ört-basdır edənləri ifşa etməyəcək. Bu bir reallıqdır. Ombudsman Elmira Süleymanova şikayət məktubu göndərmişdim. Elmira xanım həmin şikayəti işə əlavə edilməsi üçün Apelyasiya Məhkəməsinə göndərdi. Bu gün (dünən -red.) məktub aldım ki, şikayət məktubu işə əlavə edilməsi üçün Bakı Ağır Cinayətlər Məhkəməsinə göndərilib. Maraqlıdır, bu iş apelyasiyadadırsa, nə üçün digər məhkəməyə göndərilir? Bütün bunlar cinayətkar Minasın necə müdafiə edildiyinin birbaşa sübutudur. Bu qədər haqsızlıqlara göz yumulduğuna görə, bizdə şübhələr oyanıb ki, cinayətkar hansısa dövlət məmuru tərəfindən himayə edilir".






BAKI AĞIR CİNAYƏTLƏR MƏHKƏMƏSİ

23 iyun 2014-cü il — Bakı şəhəri

hakim İradə Xəlil qızı Həsənzadənin sədrliyi ilə
hakimlər Eynulla Hüseyn oğlu Vəliyevdən və Əhməd Qəhrəman oğlu Quliyevdən ibarət tərkibdə
Xəqani Qurban oğlu İmanovun katibliyi ilə
dövlət ittihamçısı Azərbaycan Respublikası Baş Prokurorluğunun Dövlət İttihamının Müdafiəsi üzrə İdarəsinin Ağır Cinayətlər Məhkəmələrində Dövlət İttihamının Müdafiəsi üzrə Şöbəsinin prokuroru Fariz Əli oğlu Rzayevin
müdafiəçi Azərbaycan Respublikası Vəkillər Kollegiyasının Bakı şəhəri 6 №-li Hüquq Məsləhətxanasının vəkili Yaşar Qurban oğlu Babayevin iştirakı ilə

1987-ci il noyabrın 25-də Kirovabad şəhərində anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, orta texniki təhsilli, evli, himayəsində bir nəfər azyaşlı uşağı olan, çörəkbişirmə sexində sürücü-ekspeditor işləmiş, məhkum edilmiş, Yevlax şəhəri, M.Ə.Rəsulzadə küçəsi, ev 87 ünvanında qeydiyyatda olmaqla Bakı şəhəri, Sabunçu rayonu, Bakıxanov qəsəbəsi, Yaqub Əliyev küçəsi, «Uğur-2» yaşayış kompleksi, ev 7, mənzil 143 ünvanında yaşamış, barəsində həbs qətimkan tədbiri seçilmiş
Minas Vaqif oğlu Əliyevin

Azərbaycan Respublikasının CM-nin 120.2.2.-ci və 228.4.-cü maddələri ilə təqsirləndirilməsinə dair cinayət işinə açıq məhkəmə iclasında baxaraq

MÜƏYYƏN ETDİ:

**Zərərçəkmişin dövlət başçısına ünvanladığı müraciətdə deyilir:** "Hörmətli cənab prezident, sizdən xahiş edirəm ki, bizə kömək edin, oğlumun ölümünə bais olan bütün cinayətkarlar cəzalandırılsın. Hakim İradə Həsənzadə başda olmaqla, işi düzgün aparmayan bütün şəxslər məsuliyyətə cəlb olunsun. Çünki bu gün oğlumun işini ört-basdır edənlər, sabah başqalarının işini də belə aparacaqlar. Bunların qarşısı alınmalıdır. Biz də insanıq. Cənab prezident, bu yazını oxusanız, görərsiniz, insanı necə alçaldır, təhqir edirlər. Məhz belə haqsızlıqlara görə, insanlar intihar edirlər. Artıq mən də bu vəziyyətdəyəm. Belə davam etsə, özümü öldürüb, oğlumun yanına gedəcəyəm. Yalnız güvəndiyim Allahdır".

***

Əlavə edək ki, Minas Əliyev əvvəllər oğurluq üstündə həbs olunub, lakin pul cəriməsi ilə azadlığa buraxılıb. Araşdırmalarımız nəticəsində o da məlum oldu ki, onun atası Vaqif Əliyev 4 iyun qiyamının təşkilatçısı Surət Hüseynovun yaxın adamı və onu maliyyələşdirən şəxs olub. Sonralar Surət Hüseynovla birlikdə həbs olunaraq 9 il azadlıqdan məhrum edilib. Lakin 3 il sonra azad edilib. Azadlığa çıxandan az müddət keçməmiş həyatdan köçüb.

Yazıda adı çəkilən hər bir şəxsin mövqeyini dərc etməyə hazırıq.

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 206 (5915) 18 avqust 2014



# Diversant Karenin oxşarı

Samir SARI

**Sırağagün Rey Kərimoğlunun oğlunun toyundan çıxıb metroyla evə gələndə yolda bir diversant gördüm. Mən qatara "Neftçilər" metrostansiyasında minmişdim, diversant isə ya "Həzi Aslanov"da, ya "Əhmədli"də, ya da "Xalqlar dostluğu"nda minmişdi. O mənimlə üzbəüzdə oturmuşdu və tək deyildi, yanında qətiyyən diversanta oxşamayan, sırf türk oğlu türklərə oxşayan bir adam vardı, hərdən söhbət edirdilər.**

10 dəqiqə əvvəl ayrıldığım toyda hərbi marşlar, vətənpərvərlik şarkıları və tostları dinləmiş adam olaraq kökləndiyim müvafiq kazarma ovqatında diversantın mövcudluğu dərhal gözümə sataşdı və fikirləşdim ki, bunu bura kim buraxıb. Yəni metronu qoruyan mühafizə polisləri heç qəzet oxumurlarmı, televizora baxmırlarmı? Necə ola bilər ki, bu diversant onlara tanış gəlməyib?

Əslində üzbəüzdə oturan diversant heç bir təxribatçı hərəkətə yol vermir, danışmırdı, eləcə yorğun halda gözlərini boşluğa zilləyib oturmuşdu, yanındakı adam ona hərdən nəsə deməsə bəlkə də yuxulayacaqdı. Kənardan baxan elə bilərdi, bu tikintidə fəhlə işləyən yazıq bir adamdır. Çünki sifəti gündən qarsalanmışdı, qollarının əzələsi də geyindiyi qısaqol köynəkdən açıq-aşkar bilinirdi. Amma nə bilmək olar, diversantlar yaxşı maskalanır axı.

Gördüyümdən bəri onu diversant hesab eləməyimin əsas səbəbi isə bu adamın 11 gün öncə Tovuzun Ağbulaq kəndində ələ keçirilmiş (kim tərəfindən, necə - bu söhbətə bir də qayıdarıq) daha sonra ölmüş (niyə, necə - çalışarıq bu mövzuya bir daha qayıtmayaq) Karenə birə-bir oxşamasıydı. Adam elə bil, Karenin yumurta əkiziydi. Hətta toyda içmiş olsaydım, güman edərdim ki, gözümə elə görünür.

Amma yox, adam Karenin kserosurətiydi. Hətta onu videolentə çəkib bütün dünyaya göstərmək olardı ki, Karen əslində ölməyib, budur, sağdır və onu diversant kimi mühakimə edib iş kəsəcəyik. Di gəl, Beynəlxalq Qırmızı Xaç Komitəsi gəlib ona baş çəkəndə, ailəsinə məktub yazmasını istəyəndə kələyin üstü açılardı.

Üzbəüzdəki diversantın əlində bir çantası vardı və hiss olunurdu ki, onda kəsici-deşici alətlər var. Bəlsini metroya kim buraxıb? Əgər baxıb buraxıblarsa, deməli, qorxulu alətlər deyil. Ancaq adamı təkcə diversant Karenə bu qədər oxşadığına görə metroya buraxmamaq, hətta içəri otağa dəvət edib sənədlərini əməllicə araşdırmaq lazım idi.

Xülasə, bizim diversant gəlib "İnşaatçılar"da düşdü. O, qapıdan çıxıb üç-beş addım atmışdı ki, bayaqdan yanında oturan və türk olduğu şübhə doğurmayan yoldaşı onun arxasınca qışqırdı: "Ayə, direli götüməyi yadından çıxartma ha". O da dönüb təmiz ana dilimizdə, ləhcəsiz-filansız "yaxşı da, mazgimi direlləmə" dedi və getdi.

Məsələ xeyli dərəcədə aydınlaşdı. Bunlar diversant deyil, hardasa təmir işləri aparan fəhlələrdir. Çünki onlar direllə haranısa deşib bikford şnuru, trotil-mrotil yerləşdirəcəklərsə, onda direli metronun içində qışqıra-qışqıra istəməzdi. O cür sarsaq diversant olmaz.

Əsl diversant odur ki, kəndə gələ, rastına çıxan ilk evdən çay, siqaret istəyə, qolunu buran adama müqavimət göstərməyə, gedə kəndin pivəxanasında bir parç da pivə vura, brifinq keçirə.

Budur, diversant Karenə görə dünyanın o başından da ölkəmizə "narahatlıq dolu" məktub gəlir, deyirlər, o necə olub ki, ölüb. Amma bu məsələyə dair qəti epikriz var ki, Karen qorxudan ölüb. Bununla da o, dünya üzərində qorxudan ölən ilk diversant kimi tarixə düşmək üzrədir.

Diversantın ələ keçirilməsində xüsusi rəşadət göstərmiş hərbçilərin komandirinin dediyi "dörd nəfərdən ibarət diversant qrupunun məhv edilməsi" barədə iddia isə hələ də doğrulmayıb (ümumiyyətlə, Allah ermənilərı xəcalət eləsin, generalın 71-90 arası itki verməsi barədə iddiasını da təsdiqləmirlər, dirəşiblər).

Amma milli mediamız dövlətçilik kursuna sadiqdir. Hələ də "Tovuzda yaxalanmış diversant qrupunun sağ ələ keçirilmiş üzvü Karen" yazır. Düzdür, belə olanda Kareni tutan Röyala, onun anası Fəridə xanıma haqsızlıq olur, amma ta neyləmək olar, milli manefə bu cür qırmızı yalan danışmağı və yazmağı tələb edirsə, gərək elə edək.

**Hətta milli mənafe qəti şəkildə tələb edərsə, mənimlə üzbəüzdə oturan və Karenə oxşayan fəhləni də diversant kimi tutub basmaq olardı. Təki vətən övladları ayıq-sayıq olsunlar və sıx birləşsinlər.**




# Müdafiə nazirlərinin Naxçıvan görüşü Rusiyaya mesajdır

## Qabil Hüseynli: "Belə bir format Qərbin də maraqlarına uyğundur..."

**Avqustun 18-də Naxçıvanda Azərbaycan, Türkiyə və Gürcüstanın müdafiə nazirləri arasında görüş keçiriləcək. görüş Azərbaycanın müdafiə naziri Zakir Həsənovun dəvətilə baş tutacaq. Nazirlər Naxçıvanda yerli hakimiyyətlə görüşəcək, o cümlədən hərbi hissələrlə tanış olacaqlar. Bundan başqa Naxçıvanda 3 ölkə nazirlərinin təkbətək və üçtərəfli görüşləri baş tutacaq.**

Qeyd edək ki, bu, Azərbaycan-Ermənistan cəbhəsində baş verən son döyüş əməliyyatlarından sonra regionun 3 dövləti arasında hərbi sahədə ilk məsləhətləşmələr olacaq. Hələlik nazirlərin proqramları açıqlanmasa da, müşahidəçilərə görə, əsas mövzular Azərbaycan-Ermənistan cəbhəsindəki vəziyyət, eləcə də Rusiyanın bölgədəki hərbi iştirakı mövzuları olacaq. çünki sonuncu məsələ hər üç ölkəni narahat edir.

Yeri gəlmişkən, NATO ölkəsi Türkiyə ilə yanaşı Gürcüstan da bir qədər əvvəl Moldova və Ukrayna kimi ABŞ-ın hərbi müttəfiqi statusu alıb. Ancaq Azərbaycan hələ ki hər hansı hərbi əməkdaşlıq müqaviləsi və ya bloka qoşulmağa hazırlaşmır.

**Politoloq Qabil Hüseynli** deyir ki, 3 ölkənin müdafiə nazirlərinin görüşü ilə bağlı uzağa gedən nəticələr çıxarmaq tələskənlik olardı. Onun sözlərinə görə, 3 ölkə arasında hərbi alyansın yaranması hazırda qeyri-real görünür: "Hələ ki, siyasi yönləri o qədər də aydın olmayan ölkələrin bir araya gəlmək təşəbbüsüdür. Yaxşıdır, amma Gürcüstan AB-yə assosiativ müqavilə imzalayıb, NATO ilə üzvlüyə iddialıdır, Amerika ilə hərbi müttəfiqdir. Türkiyə NATO-nun tam hüquqlu üzvüdür, NATO ölkəsidir. Azərbaycan isə hələ ki tarazlaşdırılmış siyasi xəttə sadiq olduğunu bildirir, amma Rusiya münasibətləri inkişaf etdirməyə daha çox meyllidir. Bu ən çox Qarabağ məsələsində üstünlük qazanmaq naminə atılan addımlardır".


Qabil Hüseynli

**Q.Hüseynlinin fikrincə, bu toplantı daha çox region üçün Rusiya təhlükəsinə qarşı informasiya mübadiləsi və məsləhətləşmələr üçün nəzərdə tutula bilər:** "Belə bir şəraitdə siyasi oriyentasiyalarında fərq olan ölkələrin guya hərbi alyans yaradacağı ilə bağlı söylənilən fikirlər həqiqəti əks etdirmir. Gürcüstan Ermənistanla isti münasibətlərini qoruyub saxlayır. Türkiyə Azərbaycanla hərbi-strateji müqavilə imzalamağı hələ ki, uyğun hesab eləmir. Bu 3 ölkənin müdafiə nazirliklərinin toplanması nəyi ifadə edəcək? Belə çıxır ki, burada da daha çox Rusiyanın Cənubi Qafqazdakı hökmranlığını neytrallaşdırmağa yönəlmiş məsələlər müzakirə edilə bilər. Bunu da zəruri edən səbəblər var. Ermənistanda Rusiyanın böyük hərbi bazaları var ki, onlardan da hər 3 dövlətə, əsas da NATO üzvü olan Türkiyəyə qarşı istifadə edilməsi nəzərdə tutulur. Ermənistan sərhədləri də Rusiya sərhədçiləri tərəfindən qorunur. Gürcüstanın isə üçdə birini Rusiya ilhaq edib. Son 3 günlük Ermənistan-Azərbaycan lokal müharibəsində də Rusiyanın barmağı olduğu ehtimallar arasında ilk yerdə dayanır. Belə olan təqdirdə bu dövlətlər ən azından hərbi-siyasi sahədə *(yəni buraya müntəzəm siyasi məsləhətləşmələr, hərbi-siyasi informasiya mübadiləsi, zəruri olduğu halda isə əməkdaşlığın alyans səviyyəsinə yüksəldilməsi kimi məsələlərin müzakirəsi daxildir)* mövzular diqqət mərkəzində ola bilər. Bu cür müzakirələrin ənənəvi xarakter alması istisna deyil. Mənim zənnimcə, belə bir format Qərbin də maraqlarına uyğundur. Eyni zamanda Rusiya və Ermənistanın özlərindən hədsiz müştəbehlikləri müəyyən qədər tormozlaya bilər. Bu ölkələrin xarici işlər nazirlərinin də belə bir formatda görüşlərinin keçirildiyini nəzərə alsaq, siyasi perspektivin kifayət qədər uğurlu ola biləcəyini də söyləmək olar".

❑ KƏNAN

# Rusiyalı yazar Biləsuvardan Putinə müraciət etdi

## Aleksandr Fomenkov: "Qarabağ məsələsi sülh yolu ilə həll olunmasa, Azərbaycan xalqı işğal altındakı torpaqlarını müharibə yolu ilə geri alacaq"

**Diaspor Jurnalistləri Birliyinin (DJB) təşkilatçılığı ilə bir neçə diaspor üzvü son günlər cəbhə xəttində döyüşlərdə dünyasını dəyişən 3 şəhidin ailəsinə baş çəkiblər. Daha sonra Biləsuvar rayonunda dəfn edilən şəhidlərin məzarları ziyarət olunub.**

DJB sədri Fuad Hüseynzadənin verdiyi məlumata görə, görüşdə Diaspor Jurnalistləri Birliyinin İdarə heyətinin üzvləri, Diasporla İş üzrə Dövlət Komitəsinin əməkdaşı Əbülfəz Şeydabəyov, Niderland-Azərbaycan Evinin sədri Elxan Mirhəşimli, **məşhur rusiyalı araşdırmaçı yazar Aleksandr Fomenkov**, Ümumrusiya Azərbaycan Konqresinin təmsilçisi, diaspor jurnalisti İlahə Ələkbərova iştirak edib.

A.Fomenkov Biləsuvar rayonunda şəhid ailələri ilə görüşündə Rusiya Prezidenti Vladimir Putinə müraciət edib. O bildirib ki, İkinci Dünya müharibəsi illərində onun doğma diyarı Taqanroqun azadlığı uğrunda 2000-dən çox azərbaycanlı şəhid olub: "Taqanroqda azərbaycanlı əsgərlərin qəbiristanlığı var. Əgər onlar olmasaydı bəlkə də nə mənim ata-anam sağ qalardı, nə də mən indi bu dünyada olardım. Mən fürsətdən istifadə edib öz ölkəmin Prezidenti Vladimir Putinə müraciət edirəm. Mən bu gün


Aleksandr Fomenkov

Azərbaycanın Biləsuvar rayonunda üç şəhidin ailəsinə baş çəkmişəm. Hər bir şəhid ailəsi ilə görüşəndə elə bilirdim ki, onlar məni etirazla qarşılayacaqlar. Amma onlar məni gördən sanki, gözlərində ümid çırağı yanırdı. Onlar ürəklərini açıb istəklərini deyirdilər".

**A.Fomenkov Dağlıq Qarabağ probleminin həllində Rusiyanın vasitəçiliyinin əsas olduğunu deyib:** "Azərbaycanın 20 faiz torpaqları Ermənistan tərəfindən işğal olunub. Azərbaycanlılar öz doğma torpaqlarına, evlərinə gedə, ata-babalarının qəbirlərinə baş çəkə bilmirlər. Bu, heç bir beynəlxalq qanunlara sığmır. Qarabağ Azərbaycan torpağıdır. Ermənilər ora sonradan köçürülüb. Azərbaycan xalqı bu torpaqların erməni işğalı altında qalması ilə razılaşmayacaq. Azərbaycan müasir, inkişaf edən dövlətdir. Sülhə üstünlük verən Azərbaycan dövləti istəyir ki, bu problem dinc yolla həll olunsun. Amma sizi inandırıram ki, bu məsələ sülh yolu ilə həll olunmasa, onlar işğal altındakı torpaqlarını müharibə yolu ilə geri alacaqlar. Azərbaycan dövləti buna qadirdir və müşahidələrimə əsasən deyə bilərəm ki, Azərbaycan xalqında gücü ruh yüksəkliyi var".

❑ Cavid TURAN

**Ötən həftə Azərbaycan türklərinin adını hər zaman iftixarla çəkdiyi və tarix durduqca qəlbimizdə yaşayacaq bir insan - böyük türkoloq alim, doktor Cavad Heyət həyata vida etdi. İranda ilk dəfə qapalı və açıq ürək əməliyyatlarını həyata keçirən, həmçinin ürək və böyrək köçürmələrini edən Cavad doktor haqqında hələ onilliklər boyu yazılacaq, deyiləcək.**



# "Ququşa dedim ki, ya türkü oxu, ya da səni səhnədən aşağı atacağam"

## Doktor Cavad Heyət: "Onda qızın atası demişdi ki, doktor Cavad bizim Pərvini alacaqdı, bilmirəm nə oldu"

Ancaq elə bu ağır xəbər yayılan zaman xatırladım ki, mənim bu böyük insandan aldığım, lakin indiyədək çap olunmayan bir müsahibəm var. 2011-ci ilin qışında doktorla Bakıda, Nizami küçəsində prezidentin ona bağışladığı mənzilində görüşüb iki saatdan artıq davam edən səmimi söhbət etmişdik. O zaman söhbətin bir hissəsini qəzetə hazırlasam da bəzi məsələləri qiymətli xatirə olaraq saxlamışdım.

Bu qeydlərin bəzilərinin çapını məqsədəuyğun saymamışdım, doktorun Bakıda və Tehrandakı iş fəaliyyətinə mane olar deyə. İran hakimiyyətinin onun hər addımını izləməsi səbəbindən sağlığında bəzi mətləbləri açıqlamağa lüzum görməmişdim. İran hakimiyyəti isə Cavad Heyətə sonuncu pisliyini də etdi, onun Təbrizdə dəfninə izn verməməklə. Ruhu şad olsun bu böyük insanın, onsuz da Bakını da Vətən bilirdi...

Söhbətimizdə Cümhuriyyət qurucusu Məhəmməd Əmin Rəsulzadə haqqında danışmışdı. İnanırdı ki, Azərbaycan hakimiyyətinin Rəsulzadəyə münasibəti dəyişəcək. Doğrudan da iki il sonra Rəsulzadənin yubileyinin keçirilməsi barədə prezident sərəncamı verildi. Onun dediklərindən:

- 1947-ci ildə Rəsulzadə İstanbula gəlmişdi. Mən də o zaman cərrahlıq ixtisası üzrə kursdaydım. Onun haqqında da eşitmişdim. Amma görüşə bilmədik. Onda mənim 22 yaşım var idi. O zaman bolşeviklər gələn zaman Qarabağdan xeyli qaçanlar var idi, Dilşad xanım kimi fizika professoru da onlardan biri idi. (Durub Dilşad xanımın İstanbulda çəkilmiş bir fotosunu gətirib göstərir-E.P.) Özü, anası, dayısı qaçıb Türkiyəyə gəlmişdilər. Mənim xalamoğlum da aşağı kursda oxuyurdu. Dilşad xanım onun fizika professoru idi. Evlərinə gedərdik, bir ailə kimiydik. Onlar Məmməd Əmini çox yaxşı tanıyırdılar, bizə onun haqqında yaxşı şeylər deyirdilər. Sonra biz Tehrana qayıtdıq. Onun ölümündən gec xəbər tutdum. Dünyanın ən böyük adamlarından biri olan Tağızadə Məhəmməd Əmin haqqında yazmışdı. Sonradan iki dəfə gedib onun qəbrini ziyarət etmişəm.

***

**Ustad Şəhriyar haqqında dediklərindən:** "Məhəmmədhüseyn Şəhriyarı 1980-ci illərdə Tehrana gətirib xəstəxanaya yerləşdirdik. Sonra mən İstanbuldakı türkoloji konfransda iştirak etmək üçün İstanbula getdim. Orda eşitdm ki, Şəhriyar vəfat edib və mən konfransdaca bunu elan elədim, sükut oldu, qəzetlərdə məqalələr dərc olundu. Şəhriyar çox yaxşı adam idi və tam mənası ilə şair idi". Şeirlərindən əzbər bildiyi birisini deməsini xahiş etdim. Sözümü yerə salmadı:

*"Çoxlar incikdi ki, sən onlara naz eyləmisən,*
*Mən də incik ki, mənim nazımı az eyləmisən.*
*Etmisən eşqi bu viranə könüldə məskən,*
*Evin abad ola, dərvişə niyaz eyləmisən...*
*Sinə bir dəşti-Muğandır, quzu yan-yanə yatıb,*
*Mənim ağlar gözümü orda Araz eyləmisən...*

(Bu gözəl deyilişi videoya da almaq fürsətini əldən vermirəm-E.P.)

***- Şəhriyarla görüşünüzdə nədən danışardınız?***

- Şeir, ədəbiyyat, türklük, türkçülükdən.

***- Araz həsrətindən də?***

- Əlbəttə. Onun ən böyük arzusu Bakıya gəlmək idi. Mən 1971-ci ildə Bakıya gəldim. Ancaq Şəhriyar Bakını görə bilmədi. Şeirlərində Məmməd Rahim, Bəxtiyar Vahabzadə, Süleyman Rüstəmə daha çox xitab edirdi. Xaqani Şirvaninin də uyuduğu Şairlər Məqbərəsində dəfn olunub. Təbrizə gedəndə baş çəkirəm. Onun "Heydərbaba"sı onu dünyaca məşhur elədi. Həmçinin, fars şeirinin Hafizidir. Amma Azərbaycan şairidir. Bundan başqa, Səhənd milli şair idi. Bu gün Yəhya Şeyda, Danışmaz kimi yaxşı şairlər var. Amma Şəhriyara tay yoxdur.

***- Güneydə 35-40 milyon niyə daha Şəhriyara tay yetirə bilmir?***

- Şərait müsaid deyil.

***- Amma inqilabçılar, həbsə düşənlər var.***

- Bəli, var.

***- Asılanlarla bağlı xəbər gəldi. Hərəkatçılar da varmı edam olunanlar sırasında?***

- İnanmıram siyasi fikrə görə adam assınlar. Amma işgəncə-filan verirlər. Evin zindanı isə dəhşətli zindandır. Həbsdə olmamışam, amma doktor kimi getmişəm Evinə də.

***- Edam hökmünə necə yanaşırsınız?***

- İranda olduğu kimi burda da edam cəzası olmalıdır. Adam öldürəni həbsə salırlar, çıxır, yenə öldürür. Bizlər üçün edam olmalıdır. Şərqdə bu, lazımdır. İkincisi də silahı işlədən bilməlidir ki, onu işlətsə mütləq edam olunacaq.

***- İranda narkotiklə bağlı olanlar da bəzən edam olunur...***

- Narkotik də adam öldürmək kimi bir şeydir.

***- 35-40 milyon Güneydə, 9 milyon Quzeydə. Siz şimallı-cənublu Azərbaycanın gələcək taleyini necə görürsünüz?***

- Yaxın müddət üçün bir dəyişiklik görmürəm. Olsa da, kiçik dəyişiklik olacaq. Amma gələcəkdə dəyişikliklər ola bilər.

***- Bütövləşməni, Araz həsrətinə son qoyulmasını nəzərdə tutursunuz?***

- Allah bilir. Bu, tarixin faciəsidir. Hər şey ola bilər.

***- İranda bəzi şovinist dairələr Azərbaycana "Şimali İran" deyirlər...***

- Onu biz də deyirik. Dərbəndə kimi İrandır. Amma İran türk ölkəsidir (gülür). Min illik tarixi var. Bizim bu sözümüzə bir söz deyə bilmirlər.

***- "Azərbaycan bir olsun, paytaxtı Təbriz olsun" şüarlarını vaxtaşırı eşidirik. Siz necə, Bütöv Azərbaycanın paytaxtının Təbriz olmasını istərdinizmi?***

- Mən istərdim ki, hər şəhər özünü idarə eləsin. Gələcəkdə federasiya şəkildə birləşmə ola bilər.

***- Doktor Çöhrəqanlı ilə münasibətləriniz necədir?***

- Təmasımız çox olub. Özünü mənim tələbəm bilərdi. İndi Amerikadadır.



### "Gələcəkdə federasiya şəklində birləşmə ola bilər"

***- İndi Güneydə onu əvəz edə biləcək lider varmı?***

- İmkan vermirlər.

***- Elçibəy deyirdi bütün yollar Savalana gedəcək...***

- Hələ tezdir. Uzun çəkəcək.

***- Şah ailəsinin faciəsindən mətbuat yazdı...***

- Mən də eşitdim. Saray ailəsi üzvləri sonradan böyüdükləri şəraiti görməyəndə depressiyaya düşür.

***- Şahla görüşünüz olmamışdı ki?***

- Atası Məmməd Rza ilə 5 dəfə görüşmüşəm. Çox nəzakətli, tərbiyəli adam idi. Bir konfrans keçirtmək istəyəndə müraciət etmişəm, həmişə razılıq verib. Mənim atamı çox yaxşı tanıyırdı. Rza şah atama demişdi ki, doktor gələndə gəlsin, onu görüm. Getdim gördüm. Çünki atamla onun atası çox yaxın tanış idi. Amma atamla razı deyildi. Atam Ali Məhkəmənin sədri idi və sözə yox, qanuna baxardı. Bir də üsyan edən doktor Müsəddiq məsələsində qarşıdurma oldu. Onun dosyesi Ali Məhkəməyə gələndə atam demişdi bunun işini məhkəməyə göndərməyin, bu, qəhrəmandır. Ancaq qulaq asmadılar və cəzasını da gördü. Bundan sonra da şahın mənə münasibəti dəyişmədi.

***- İslam İnqilabının aparıcı qüvvəsi də azərbaycanlılar idi. Yəqin xatırlayırsınız.***

- Əsasən azərbaycanlılar idi. Təəssüf ki, milli şüur az idi. Ancaq bu gün milli şüur çox inkişaf edib. Gənclər yetişib.

***- Hakimiyyətdə olan azərbaycanlılar necə, milli təəssüb çəkirmi?***

- Tək-tük var. Parlamentdə də azıq. Əsas gənclərdir, onlar da iş başında deyil.

***- Müğənni Ququşa münasibətiniz necədir?***

- Gəncəlidir, atasını tanıyırdım, burdan gedib. Kafeyə gələndə Ququşu da gətirərdi, 4-5 yaşı vardı onda, xanəndələri təqlid edərdi. Amma Ququşun elə bir səsi yoxdur, civ-civ səsi var. Bir dəfə dedik türkü oxu. Oxumadı. Mən durub səhnəyə çıxdım. Dedim, ya türkü oxu, ya da səni səhnədən aşağı atacağam. Ondan sonra "Ayrılığ"ı oxudu. Bu, 40 il əvvəlin söhbətidir. Ancaq eşitdim deyib mən azəri qızıyam. Bakıya gəlsə, konsertinə gedərəm.

***- Səhnədən atmaq üçün? (gülürük)***

- Yox, o vaxt oxudu axı...

***- Keçən əsrdə Səttarxan, Xiyabanı və Pişəvəri inqilabı oldu. Nəticə isə yox. Bu faktlar sizə nə deyir?***

- Yalnız Pişəvəri Azərbaycan üçün çalışdı, qiyam elədi. Ona görə də yıxdılar. Gedib məzarını ziyarət etmişəm. Bizim gənclər indi onu çox sevir.

***

**Daha sonra doktor ailə həyatı ilə bağlı maraqlı məqamları bölüşür:** "Mən əvvəl Türkiyədə evlənmişdim, artıq vəfat edib o xanım. Qızın anası dedi oğlum, bu qədər azərbaycanlı qızı olduğu halda niyə gedib türkiyəli qız aldın? Dedim teyzə - xalaya belə deyərdik - mən elçiliyə adam göndərdim, ancaq Türkiyədəki İran Azərbaycanlıları Təşkilatı sədrinin qızının atası demişdi biz tələbəyə qız vermərik. Xalam dedi belə şey olmaz, mən soruşaram. Gəldi, dedi mən onlarla danışdım, heç kim heç nə deməyib, onlar səni gözləyirmişlər. Dedi sən ki, evlənəndə onları toya çağırmısan, şoka düşüblər. Sonra mən elçi göndərdiyim adamdan soruşdum ki, niyə getməmişdin, bu, nə iş idi gördün? Dedi atandan qorxdum. Dedim mənə deyəydin, başqasını göndərərdim... Həmin təşkilat xeyriyyə işləri ilə məşğul idi və sevdiyim qızın atası da mənim atamla dost idi. Sonra o, qızını İrana apardı, atamın görüşünə getdilər. Atam da onda İranın generalı idi. İran xəzinəsinin açarı atamda idi. Atam onları aparıb xəzinəni göstərir. Onda qızın atası demişdi ki, doktor Cavad bizim Pərvini alacaqdı, bilmirəm nə oldu. Sonra bunu atam mənə dedi".

***- Siz Pərvin xanımı sevirdiniz?***

- Bəli. Ancaq "yox" cavabı məni elə tərpətdi ki, dedim "cəhənnəm olsun, necə yəni tələbəyə qız vermərik". Mən türkiyəli aldım, o qız da başqasına ərə getdi. O da vəfat edib. Amma toyuma gəlmişdilər. Çox möhtərəm bir ailənin qızı idi. Çox, çox... Toylarda da məndən başqa birisi ilə oynamazdı. Toyda da bir yerdə oynadıq...(pauza) Ailə qurduğum türkiyəli xanım vəfat edəndən sonra isə tehranlı bir xanımla ailə qurdum. Ondan bir qızım var. Bir qızım Bostonda yaşayır.

***- Yaşıdlarınız haqda da düşünürsünüz yəqin.***

- Əlbəttə. Dostlarımın, yaşıdlarımın dünyasını dəyişməsi adamı üzür. Həmyaşıd olduğum hər kəs ölüb getdi...

***- Darıxanda nə edirsiniz?***

- Kitab oxuyuram. Heç yerə çıxmıram. Tədbirə, görüşə dəvət edəndə gəlib maşınla aparırlar...

***

Səmimi söhbətimiz sonra da davam etmişdi. Bu yaşda ürəyini ağrılardan qorumasının sirrini açıb tövsiyələr vermişdi. Söhbət əsnasında telefon zəngləri gələr və cəldliklə özünü çatdırıb dəstəyi qaldırar, xəstələri üçün vaxt təyin edərdi. Doktor yaşının 90-a uzanan vədəsində "ağaye-Elşad" dediyi bu sətirlərin müəllifini qapıya qədər ötürmüşdü. Böyüklüyün simvoluydu...

Bizcə, həmin ünvanda Cavad Heyətin ev muzeyinin yaradılması barədə sərəncam olsa, doktorun ruhu da sevinərdi. Hər halda bu mənzilin qapısı qapalı qalmamalıdır, axı burda Cavad Heyət ruhu dolaşır.

Allah rəhmət eləsin!

❑ Elşad PAŞASOY
Foto müəllifindir

YENİ MÜSAVAT
N 206 (5915) 18 avqust 2014



# Oyun-moyun

Zamin HACI
zaminhaci@gmail.com

**İngilislər çox fırıldaq camaatdır. Nəinki bizim neftimizi bp vasitəsiylə sümürüb aparırlar, üstəlik, o neftdən qalan dilənçi payını da yapistlərə cürbəcür torbalar tikib əlimizdən alırlar. "Evrovizion" oyunu təzə bitmişdi, indi də "Avropa oyunları" hoqqasını atıblar. Nəticədə Azərbaycanın pulları yenidən axıb xaricə gedir. İnanmırsınızsa, elə həmin İngiltərə mətbuatından bu sitata baxın:**

"Simon Clegg Britaniya şirkətlərinin 2015-ci il Bakı Oyunlarına necə hazırlaşdıqları barədə danışıb.

Onun qəzetə müsahibəsinə görə "yüzlərlə" Britaniya şirkəti hökumətdən ictimai əlaqələrdən tutmuş, iaşə və tibb xidməti sahələrinədək "milyonlarla funt sterlinqlik" sifarişlər alır.

Məqalədə deyilir ki, Britaniya idmanında qüdrətli fiqurlardan biri olan cənab Clegg 3 ay bundan əvvəl Bakı 2015 Avropa Oyunları Əməliyyat Komitəsinin baş icraçı direktoru təyin edilib.

O qəzetə bildirib ki, hazırda özünün Bakıdakı ofisində London 2012 Olimpiadasının təşkilat komitəsində işləmiş 112 britaniyalı işçi çalışır". ("Azadlıq radiosu").

Təsadüfi deyil ki, həmin bu Clegg müəllim Azərbaycanı "son dərəcə gözəl yer", "yaşamaq üçün ən yaxşı ölkə" və sair təriflərə layiq görübdür. Əlbəttə. Belə qaz tapıb yolsam mən də deyərəm nə gözəl qazdır.

Amma Qərbdə tənqidci media da var və onlar Cleqqdən soruşublar ki, Azərbaycan hakimiyyəti hüquq müdafiəçilərinə, jurnalistlərə divan tutur, belə ərazidə Avropa adına hansısa tədbiri keçirtmək nə dərəcədə düzgündür. Cleqq deyib: "Üç aydır Azərbaycanda dolaşıram, dediklərinizin şahidi olmamışam".

Unikal cavabdır. Həm də həyasızlıq örnəyi kimi bizim yapistlərə də yaraya bilər. Bu ingilis idman məmurunun məntiqindən belə çıxır ki, hökumət Leyla Yunusu Kürdəxanıdakı havasız kamerada boğmaqdan əl çəkib "Koroğlu" metro stansiyasının üstündəki fəvvarə dəmir-dümüründən asmalı imiş, bəlkə o zaman Cleqq Azərbaycandakı repressiyaları görərmiş. Yoxsa hara baxsan alukobonid və hasarlardır, ölkəmizdə repressiyanı kimə aşkar göstərirlər ki? Bir növ, almanların Terezində yaratdığı "nümunəvi getto" kimi bir ölkəmiz var. Konfet kağızına bükülmüş təzəyi hər kəsə sırıyırlar. Əslində yuxarıda yazdığım kimi, sırımaq deyə bir şey yoxdur, əcnəbilər özlərini aldanmış kimi göstərir, neft-kürü yaxmacından qopardırlar. Azərbaycanlılar? Onların canı cəhənnəmə... Nə çoxdur dünyada belə sümürülən savadsız xalqlar... Bu da olsun növbətisi. Əllərinə şaqşaq ver, oyun-moyun ver, başları qarışsın.

Oyun-moyun yazdım yadıma düşdü, qabaqlar, mən uşaq olanda maraqlı bir uşaq nağılı var idi, təəssüf ki, indi unudulur, yazıram, gənc nəsil də bilsin. Təxminən bizim vəziyyətimiz təsvir edilibdir.

Deyir, bir qurd (misal üçün, Ergenekondan çıxan Bozqurd hesab edək) acıbmış, qabağına qoyun çıxır. İstəyir qoyunu yesin, qoyun deyir ki, qurd müəllim, gəl bir az gizlənpaç oynayaq, sonra məni yeyərsən. Qurd razılaşır, gözünü yumur, qoyun təpəni aşıb qaçır kəndə. Bundan sonra bir quzu tutur, quzu da deyir məni elə-belə yesən dadsız olar, icazə ver gedim istiot-duz gətirim, bu da belə sivişir. Nəhayət, at görür, at deyir dabanımda şokolad var, qabaqca onu ye, ağzın şirin olsun. Qurd əyilib bunun dabanına baxanda at təpiyi tutuzdurur, qurd sərilir yerə. Bir neçə saat sonra özünə gələn hörmətli Qurd yoldaş belə bir poeziya örnəyi səsləndirir:

***"Getdin gördün qoyun,***
***Neynirsən oyun-moyun,***
***Ye qalsın quruca boyun.***
***Getdin gördün quzu,***
***Neynirsən istiotu, duzu,***
***Ye qalsın quruca buynuzu.***
***Getdin gördün at,***
***Neynirsən şokolad?***
***Ye, yanında yıxıl yat".***

Sonda Britaniya parlamentindən xahiş edirəm bu sənət əsərini tərcümə eləyib ingilis məktəblilərə oxutdurulmasına çalışsınlar. Lazım gəlsə Taleh Heydərova müraciət eləsinlər.



# İran İŞİD-i əzmək üçün İraqa qoşun yeritdi

## Terrorçuların türkmənlərin də yaşadığı şiə bölgələrinə üz tutması Tehranın səbir kasasını daşırdı; Türkiyənin tərəddüd elədiyi addımı cənub qonşumuz atdı; baş nazir: "İŞİD göründüyündən də qorxuncdur..."

**İran şiə bölgələrini İŞİD terrorçularından mühafizə etmək üçün sözügedən ərazilərə qoşun yeridib ABŞ və İraq ordusunun birgə əməliyyatlarından sonra kürd bölgələrindən sıxışdırılıb çıxarılan terrorçular İraqın şiələr və türkmənlər yaşayan ərazilərə üz tutduğundan İran ötən gecə sübh çağı rəsmi olaraq İraqın Hanəkin vilayətinə qoşun yeridib (axar.az).**

Bölgəyə zirehli qoşun birləşmələri göndərən İran rəhbərliyi bu addımın şiə əhalisinin təhlükəsizliyini təmin edilməsi üçün atıldığını bildirib. 81-ci ordu ilə İraqa girən İran silahlı qüvvələri indiyədək İŞİD-ə qarşı mübarizə üçün İraqa 130 pilotunu göndərmişdi. Beləliklə, aylardır Türkiyənin atmağa tərəddüd elədiyi bir addımı (ola bilsin səbəb həm də Türkiyə diplomatlarının girovluqda qalmasıdır) İran reallaşdırmış oldu.

Bu arada **İngiltərənin baş naziri Devid Kemeron** İŞİD haqqında qorxunc fikirlər söyləyib. Baş nazir hörgütün göründüyündən də təhlükəli olduğunu bildirib: "İŞİD müvəffəqiyyət qazanarsa, Aralıq dənizinin sərhədlərində bir terrorçu dövlətlə qarşı-qarşıya qalmış olacağıq. Onlar NATO üzvünə qonşu olacaqlar".

**Kemeron bildirib ki, İŞİD indi məhv edilməsə, ciddi təhlükələrlə üz-üzə olacaqlar:** "Onlar Türkiyə sərhədinə qədər irəliləyiblər. İordaniya və Livan üzərində də onların nəzarəti var. Bu, Avropa üçün real təhlükədir".

Terror təşkilatının gündən-günə gücləndiyini, minlərlə kilometr əraziyə nəzarət etdiyini deyən baş nazir xilafətin yaranmağa başladığını da etiraf edib: "Onlar təkcə insanların düşüncələrinə nəzarət etmir. Hazırda minlərlə kilometr ərazidə hakimiyyət qurublar. Bir müddətdən sonra İngiltərə küçələrində də biz onları görə bilərik. Son dərəcə təhlükəli bir zamandayıq".

**İngiltərə hökumət başçısı çıxış yolunu dövlətlərin əməkdaşlığını gücləndirməklə konkret addım atılmasında görüb:** "Terrorçuların hərəkətlərini öncədən görmək, qabaqlayıcı tədbirlərin gücləndirilməsi vacibdir. Kəşfiyyat məlumatlarına əsasən onların hər addımı izlənilməlidir".

**Baş nazir bu mövzuda ərəb ölkələri ilə əməkdaşlığın genişləndirilməsini də vacib sayıb:** "Vahid təhlükəyə qarşı İngiltərə Səudiyyə Ərəbistanı, Qətər, Birləşmiş Ərəb Əmirlikləri, Türkiyə və İran kimi ölkələrlə əməkdaşlıq etməlidir. Prinsipial siyasəti bir kənara atmaq lazımdır".

❑ Siyasət şöbəsi

# Fransanın Qarabağ təşəbbüsü niyə fiasko oldu?

## Cəbhədəki "blits-müharibə" regiona, münaqişə tərəflərinə Rusiyanın təsir imkanlarının güclü olduğunu nümayiş etdirdi; insidentdən Qərbin də götürəcəyi dərslər var...

**Qarabağ münaqişəsi zonasında bu ayın əvvəllərində baş verən "mini-müharibə"nin uzaqgedən nəticələrini siyasi analitiklər yəqin ki, hələ bir müddət də təhlil edəcəklər. Atəşkəsin bunca genişmiqyaslı pozulması şübhə yox ki, bəzi dərslərin götürülməsinə yardımçı olacaq. Söhbət ilk növbədə illərdir həlli uzanan konfliktin hər an alovlana biləcəyi, status-kvonun qalmasının nə dərəcədə təhlükəli olmasından gedir.**

Bəllidir ki, vasitəçi dövlətlər, ən əvvəl də ABŞ və Avropa müharibə riskinin aradan qaldırılmasına daha çox səy göstərir. Nədən ki, müharibənin Rusiyanın maraqlarına daha çox cavab verəcəyinin Qərbdə fərqindədirlər. Ötən həftə ABŞ Milli Təhlükəsizlik Şurasının aparıcı ekspertlərindən birinin bu xüsusda söylədiyi fikri də qəribçiliyə salmağa dəymir. Təhlilçi bildirmişdi ki, hərbi əməliyyatlar başlasa, udan böyük ehtimalla, yalnız bir tərəf olacaq - Moskva.

Görünür, bu və başqa səbəblərdən konfliktə cəlb olunmuş Qərb dövlətləri tələsir və Azərbaycanla Ermənistan arasında bacardıqca çox dinc təmas imkanları arayır. Fransa prezidenti Fransua Ollandın Güney Qafqaza səfəri çərçivəsində iki ölkə prezidentlərini Parisdə görüşdürmək təklifi də



Fransua Olland

müstəsna olaraq buna hesablanmışdı. Lakin təşəbbüs iflas oldu və indi aydın olur ki, təkcə bir amilə görə yox, amillər toplusuna görə.

Məsələ ondadır ki, cəbhədəki son hadisələr və Soçi görüşü hər halda Rusiyanın münaqişə tərəflərinə təsir gücünü göstərmiş oldu, bu təsirin hələ ki, yetərincə ciddi olduğunu ortaya qoydu. Eyni zamanda Kremlin Qərbə ünvanlı, təhdid xarakterli belə bir ismarışını açıq şəkidə ortaya qoydu ki, "Siz uzaqda, mənsə lap yaxındayam, regionun ağası da başqası yox - özüməm".

Gerçək ondan ibarətdir ki, Fransua Ollandın görüş təşəbbüsünü uzun müddət dəyərləndirməyən, faktiki, rədd edən Azərbaycan və Ermənistan prezidentləri Putinin görüş təklifini dərhal qəbul elədilər. Düşünmürük ki, motiv təkcə cəbhə bölgəsindəki vəziyyətlə bağlı idi. Əgər bağlı idisə də, yenə prezidentlərin Parisə deyil, Moskvaya yollanması Rusiyanın münaqişədəki rolunu nümayiş etdirir.

Əfsuslar olsun ki, bu rol nə qədər mühümdüsə, bir o qədər konstruktiv mahiyyətli deyil, destruktivdir. Rusiya illərdir bu konfliktdən regionda öz maraqlarını bərqərar eləmək üçün çalışır, nəinki onun hansısa yolla nizamlanmasına. Kremlin konflikt tərəflərini silahlandırması da bişəkk, eyni məramdan qaynaqlanır, nəinki tərəflərdən hansısa birinin hərbi üstünlüyünü təmin edib problemin həllini tezləşdirmək istəyindən.

Elə ən maraqlısı odur ki, hər iki tərəfin hərbi arsenalı əsasən rus silah-sursat və hərbi texnikası hesabına komplektləşdirilib. Bu, Moskvaya Azərbaycanla Ermənistan arasında manipulyasiya edib onları özündən daha asılı vəziyyətdə saxlamaq üçün əlavə rıçaq yaradır. Şübhəsiz, Qərbdə - Amerikada, Avropada, NATO-da bu faktoru da bilir və ciddiyə alırlar.

Soçi görüşünün belə tez baş tutmasının, deməli, həm də Ollandın təşəbbüsünün uğursuzluğa düçar olmasının növbəti səbəbi burada axtarıla bilər. Yəni münaqişə tərəfləri Rusiyaya təəssüf ki, daha çox bağlı görünür, nəinki Qərbə. Belə vəziyyətin günahını təkcə Qərbdə axtarmaq doğru olmazdı. Səbəb eyni zamanda Bakı və İrəvanın öz milli təhlükəsizliklərini hələ də Rusiyaya bağlamasıdır.

Ermənistanın mövqeyi bəlli. O, cəmi bir öncəki ilə müqayisədə Rusiyadan indi qat-qat çox asılı durumdadır. Halbuki, məsələn, Fransadakı erməni icması öz nüfuzu və təsir imkanlarına görə Rusiyadakından heç də zəif deyil, əksinə. Amma İrəvan Ermənistanı özünün "kiçik bacısı" adlandıran Fransanın sözünü yerə saldı.

**Azərbaycana gəlincə, böyük güclər arasında "balans siyasəti" yürütməklə arada sıxılmaqda davam edən Bakı məlum oldu ki, Rusiyadan daha çox ehtiyat edir. O üzdən vaxtaşırı "balansı" pozaraq məhz Kremlə reveranslarını əsirgəmir. Azərbaycan iqtidarı belə reveransları artıq ABŞ-ın hərbi müttəfiqi statusu alan və 2017-ci ilədək tamamilə peşəkar orduya keçəcək qonşu Gürcüstan kimi etməyə də bilər. Bundan ötrü isə birinci növbədə siyasi iradə tələb olunur.**

❑ Z.SƏFƏROĞLU

YENİ MÜSAVAT
N 206 (5915) 18 avqust 2014

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az
**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Rusiyaya qarşı sanksiyalar Minsk Qrupunu bitirəcək

## Ekspertə görə, postsovet məkanı uğrunda ABŞ-Rusiya rəqabətinin sərt mərhələyə adlaması Qarabağ ətrafında daha dolaşıq situasiya yaradıb; yaxın zamanda münaqişə zonasında yeni gərginlik başqa qaldıra bilər...

**Artıq üçüncü on illikdir Dağlıq Qarabağ ixtilafının dinc yolla nizamlanmasına məsul olan ATƏT-n Minsk Qrupu ümidləri heç cür doğrulda bilmədi. Beynəlxalq hüququn əsas norma və prinsiplərini, BMT Təhlükəsizlik Şurasının Dağlıq Qarabağa dair məlum qətnamələrini əsas götürmək əvəzinə, həmsədr ölkələrin maraqlarının əsirinə çevrilən, Ermənistanı işğalçı kimi tanımaqdan imtina edən bu qrup indi ən lazımsız dövrünü yaşayır.**

**Doğrudur, hələ ki, münaqişə tərəfləri, məxsusən də Azərbaycan Minsk Qrupundan imtina eləməyə hazırlaşmır, çünki başqa format və ya alternativlər tapılmayıb. Ötə yandan, ayrı-ayrılıqda hələ ki, Rusiyanın və Qərbin (ABŞ və Avropa) problemi təkbaşına həll eləmək resursları məhduddur. Rusiya bu xüsusda üstün imkanlara malik olsa da, o da problemin həllini Avrasiya layihələri çərçivəsində görür ki, bu da həldən daha çox, münaqişənin qeyri-müəyyən vaxtadək konservasiyası anlamına gəlir.**

***

Sual yaranır: cəbhə xəttindəki son insidentdən sonra Qarabağ nizamlanmasının aqibəti necə olacaq? Proses Minsk Qrupu çərçivəsində, yoxsa başqa formatda davam etdiriləcək? Ümumiyyətlə, davam etdiriləcəkmi? Qoyulan suallara əfsuslar olsun ki, prezidentlərin Soşi görüşündən sonra da sanballı cavablar tapılmayıb.

Əksinə, onlar daha da qəlizləşmiş kimi görünür hazırda. Həm də o səbəbə ki, Rusiya prezidenti Soçidə açıq mətnlə bildirdi ki, Rusiya beynəlxalq vasitəçilik institutunun legitimliyini qəbul eləsə də, münaqişənin həllində o, "ortaq tarixi-mədəni və qonşuluq" reallıqlarından qaynaqlanan özəl rola malikdir. Yəni problemin yoluna qoyulmasında şimal qonşumuz özünə müstəsna söz sahibliyi tanınmasını tələb edir.

Ancaq pis-yaxşı hələ ki, Qarabağ danışıqları Minsk Qrupu formatında aparılır. Əgər buna danışıq demək olarsa, təbii ki. Bəs, bundan sonra qurum öz fəaliyyətini minimum səviyyədə effektli apara, atəşkəsin qorunmasını təmin edə biləcəkmi? Ən əsası, mandat çərçivəsində Qarabağ məsələsində ortaq mövqedən çıxış eləmək üçün Rusiya və ABŞ-ın maraqları necə uzlaşdırılacaq?

Mövcud vəziyyəti şərh edən Rusiya Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunun Orta Asiya və Qafqazın Tədqiqi Mərkəzinin eksperti Andrey Areşev indilikdə Dağlıq Qarabağ ətrafında danışıqlar prosesinin kifayət qədər dolaşıq olduğunu düşünür: "Ötən ayın axırı, bu ayın əvvəllərində cəbhədə hərbi qarşıdurmanın kəskinləşməsi situasiyanı bir az da dolaşıq hala gətirib. Məsələ ondadır ki, hazırda heç kim qarşılıqlı etimadın möhkəmlənməsindən, snayperlərin, ağır texnikanın təmas xəttindən geri çəkilməsinin vacibliyindən danışmır. Hamı ərazi məsələlərində, hansısa güzəştlərdə, sülhməramlıların yeridilməsi məsələsində ilişib qalıb. Qarabağ ixtilafı isə postsovet məkanında ən unikaldır. O mənada ki, kövrək atəşkəs 20 ildən yuxarıdır ki, xarici müdaxilə olmadan gözlənilir".

Ekspert son insidentdə Qərbin roluna işarə edərək deyir: "Tamamilə aydındır ki, ABŞ postsovet məkanı uğrunda ciddi mübarizəyə başlayıb. Bunu biz Ukraynanın timsalında görürük. Təsadüfi deyil ki, Qarabağda kəskinləşmə ABŞ və Avropa Birliyini Rusiyaya qarşı sanksiyaları kəskinləşdirdiyi məqama düşdü. Bu, heç bir halda Birləşmiş Ştatların vasitəçi, həmsədr dövlət olaraq daha proqnozlaşdırılan, daha adekvat ölkə olduğunu söyləməyə əsas vermir. Belə durum problem yaradır".



Rusiyalı təhlilçi danışıqlar prosesində heç bir irəliləyiş perspektivi gözləmir: "İlk növbədə də ona görə ki, Soçi görüşünün yekunu heç də hamının xoşuna gəlməyəcək və istisna deyil ki, ən yaxın zamanda regionda yeni gərginliyin şahidi olacağıq - qoy olsun hələlik təbliğati gərginliyin. Təkcə bu, kifayət qədər ciddi effekt doğura bilər. Ancaq mənim əminliyimə görə, Rusiyanın qəti istəyi belədir ki, son məqama qədər nə ABŞ-la, nə də ələlxüsus Avropa Birliyi ilə öz arasını vurmasın. Yəni Rusiyada heç kim məsələni konfrontasiya planında qoymur. Hazırda heç kim də Minsk Qrupundan çıxmaq və yaxud öz fəaliyyətini dondurmaq üçün kəskin diplomatik xarakterli addımlardan danışmır".

***

Ancaq politoloqun bəzi fikirlərini bölüşmək mümkün deyil. Məsələ ondadır ki, Rusiyanın Ukraynadakı hərəkətləri birmənalı şəkildə beynəlxalq hüquqa, Qərbə qarşı yönəlib və Kreml geri çəkilməyincə həm ABŞ-la, həm də Avropa İttifaqı ilə münasibətlərin böhrana girməsini önləmək mümkün olmayacaq. Kreml isə belə görünür, öz mövqeyindən geri durmaq fikrində deyil, çünki bu, Putinin populyarlığına ölümcül zərbə vurardı.

Deməli, Rusiyanın Minsk Qrupunun digər həmsədr ölkələri ilə Qarabağ məsələsində yaxın dönəmdə sinxron hərəkət eləmək perspektivi sıfrın yanındadır.

**Əslində bu gün Minsk Qrupu ən çox Rusiyanın əl-ayağına dolaşır. Soçi görüşü bunun bir daha əyani nümayişi oldu. Görüşün bir hədəfi də elə vasitəçilik institutunun "klinik ölüm" keçirdiyini, Moskvanın məsələdə təkbaşına hərəkət edə biləcəyini Amerika və Avropaya göstərmək idi. Mesaj yəqin ki, aidiyyəti ünvanlara çatıb. Cavabı yəqin ki, çox gözləmək lazım gəlməyəcək...**

# ABŞ-dan növbəti ikili standart yanaşması




## "Amerika həmişə erməni lobbisinin təsiri altına düşərək qeyri-obyektiv mövqe tutub..."

**Ermənilər hər vəchlə Bakıda qəfildən dünyasını dəyişən diversant Karen Petrosyanın ölümünü siyasiləşdirməyə və Azərbaycan əleyhinə yeni təbliğat arqumentinə çevirməyə çalışırlar. Gözlənilən idi. Çünki düşmən bizdən fərqli olaraq belə insidentlərdən məharətlə yararlanmağı bacarır. Əfsus ki, bu yöndə bəzi nəticəyə də nail ola biliblər.**

Məsələn, Karen Petrosyan ölümünə artıq ABŞ Dövlət Departamentindən reaksiya gəlib. Amerika xarici siyasət idarəsi insidentdən "dərin narahatlıq keçirdiyini" bildirib, ölənin yaxınlarına başsağlığı verib və tərəfləri bu cür hallardan çəkinməyə, atəşkəs rejimini saxlamağa, həmçinin, Azərbaycan və Ermənistanı beynəlxalq humanitar qaydalara əməl etməyə çağırıb.

Xatırladaq ki, avqustun 7-də Tovuz rayonunda ermənilərin kəşfiyyat-təxribat qrupu qoşunların təmas xəttini keçməyə cəhd göstərib. Müdafiə Nazirliyinin məlumatına görə, əsgərlərimiz dəstənin 4 üzvünü məhv edib, daha bir üzvü, Berd rayonunun Çinari kənd sakini, 1989-ci il təvəllüdlü Karen Petrosyan isə ələ keçirilib. Lakin avqustun 8-də səhər saatlarında Petrosyan qəflətən naməlum səbəbdən dünyasını dəyişib.

"Dövlət Departamentinin tutduğu mövqe çox təəccüblüdür. Çünki münaqişə zamanı Ermənistan ərazisində indiyə kimi öldürülən azərbaycanlıların cəsədinin geri qaytarılması ilə bağlı bu dövlət heç bir iş görməyib. Bunu salamnews-a açıqlamasında **politoloq Qabil Hüseynli** Departamentin Karen Petrosyanla bağlı yaydığı bəyanatına münasibətini açıqlayarkən bildirib.

**Politoloq qeyd edib ki, bu məsələ hətta Azərbaycanla ABŞ arasında gərginliyin yaranmasına səbəb olub:** "Ermənistan öldürülən Beyləqan rayon sakini Həsən Həsənovun cəsədinin və kəlbəcərli Dilqəm Əhmədov və Şahbaz Quliyevin geri qaytarılması ilə bağlı aparılan danışıqlara bütün vasitələrlə mane olub, Azərbaycanın onların geri qaytarılması ilə bağlı tələbini yerinə yetirməyib. Ancaq Karen Petrosyanın əsir düşdükdən sonra dünyasını dəyişməsi bu məsələni yenidən gündəmə gətirib. Əgər Amerika bu məsələdə obyektivlik nümayiş etdirmək istəyirsə, əvvəl baş vermiş hadisələrə də prinsipial mövqedən yanaşsın".

**Q.Hüseynli Karen Petrosyanın Azərbaycanda dünyasını dəyişən yeganə əsir olduğunu qeyd edib:** "Bundan əvvəl isə əsir düşən Ermənistan vətəndaşlarını rəsmi Bakı geri qaytarıb. İndi də ilk növbədə Ermənistan girov götürdüyü Azərbaycan vətəndaşlarını geri qaytarsın ki, rəsmi Bakı da ölən erməninin cəsədini təhvil versin".

**Politoloq vurğulayıb ki, Amerika Dövlət Departamentinin bəyanatı Vaşinqtonun növbəti dəfə ikili standartlarla hərəkət etdiyini sübut edir:** "Bu dövlət həmişə erməni lobbi təşkilatlarının təsiri altına düşərək qeyri-obyektiv mövqe tutub. Bundan başqa, Cənubi Qafqaz bölgəsində baş verən hadisələrin siyasi anatomiyasını bilərəkdən Ermənistanın xeyrinə dəyişməyə çalışıb. Bu siyasət sübut edir ki, ABŞ dövləti bu kimi məsələlərdə naşıdır. Bu da Ağ Evin məsələyə yanlış münasibət göstərməsinə səbəb olur".

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 206 (5915) 18 avqust 2014

**Türkiyədə prezident seçkisi keçirilən gün ölkə parlamentinin sədri Cəmil Çiçək demişdi ki, seçki bitəndən sonra geniş müzakirələr başlanmasının tərəfdarı deyil, siyasilər də, vətəndaşlar da seçki qutularından çıxan gerçəyi qəbul edib gələcəyə baxmalıdırlar.**

# “Padişahım, çox yaşa...” - Ankaradan görünənlər

## Türkiyədəki 10 avqust prezident seçkisinə subyektiv baxış

**Türkiyə Böyük Millət Məclisi sədrinin bu arzusunu qismən doğrulmuş saymaq olar. Rəcəb Tayyib Ərdoğanın seçkidəki qələbəsi artıq müzakirə mövzusu deyil. Ölkədəki əsas fikir dartışmaları müxalifətin hansı səbəbdən başarısız olması haqqındadır. Arqumentlər, fikirlər, müzakirə şəkilləri fərqli olsa da sonuc dəyişmir - ortaq fikir budur ki, müxalifət seçkidə yanlış taktika yürütdüyünə görə məğlub olub.**

Türkiyənin bir sıra analitikləri vahid namizəd projesinin fiaskosunu öncədən “müjdələmişdilər”. Beynəlxalq müstəvidə tanınmasına, bir sıra dünya liderləri ilə şəxsi münasibətləri olmasına baxmayaraq vətəndaşın tanımadığı professor Ekmeleddin İhsanoğlunun vahid namizəd elan edilməsi seçkiyə qədər monolitliklərini qoruyan əsas müxalifət partiyalarının - CHP və MHP-nin içərisində ciddi təlatüm yaratmışdı. “Çatı adayı” projesinin CHP-yə təsirinin daha böyük olduğunu söyləmək üçün xeyli fakt var. İlk günlər partiyadan olan millət vəkilləri TBMM-də media qarşısına çıxaraq buna etiraz etdilər, sonradan bu gərginlik yatırılsa da seçki günü CHP-lilərin ciddi bir kəsimi seçkiyə gəlmədi, gələnlərin bir qismi “öz solçumuzdur” deyib səslərini kürdlərin namizədi Selahettin Demirtaşa verməklə partiya qərarının əleyhinə işlədilər, seçkidən 2 gün sonra partiyanın parlamentdəki qrup başqan vəkili Müherrem İnce istefa edəcəyini dedi, partiyanın bir neçə millət vəkili bu təşəbbüsə qoşulacağını bildirdi;söhbət AKP-nin seks skandalı kaseti ilə siyasətdən tamamilə silmək istədiyi, ancaq başarısız olduğu CHP-nin keçmiş sədri Dəniz Baykalın partiyadan ayrılaraq yeni bir partiya yaratmaq istədiyinə qədər uzandı. Bu gün də partiya içərisində fövqəladə qurultay çağırılaraq Kılıçdaroğlunun sədrlikdən uzaqlaşdırılması müzakirələri davam edir.

**Seçki günü CHP-nin baş qərargahında yaşananlar partiyanın qələbədən nəticələr bilinmədən öncə əl üzdüyünü ortaya qoyurdu.** Sakit koridorlar, ana müxalifət partiyası üzvlərinin duruma adekvat olmayan həyəcansızlığı, prosesi kənar seyrçi kimi izləmələri bir çox qəzetçilər kimi bizi də şaşırtmışdı. İlkin nəticələr elan edildikdən sonra media önünə CHP sədri Kemal Kılıçdaroğlunun deyil, partiyanın baş katibi Gürsel Tekinin çıxması isə media cameəsi üçün tam bir sürpriz oldu. Professor Ekmeleddin İhsanoğlunun təbliğat mitinqlərində aktiv iştirak edən Kemal Kılıçdaroğlu seçkinin kulminasiyasında ortalarda görünmədi.

**Milliyyətçi Hərəkat Pariyasında isə hava bir qədər fərqli idi.** Əsas qərargahın ilk qatında partiya mənsubları canlı yayımla seçki nəticələrini izləyir, müşahidə apardıqları seçki məntəqələrində gəldikləri nəticə ilə Yüksək Seçim Qurumunun açıqladığı nəticələri müqayisə edir, pariya mənsubları ilə, bölgələrlə davamlı əlaqə saxlayırdılar. Seçkinin nəticələri açıqlanmağa başlayandan iki saat sonra isə MHP sədri Dövlət Bahçeli partiya rəhbərliyi ilə bir araya gəlib 2 saatdan çox sürən müzakirələr apardı, gec saatlar olmasına baxmayaraq media qarşısına özü çıxdı. Devlet Bahçeli baş nazir Ərdoğanı təbrik etməsə də seçkinin nəticələrini tanıdıqlarını, ancaq AKP-nin seçkiləri saxtalaşdırdığı üçün Çankaya Köşkü ilə münasibətlərdə məsafə saxlayacaqlarını dedi. Bahçelinin “bu seçkidə Türkiyədə korrupsiya və rüşvət qalib gəldi, ədalət məğlub oldu” sözləri bir çox media quruluşlarının manşetinə çıxdı.



**CHP-də olduğu kimi seçkinin ardından MHP-də də sədr dəyişikliyinin vacibliyi haqqında müzakirələr davam edir.** AKP-yə bir neçə seçki qazandıran Devlet Bahçelinin artıq millətçi və ülküçü cameəyə rəhbərlik etmək iqtidarında olmadığını düşünənlər var. Bu kəsim iddia edir ki, illərdir MHP bütün siyasətini yalnız iqtidarı tənqid etmək üzərində qurur, ideoloji baza zamanın tələblərinə uyğun yenilənmir, ideoloji yenilənməni həyata keçirəcək şəxslər partiyadan süni əngəllərlə uzaqlaşdırılır, bu da partiyada dinamizmi azaldır, nəticədə də partiya Türkiyə siyasətində haqq etdiyi yeri tuta bilmir.

**Əslində AKP iqtidarının Türkiyədə türklüyə qarşı savaş açması, milliyyətçiliyi tamamilə sıxışdırması toplumda heç də zəif olmayan etiraz yaradıb.** 30 mart bələdiyyə seçkisində MHP-nin aldığı səs faizlərini 8-10 faizlərdən 18 faizə yaxınlaşdırması toplumun milliyyətçiliyə dəstəyinin ifadəsidir. Ancaq partiya içərisindəki Bahçeli əleyhdarları düşünür ki, sədr partiyanın Türkiyə siyasətində söz sahibi olması üçün gərəkli olan qətiyyəti göstərmir, partiyaiçi demokratiyanı məhdudlaşdırmaqla, vətəndaşa gələcəklə bağlı dəqiq platforma təqdim etmək istəyənlərin önünü kəsməklə milliyyətçi dünya görüşünün topluma daha geniş nüfuz etməsini əngelləyir. Bahçeli tərəfdarları isə iddia edir ki, AKP iqtidarının əsas hədəflərindən biri milliyyətçi dünya görüşünü yox etməkdir, Devlet Bahçeli bu məqsədə nail olunmaması üçün partiyanı hər cür zərbələrdə qoruyur, iqtidarın MHP-liləri “xərcləmək” planlarının qarşısını alır.

**Seçki günündən bu yana müxalifət partiyalarının bir-birinə qarşılıqlı ittihamları da səngimir.** Hər iki partiyada hesab edirlər ki, Ekmeleddin İhsanoğlunun qələbəsini təmin emək üçün çalışmayan məhz digər partiyadır. Hər iki partiyada seçkiyə ayrı-ayrı namizədlərlə gedilməsi, ikinci mərhələdə güclərin birləşdirilməsinin daha doğru taktika olduğunu düşünənlər var. Artıq sınanma şansı keçmişdə qaldığı üçün bu yöntəmin hansı nəticələrə gətirəcəyi ilə bağlı dəqiq fikir söyləmək mümkün deyil. Görünən odur ki, Türkiyə siyasətinin yaxın tarixi əsas müxalifət partiyalarının qarşılıqlı didişməsi ilə yadda qalacaq.

**Təbii, müxalifətin parçalanma meyllərindən, partiyadaxili ixtilaflardan ən çox qazanan AKP olacaq. Seçkidən o qədər də uğurlu sayılmayan nəticə ilə çıxan AKP rəqiblərini uzunmüddətli böhrana salmaq üçün bu ixtilaflardan bacardıqca yararlanmağa çalışacaq.**

AKP qələbə əldə etsə də partiya içərisindən verilən xəbərlərə görə, artıq partiyanın keçmiş sədri olan Rəcəb Tayyib Ərdoğan sonuclardan qətiyyən razı deyil. 50 faizlik baryeri cəmi 1,8 faizlə aşan AKP liderinin seçki nəticələrinə görə əsəbi olduğu bildirilir. Ərdoğan bu rəqəmləri arzuladığı mənzərəyə uyğun saymır, bütün dövlət imkanlarını səfərbər etsə də partiyasının heç olmasa, 55-57 faizlik nəticə əldə edə bilməməsini komandasının ciddi uğursuzluğu sayır. Belə aşağı nəticələr andiçmə mərasimindən sonra Ərdoğanın parlament seçkisinin tarixini önə çəkmək planlarına da imkan vermir. Çünki ortada seçkiyə gəlməyən ciddi bir kəsim var. 15 milyon seçici ölkə tarixinin ilk prezident seçkisinə qatılmayıb.

Onların içərisində vətəndaşlıq borcuna barmaqarası baxanlar, məsələn, seçki dönəmində tətilə gedənlər olsa, çoxları prosesi bilərəkdən boykot edənlərdir. Böyük ehtimalla , boykotçular bu seçimləri ilə həm iqtidara, həm də müxalifətə etirazlarını bildiriblər. Təkcə İstanbulda 2,7 milyon vətəndaş seçkiyə gəlməyib. Seçki ekspertləri deyir ki, 11 milyon seçicisi olan İstanbulda son illərdə belə nəticə görünməyib. Seçki ekspertləri ona da əmindirlər ki, AKP öz qələbəsini məhz boykotçula görə təmin edə bilib. Daha açıq desək, boykotçular öz seçki bülletenlərini AKP-yə peşkəş edib.

Müxalifət təmsilçiləri və seçki ekspertləri əmindirlər ki, AKP bu seçkidə də saxtakarlığa yol verib. Durum ATƏT-in 10 avqust seçkisi ilə bağlı hesabatında da yer alıb. Əsas saxtalaşdırma seçki günü ölkədə və yaşayış yerində olmayan vətəndaşların bülletenlərindən istifadədir. Seçki günü ölkəyə və yaşayış yerinə dönüb səsverməyə gələn vətəndaşlar artıq seçkidə “iştirak etdiklərini” görüblər. Məntəqələrdə onlara bildiriblər ki, səhər saatlarında “səs” veriblər. Müxalifət düşərgəsində iddia edirlər ki, bu məsələ üçün AKP hər məhəllədə xüsusi qrupar yaradıb. Muxtarların nəzarətində olan qruplar seçki günü boş olan mənzillərdə qeydiyyatda olan insanların yerinə səs verməklə AKP-nin səs sayını artırıblar. Ən geniş yayılan saxtakarlıqlardan biri də mobil telefonlarla seçki məntəqələrinə daxil olma olub. Türkiyənin seçki qanunlarına görə bu, qadağandır. Səbəbi sadədir. İqtidar bu yolla vətəndaşdan səsini satın alır - səs vermə kabinəsində bülletenin şəklini çəkən şəxs iqtidar partiyasına gəlib sübutu təqdim edir, vəd olunan pulu alır. Azərbaycan seçicisinə o qədər də yad mənzərə deyil.

Seçki saxtalaşdırmasında önəmli nöqtələrdən biri də şikayətlər üçün son dərəcə qısa zaman verilməsidir. Səs vermə hüququndan qanunsuz istifadə edildiyini iddia edən şəxslər də, hər hansı səbəbdən səs verməyə buraxılmayan da, partiyalar da seçki problemləri ilə bağlı Yüksək Seçim Qurumuna avqustun 11-i saat 17-yə qədər şikayət edə bilərdilər. Bu məsələ Türkiyə seçki qanununun ən yanlış tərəflərindən biri kimi qiymətləndirilir.

**Türkiyədəki seçki prosesi əsasən Ərdoğan-Kılıçdaroğlu mübarizəsi kontekstində müzakirə edildiyi üçün çox zaman üçüncü namizəd - Selahettin Demirtaşın seçki performansı kölgədə qalır.** İlk gündən onun qalib olmayacağı aydın idi. Ancaq onun seçkidə 10 faizə yaxın səs toplaya bilməsi çoxları üçün gözlənilməz oldu. Diqqət çəkən fakt odur ki, Demirtaş PKK-nın, kürdlərin namizədi kimi təqdim olunsa da kürdlər yaşayan bölgələrdə seçkinin favoriti Rəcəb Tayyib Ərdoğan oldu. Demirtaş isə solçuların, liberalların səslərini qazandı. Türkiyədəki ənənəvi siyasətin dəyişməsini arzulayan vətəndaşlardan tutmuş, seksual azlıqlara qədər, xeyli qrup seçkidə Demirtaşı dəstəklədi. Seçki günü Ankaranın mərkəzi Kızılay meydanında lezbiyanların göstərisinə şahid olduq. Üzərində Demirtaşın şəkli olan köynəklər geyən qrup üzvləri kürd bölgələrindəki mərasimlərdə səslənən “quş səsi”ni çıxararaq yürüyürdülər.

Türkiyədə son seçki mənzərəsini dəqiq ifadə edən iki amili vurğulamağı da vacib sayırıq.

**Ölkənin keçmiş prezidenti Ahmet Nejdet Sezer və keçmiş baş nazir Tansu Çiller seçkiyə gəlmədilər. Hər halda Türkiyə dövlətinin iki önəmli şəxsi bu addımlarını seçki prosesinə etimad etmədiklərinə görə atmayıblar. Boykotçuların bu arada ən çox qullandığı ifadə isə Osmanlı sultanlarına ithaf edilən “padişahım, çox yaşa” təbiridir. Təbii, ironik mənada.**

❑ **Aygün MURADXANLI**

YENİ MÜSAVAT
N 206 (5915) 18 avqust 2014

**Xalq arasında "Vosmoy bazarı" adı ilə tanınan "8-ci kilometr" bazarında ilk baxışdan hər şey maddi durumu aşağı olan insanların büdcəsinə uyğundur. Burada 2 manata köynək, 3 manata ayaqqabı, 1-2 manata istənilən uşaq paltarını ala bilərsiniz.**



# Çindən gətirilmiş "gizli qatillər"

## Bakıda 3 manata uşaq ayaqqabıları, 1-2 manata köynək-şalvarlar satılır; **Eyyub Hüseynov:** "Bu cür mallar daha çox tullantılardan və kimyəvi maddələrdən hazırlanır..."

Ancaq görünüşə aldanmayıb bu malların keyfiyyətinə də diqqət etsəniz, başqa bir mənzərə ilə qarşılaşacaqsınız. Bazarda satılan mallar sizin və övladınızın "gizli qatillər"idir. Ucuz olduğu üçün sevinə - sevinə aldığınız malların səhhətinizə necə təsir etdiyini də unutmayın.

Mövzu ilə əlaqədar musavat.com-un əməkdaşı bazardakı durumu araşdırıb.

Bazarın girişində nə satış mədəniyyəti, nə də müştəri məmnuniyyəti nəzərə alınmayıb. Hər kəs ticarətin ən yabanı üsuluna əl atıb. Kimi piştaxta adı ilə quraşdırdığı taxtanın, kimi də böyük bir arabanın üzərinə açıq halda paltarları üst-üstə yığıb. Alıcılar da arı pətəyə qonan kimi piştaxtaların başına toplaşıblar. Bir-birinə qarışan paltarlar gündə azı 100 -150 nəfərin əlində gəzir, sonra isə kimsə onu alıb uşağına geyindirir.

Təəccüblüsü budur ki, bütün bu antisanitariya heç kimi narahat etmir. Üstəlik, açıq şəkildə əldə gəzdirilərək satılan uşaq paltarlarının da müştərisi az deyil. 3 manata satılan uşaq ayaqqabıları, 1 manata köynək, şalvar və sair maddi baxımdan istehlakçıların tələblərinə cavab versə də, keyfiyyət baxımından bunu demək olmaz.

Alıcıların bir çoxu bu şəraitdə satılan paltarların sağlamlığa vurduğu ziyandan xəbərsizdir. Söhbət etdiyimiz bir neçə alıcı bu malların həm qiymətindən, həm də keyfiyyətindən razılıq edir. Vəziyyət o həddə çatıb ki, müştərilər Çin mallarını Türkiyə istehsalı adı ilə alırlar.

Bəs, bütün bu deyilənlər istehlakçı hüquqlarını pozmurmu? Keyfiyyətsiz və antisanitariya vəziyyətində satılan mallar insan səhhətinə nə dərəcədə ziyan vurur? Bu kimi suallara **Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov** aydınlıq gətirdi.

**Birlik sədrinin sözlərinə görə, Azərbaycanda hətta brend dükanlarda belə, saxta mallara, keyfiyyətsiz paltarlara rast gəlmək olar:** "Bizim ölkədə keyfiyyət baxımından bazara nəzarət olunmur. Belə halların daha çox yayılmasının səbəbi istehlakçıların ucuz mallara tələbatının çox olmasıdır" .







**E.Hüseynov onu da bildirdi ki, ayaqqabı və bədən dərisi ilə birbaşa təmasda olan geyimlərini alarkən çox diqqətli olmaq lazımdır:** "İlk növbədə baxmaq lazımdır ki, paltarın rəngi çıxmasın. Asanlıqla çıxan rəng insanı zəhərləyə bilər. Bundan başqa paltardan pis qoxu gəlməməlidir. Kəskin qoxusu olan paltarlar daha çox kimyəvi maddələrdən və tullantılardan hazırlanır".

**Ekspert xüsusilə alt paltarları və uşaq paltarları alarkən istehlakçıları diqqətli olmağa səslədi:** "Təəssüf ki, ölkə bazarına gətirilən malların 90 faizi yoxlanılmadan satışa buraxılır. Normal ekspertiza aparılmır. Keyfiyyətsiz uşaq paltarları xüsusilə təhlükəlidir, dəri xəstəliklərinə, tədricən zəhərlənməyə gətirib çıxara bilər".

**Ekspert bildirdi ki, paltarların hansı şəraitdə saxlanılmasının və satılmasının da rolu böyükdür:** "Açıq havada, qablaşdırılmamış şəkildə satılan paltarlar müxtəlif xəstəliklərin yayılmasına səbəb olur. Əlaqədar qurumlar vaxtaşırı reydlər keçirməklə, bu kimi halların qarşısını almalıdırlar".

**E.Hüseynovun sözlərinə görə, Azad İstehlakçılar Birliyi tərəfindən maarifləndirmə işləri görülür və belə malların boykot edilməsi istiqamətində əhali arasında təbliğat aparılır:** "Təbliğat aparmaq lazımdır ki, insanlar əl vurarkən rəngi çıxan, pis qoxu verən malları almasınlar. Çünki, bu paltarlar neft tullantılarından hazırlanır, xüsusən də ayaqqabı və alt paltarları. Paltar alarkən onun sertifikatını soruşsunlar".

**Azərbaycanda sertifikatlaşdırma sahəsində problem yaşandığını deyən E.Hüseynov xüsusilə Çindən gətirilən malların saxta sertifikatlar altında satıldığını dedi:** "Çindən dünyanın hər yerinə bu cür mallar ixrac olunur. Onları daha çox tullantılardan və kimyəvi maddələrdən hazırlayırlar. Azərbaycan bazarına da belə mallar kütləvi şəkildə daxil olur. Bu da istehlakçılarda allergiya, dəri xəstəliklər, zəhərli maddələrin oynaqlarda toplaşması ilə tədrici zəhərlənməyə yol aça bilər".

**İndi təsəvvür edin ki, adı çəkilən bu xəstəliklərə tutulmaq üçün bir də pul ödəyirsiniz. Sağlamlığınıza və cibinizə ziyan dəyməsini istəmirsinizsə, belə malları alarkən diqqətli olun. Diqqətli olun ki, alış-veriş edərkən qazandığınız bir manat itirilmiş sağlamlığınız bahasına başa gəlməsin.**

❑ **Nərgiz LİFTİYEVA**

# Lülə, tikə, basdırma...



**Sevinc TELMANQIZI**
s.qurbanova@gmail.com

**Hər istirahət sonu turizm nazirinin qapısına gedib, uzun-uzadı mühazirə oxumaq istəyirsən. "Belə olmaz" deyib, sıralamaq istəyirsən ölkənin turizm bölgələrindəki rəzil mənzərəni. Bircə dəfə sərhədi adlamısansa, uğurlu paralellər, vəziyyəti düzəltmək üçün strateji məsləhətlər də verməyi bacararsan hətta. Baxırsan ki, Allah çox səxavətli davranıb Azərbaycana. Dağı dağ, meşəsi meşə, dənizi, çayı, şəlaləsi... Sadəcə qabiliyyətli iş adamları və onlar üçün uyğun şərait lazımdır ki, bunlardan həm özü, həm də xalqı üçün yararlansın.**

Məlum, turizmin cənnəti olan Türkiyəyə gedən yolları şanlı hökumətimiz de-yure olmasa da, de-fakto qapadıb. Təyyarə biletinin qiymətini qaldırıb buludların üstünə. Nəticədə bir ailənin bircə həftəlik istirahəti 3000 manatdan ucuz başa gəlmir. Odur ki, əhmədlər, məmmədlər düşür ölkənin canına. Dedim axı, təbiətimiz üz ağardır. Amma insanımız yox. Nə olsun ki, barmaq basmağa boş bir yer qoymayıblar. Hansını yarıdıblar ki? İt hürməz, çaqqal keçməz yerdə "Venetsiya" adında restoran açmaqla deyil ki. Kafenin, kafedəkilərin heç Ucardan xəbəri yox.

Azərbaycanın istirahət məkanlarında turizmin "t"sindən xəbəri olmayan adamlar çalışır. Turistlə necə davranmağı bilməyənlər ordusu. Ən gözəgəlimli, bəh-bəhlə təriflənən istirahət guşələrində personala otaqları gündəlik təmizləmə tapşırılmır, müştəriyə "day-day", "xala", "bacı"... demək qadağan olunmayıb. 20 yaşlı cavan uşaq atası yaşında müştəriyə "nə yiyəssən ağsaqqal" deyə müraciət etməyi adi hesab edir. Restoranlara gedirsən, bər-bəzəkli menyular asılıb divardan, qoyulub masanın üstünə. Ofisiantı çağırırsan, məlum olur ki, bunların heç biri yoxdur, hazırlamaq da gec olacaq, ona görə də "məsləhət döy". Sənə ancaq kabab verə bilərlər: lülə, tikə, basdırma. Cem Yılmaz demiş, menyu "aşağılıq bir kağız parçası"dır bunların nəzərində. Bu da Azərbaycan mətbəxi. Bəs hanı öyündüyümüz kulinariya? Yoxdur, yox...

Hələ mən gözgörəsi cibə girmələrindən danışmıram. Menyuda qiymətlərə gözucu baxırsan, qəlyənaltını, yeməyini, içkini sifariş edirsən, təxmini nə ödəyəcəyini hesablayırsan. Axırda gələn hesabın isə sənin "kalkulyatorundan" xəbəri də olmur. Səbəb çox bəsit hiylələrdə gizlənib: məsələn, əgər sən xiyar-pomidorun qiymətini menyuda 1 manat görmüsənsə, bu, o demək deyil ki, axırda buna görə 1 manat ödəyəcəksən. Onlar bu salatı masadakı adamların sayına vurub hesablayırlar. Sən 5 nəfərlik heyətlə oturmusansa, axırda bir qab xiyar-pomidora 5 manat ödəyirsən. Yəni, bir dilim xiyarla-pomidor 1 manatdır, bu qədər "sadə" bir hesab. Maya dəyəri 20 qəpik olan çörəyin yarısını doğrayıb gətirirlərsə, bu da 1 manatdır... Eləcə də masaya gətirilən digər nemətlər. Hamısı maya dəyərindən 5-6, hətta daha artıq baha qiymətə hesablanır. Nəticədə Surət Hüseynov demiş, "bir qısmat çörək" sənə minimum 70-80 manata başa gəlir. Sonra da deyirlər, camaat niyə Azərbaycanın bölgələrində istirahət etmir? Hər saniyə əsəb, aldadılma, saygısızlıq... Ağzında istirahət deyirsən, bütün bu sadaladıqlarımızla istirahət mümkünmü?

Bunun dənizi var, çayı var... Dənizdə çimməyə gedirsən, məcbursan stol-stul almağa ki, normal oturasan, paltarlarını yerləşdirəsən. Stol-stul 5 manat, şezlonq 3 manat... Gənclərin sözü olmasın, bir dəfəlik dəniz keyfi sənə 8 manata başa gəlirmi? Hələ bunun "komplektli çay dəstgahı"ndan danışmıram. Ofisiant yayın 40 dərəcəsində dirəşir ki, mütləq çayı şokalad və ruletlə içməlisən. Yəni, çay ancaq dəstgahlı satılır. Ya alacaqsan, ya da susuzluqdan dilin dodağına yapışacaq. Mən ofisiantların vahid uniformalarının olmamasından, mətbəxlərin bərbad durumundan, ayaqyollarının normal sanitar-gigiyena qaydalarına cavab verməməsindən danışmıram hələ. Dastan yazmaq olar, dastan...

**Bizim turizm məkanlarının halına ancaq ağlamaq lazımdır... Ağlamaqdan yorulanda dəstgahlı çay sifariş edin, bir də yemək... Menyuya baxmağa gərək yox, aşağıdakıları əzbərləyin: lülə, tikə, basdırma...**

YENİ MÜSAVAT
N 206 (5915) 18 avqust 2014



# İŞİD-in arxasındakı güc

Kənan RÖVŞƏNOĞLU

**İraqda və Suriyada qanlı qırğınları ilə məşhurlaşan "İraq-Şam İslam Dövləti" qruplaşması hər gün bir qanlı olayı ilə gündəmə gəlir. Suriyada, İraqda dinc, günahsız insanları gülləboran edən, baş kəsilməsi edamları, indi isə İraqın şimalındakı yezidi kürdlərinin qadınlarını əsir alıb qul kimi satması ilə dünyanı dəhşətə gətirən İŞİD həm də dünyanın ən mübhəm təşkilatı hesab olunur. Bu qurum haqqında faktiki olaraq heç bir dəqiq məlumat yoxdur.**

Qeyd edək ki, özünü İslam təşkilatı elan edən, hətta İraq və Suriya ərazisində "İslam xilafəti" yaratdığını elan edən İŞİD daxilində İraq, Suriya kimi ölkələrlə yanaşı, ərəb ölkələrindən, o cümlədən dünyanın az qala bütün nöqtələrindən gələn savaşçılar toplaşıb.

Analitiklər İŞİD-in təkfirçi cərəyandan güc aldığını, üzvlərinin əsasən məhz təkfirçi, xəvaric düşüncəsində olduğunu qeyd edirlər. Bu səbəbdən faktiki olaraq İŞİD heç bir müsəlman ölkəsi və ya təşkilatı tərəfindən dəstəklənmir. Baxmayaraq ki, bir sıra müsəlman ölkələri və ya qurumlarının, ayrı-ayrı şəxslərin adları bu qruplaşmaya dəstək verənlər siyahısında çəkilir.

Ən maraqlısı odur ki, İŞİD-in arxasında dayanan ölkələr sırasında Qərb ölkələrinin, o cümlədən İsrailin adı hallanır. Hətta qruplaşmanın Yaxın Şərqi yenidən parçalamaq, xaos yaratmaq üçün ABŞ Mərkəzi Kəşfiyyat İdarəsi (CIA) və NATO tərəfindən qurulduğu və dəstəkləndiyi iddia olunub. Eyni zamanda İsrail kəşfiyyatının belə bir qruplaşmanı yaratdığı, indi özünü xəlifə elan edən İŞİD rəhbəri Əbubəkr əl-Bağdadinin qruplaşmanın içinə yeridilmiş Şimon Eilot adlı agent olduğu ilə bağlı iddialar da ortaya atılıb. Ancaq hələlik bütün bunlar iddia olaraq qalır. Onları sübut etmək isə faktiki olaraq mümkün deyil.

Yeri gəlmişkən, İŞİD-in S.Ərəbistanı, o cümlədən Qətər və Türkiyə, nəhayət, Suriya hakimiyyəti tərəfindən qurulduğu ilə bağlı fərqli mənbələrin iddiaları da var. Təbii ki, sıralamadan göründüyü kimi, indi məhz biri-birinə rəqib olanlar öz rəqiblərini İŞİD-i yaratmaqda və ya ona dəstək verməkdə ittiham edir.

Yeri gəlmişkən, hazırda ABŞ və qismən Britaniya aviasiyası İraqın şimalında kürd bölgələrinə hücum edən İŞİD yaraqlılarını bombalayır. Britaniyanın baş naziri isə İŞİD-ə qarşı təcili ciddi tədbirlər görülməsi çağırışı edib. Devid Kamerun açıq şəkildə deyib ki, "İslam Dövləti"nin NATO-ya qonşu olmasından narahatdır.

Əslində iki diqqət çəkən məqam ondan ibarətdir ki, hətta Talibana haradasa kimlərsə açıq şəkildə dəstək versələr də, İŞİD-lə bağlı belə deyil. Heç bu təşkilat ona sahib çıxmaq, hətta adının belə onunla çəkilməsini istəmir. Halbuki, İraqda irəliləyərkən bəzi ərəb ölkələrində bu qruplaşmaya rəğbət göstərənlər özlərini büruzə verdilər.

Aydın məsələdir ki, bütün bunların əsas səbəbi İŞİD-in qanlı yöntəmləridir. Bu qruplaşmanın həddən artıq qəddarlığı, amansızlığı, edamlar, dinc insanlara, hətta qadın ə qocalara, uşaqlara belə aman verməməsi ona qarşı qorxu qarışıq nifrət yaratdı.

Eyni zamanda "necə oldu da İslam dini daxilində bu cür düşünən minlərlə insan yetişdi və bir araya gələ bildi" sualının cavabını tapmaqdan ötrü İslam tarixinə nəzərə salmaq lazım gəlir. Belə hesab olunur ki, ötən 1400 illik tarixi mərhələ İslam daxilində müəyyən tarixi və ideoloji proseslərin təsiri ilə radikal, təkfirçi, inkarçı cərəyanlar yaranıb.

Bu cərəyanlar əsasən İslam ümmətinin üzləşdiyi problemlərin səbəbini mövcud cərəyanların, ideoloji görüşlərin təhriflərindən doğduğunu iddia edərək son nəticədə həm xaricə, həm də daxildəki "yolunu azmışlara" qarşı ən sərt münasibəti dinin təmizlənməsi, yəni müqəddəs vəzifə kimi görən cərəyanların formalaşmasına səbəb oldu.

**Həm sovet-əfqan müharibəsi, daha sonra ABŞ-ın Əfqanıstana, İraqa müdaxiləsi, son illərdə Suriyada, indi isə İraqda baş verən savaşlar bu cür ideologiyaların güc qazanması, özünütəsdiq üçün mühüm məqam oldu. Çünki insanlar həm yaranmış böhranı öz gözləri ilə gördülər, həm də bunun çıxış yolu kimi "cihad hərəkatı"na şərait yarandı. Bu isə sözügedən cərəyanın ayaq açması, özünə tərəfdar qazanması üçün mühüm amildir. Nəticə isə göz qabağındadır.**

**Cəbhə xəttində baş verən 3 günlük atışmadan sonra qulağımızda daha çox bir söz səsləndi: MÜHARİBƏ. Yeddidən yetmişə hər kəs bu haqda danışdı. Kimi savaş dedi, kimi sülh dedi. Ancaq ümumi ictimai rəydə torpaqlarımızın qaytarılması ilə bağlı bir razılıq vardı sanki... "Başlasınmı ikinci Qarabağ savaşı?" sorğusunun ən çox səs toplayan cavabı isə "hə" oldu.**



# Yaşlılar sülh, cavanlar müharibə istəyir

"Müharibə torpaq geri qayıdacaqsa olmalıdır, yox, əgər müharibə olub boş yerə gənclər öləcəksə..."

Bəs, nədir müharibə? Bəlkə də, "müharibə" deyənlərdən çoxu bu sözün gerçəkdə nə olduğunu bilmir...

Ancaq birinci Qarabağ savaşı elə də uzaq keçmiş deyil. O müharibənin acısını yaşamış, qoxusunu, həyəcanını hələ də canından çıxara bilməyən insanlarımız var. Bəlkə, bu sualı bir də onlardan soruşaq. Bir tərəfdən Qarabağda yurdu-yuvası qalan və ən çox o yerlərə dönmək istəyən onlardır, digər tərəfdən də "müharibə" sözünün pafosunu deyil, real mənasını da onlar bilir.

Müsahiblərimiz Yasamal rayonu, Şərifzadə küçəsində yerləşən Azərbaycan Texniki Universitetinin yataqxanasının Ağdam, Füzuli və Zəngilan rayonlarından olan sakinləridir. Artıq istismar müddəti bitmiş köhnə yataqxanada qalan məcburi köçkünlər necə, qoyub gəldikləri yurda qayıtmaq üçün müharibə olmasını istəyirlərmi?

Füzuli rayonundan məcburi köçkün düşən, yaşı səksəni ötmüş Əfruz nənə müharibə sözünü belə eşitmək istəmir. Dərdini ifadə etməyə söz tapmadığından bayatı ilə deyir:

**"Burdan bir maya getdi,**
**Sallandı çaya getdi.**
**Çox əlləşdik-vuruşduq**
**Zəhmətimiz zaya getdi...**

İllərlə ev qurub - yaratdığım iki mərtəbəli evdən, cəmi bir termosu çayla doldurub çıxdım, dərədən qaçdıq. Toy görməyən balalarımız öldü. Bircə qardaşım var idi, şəhid oldu, qırxını verə bilmədik, qəbrini indi də görə bilmirik. Cavanlarımız ölməsin, Allah cavanlarımıza qıymasın. Torpaqlar da sülhlə alınsın. Kim öz torpağına getmək istəməz:

**Şirvanın boz dağları,**
**Basıbdır toz dağları,**
**Allah sağlıq verəydi**
**Aşaydıq tez dağları...**
**Vətənə sarı..."**







Əfruz nənə indi eni 2, uzunluğu 3 metr olan bir otaqda nəvəsi ilə birgə qalır. Otağa yerləşdirə bildikləri yeganə çarpayıda ayaq-baş yatırlar...

Zəngilan rayon sakini İstefa xala da orada mal -mülk qoyub gəlib. Qayıtmaq istəyir. Deyir ki, dizi üstə sürünə-sürünə gedərəm o torpağa, ancaq müharibə olmasın: "İnsan ömründə neçə dəfə müharibə yaşayar, neçə dəfə əzizlərini torpağa tapşırar? Bir yorğan götürüb çıxmışam evimdən, yaş paltarlarımı da yığmamışdım zirədən, toy səsi dağlardan getməmişdi... Universitet tələbəsi idi oğlum, axırıncı kursun imtahanın verməmişdi hələ, vurdular onu, ürəyim yaralıdır bala... Heç vaxt istəmərəm ki, analar sızıldaya-sızıldaya qalsın. Heç ananın ürəyinə bala dağı çəkilməsin".

Yaşlıların ürəyi daha zərifdir, onlar cavanlara qıymır, müharibə istəmir. Bəs, cavanlar necə, uşaq yaşlarında qoyub gəldikləri yurda qayıtmaq üçün müharibəyə hazırdırlarmı?

Ağdam rayonundan qaçqın düşən 25 yaşlı Taleh Məmmədli isə hər an müharibəyə getməyə hazır olduğunu deyir: "Əgər müharibə olsa, mən hər zaman hazıram ön cəbhədə vuruşmağa. Ancaq torpaqlarımızın sülh yolu ilə qayıtmasını daha çox istərdim. Əgər torpağımız alınsa bir gün də burada qalmaram, imkanım olmasa da sürünə-sürünə gedib çıxaram yurduma".

Əslən Ağdam rayonundan olan gənc jurnalist Günel Musa da deyir ki, müharibə arzuolunan bir şey deyil: "Müharibənin fəsadlarını yaşayan biri kimi deyirəm ki, müharibə dəhşətli bir şeydir. Amma bu aydın məsələdir ki, Qarabağın sülh yolu ilə alınması eyforiyadır. Qarabağ qanlı vadidir, qan tökük alıblarsa qan tökmədən geri qayıtması mümkün deyil. Müharibə torpaq geri qayıdacaqsa olmalıdır, yox əgər müharibə olub boş yerə gənclər öləcəksə istəmirəm, Fələstinlə İsrailin gününə qalmaq istəmirəm".

**Qonağı olduğumuz bu binada bir otaqda 3 ailənin birgə yaşadığını da gördük, imkansızlıqdan başlarına uçan evdə təhlükə altında ömür sürənin də şahidi olduq. Onlar hər zaman qoyub gəldikləri yurd - yuvalarına qayıtmaq istəyirlər, ancaq həyatlarını alt-üst edən "müharibə" adlı bəlanın təkrar qayıtmasını yox.**

❑ **Nərgiz LİFTİYEVA**
**Foto: Məğrur SALMANOV**

YENİ MÜSAVAT
N 206 (5915) 18 avqust 2014

**"Elə ki, yan tərəfimdə bir qadın sürücünün idarə etdiyi maşın görürəm, dərhal ordan uzaqlaşıram. Çünki bilirəm ki, gec-tez bəlamı tapacam, onun hansısa "naruşeniya"sının altını mən çəkəcəm..." Bu, kişi sürücülərdən daha çox eşitdiyim rəylərdən biridir. Kişi sürücülər birmənalı qaydada qadınların sürücülüyünü bəyənmir, onların yolda özlərinə və piyadalara problem yaratdığını qabardır. Bunun səbəbləri və elmi izahatına bir azdan qayıdacağıq.**



# "Get bozbaşını bişir, maşın sənlik deyil...."

## Qadın sürücülərə niyə "yaşıl işıq" yandırılmır?

Hələliksə onu deyək ki, son vaxtlar xəbərlərdə də qadın sürücülər üzümüzü güldürmür. Yol verdikləri qəzaların sayı gündən-günə artır...

Qadınlara hələ də sürücülüyün yaraşdırılmadığı, bütün qəzalarda qadının haqsız sayıldığı bir məmləkətdə faktlar tamam fərqli məqamlardan xəbər verir. Halbuki dünya qadın sürücülərə çox daha öncədən yaşıl işıq yandırıb.

### Fransadan İrana... qadınlar sükan arxasında

Qadınların avtomobil idarə etməsi XX əsrin əvvəllərindən başlayır. O zaman Fransada istehsal olunan maşınlar kişilərlə bərabər qadınların da maraq dairəsinə düşüb. II Dünya Müharibəsindən sonra Almaniyanın "Volkswagen» şirkəti də qadınlar üçün avtomobil istehsalına başlayıb. Sırf qadın avtomobilinin buraxılması isə ötən əsrin 50-ci illərinə təsadüf edir. Almaniyanın "Borqvard A" şirkəti 1957-ci ildə "Isabella Coupe A» modelli asan idarə oluna bilən qadın avtomobili istehsal edib. Artıq bu gün dünyanın istənilən aparıcı avtomobil firması qadın avtomobilləri istehsal edir. Məsələn, "Volkswagen Polo A", "Volkswagen Golf A", "Opel Tigra A", "Renault TwigoA", "Suzuki VitaraA", "Fiat PuntoA", "Peugeot 206A" markalı maşınlar ən məşhur qadın avtomobilləri sayılır.

Amma məsələ təkcə avtomobillə bitmir. Britaniyanın yalnız qadınlara xidmət göstərən sığorta şirkəti "Sheilas Wheels" sükan arxasında hündür dabanlı ayaqqabı geyməkdən imtina etməyən qadın sürücülər üçün xüsusi ayaqqabı ixtira edib.

Qadınların çoxu üçün avtomobili bizdə "şpilka" adı ilə tanınan nazik dabanlı ayaqqabıda idarə etmək nəinki narahatdır, həm də təhlükəlidir. Bu cür ayaqqabılarla əyləci axıradək basmaq və ya sürətli manevr etmək çox çətindir. Xüsusi "Sheila Driving Heel" ayaqqabılarının dabanı kifayət qədər gözəl və zərifdir, amma başlıcası budur ki, gizli düyməni basdıqda daban qatlanır. Bundan başqa, ayaqqabının altının pəncə hissəsinin xüsusi relyefi ayaqqabının "pedal"dan möhkəm "yapışmasına" kömək edir. Xatırladaq ki, bu ayaqqabıların qiyməti 74 dollardan başlayır.

Qonşu İranda isə qadınlar sükanı daha diqqətli idarə edirlər. Məhz buna görə Tehranda taksi sürən qadınların xidmətindən daha geniş istifadə olunur. Bir qadın tərəfindən qurulan taksi dayanacağının 700 sürücüsü hazırda yalnız qadınlara xidmət göstərir. Dayanacağın 40 min nəfərlik bir müştəri siyahısı olduğu deyilir...

### Qadınlar diqqətli olsalar da, məlumatsızdılar...

Aparılan araşdırmalar, keçirilən sorğular qadınların yolda daha diqqətli sürücü olması faktını dəfələrlə təsdiqləyir. Hətta Avropa Birliyinin ekspertləri də qadın sürücülərin kişi sürücülərdən daha diqqətli olduğunu üzə çıxarıb. Lakin araşdırmada məlum olub ki, onlar idarə etdikləri avtomobil haqqında çox az məlumata sahib olurlar. Elə qadınların törətdiyi qəzaların əsas başvermə səbəbi onların diqqətsizliyi deyil, avtomobilinin nasaz olduğunu bilməməsidir.

"Guardian"nın araşdırmasına görə, xanım sürücülərin 61%-i maşınını ustaya yalnız hansısa hissənin sıradan çıxmasından sonra aparır. 77% qadın sürücü isə mühərrikdəki yağın, əyləc mayesinin səviyyəsini ölçə bilmir. Sükan arxasına əyləşən xanımların yalnız 10%-i təkərlərin havasına, yeyilib-yeyilməməsinə fikir verir.

### Siqnaldan səbəbsiz yerə istifadə edənlər ordusu

Qadınlar kişilərlə müqayisədə adətən sürət həddini keçmirlər. Qadın sürücülərin törətdiyi qəzaların 82%-i əks-cinsin nümayəndələrinin xanım sürücüləri yolda "sıxışdırmaları" ilə bağlıdır. Kişi sürücülərin qəza törətməsinə səbəb isə bir çox hallarda içkili olmalarıdır.

Amma qadın sürücülər kişilərə nisbətən çox vaxt gərəksiz yerlərdə siqnaldan istifadə edirlər. Kişi sürücülər isə daha az siqnal verirlər. Qadın sürücülər qaydalara ifrat dərəcədə əməl edirlər. Bəzən bu həm nəqliyyatın hərəkətinə, həm sürücülərə, həm də xanımın özünə zərər verir. Qadın sürücülər kişilərə nisbətən az nəzakətlidirlər. Çünki kişi sürücülər yolda digərlərinə daha çox yol verirlər. Qadınlar isə daha çox özlərinə yol verilməsini gözləyirlər və piyadalara, avtomobillərə nadir hallarda yol verirlər.

"Onepoll.com"un apardığı araşdırmaya görə, qadınların avtomobili istifadə edərkən buraxdıqları ən böyük səhvlər yolda diqqəti toplaya bilməmək, əyləci çox gec basmaq, avtomobili birdən sürətləndirmək, şose lentlərinə diqqət yetirməmək, başqa avtomobillərlə çox az məsafə saxlamaq, radio ilə "oynayarkən" yola fikir verməmək, güzgüyə çox baxıb bəzənmək və digər səhvlərdir.

Dünyada qadınların avtomobil idarə etməsinə qadağa qoyan yeganə ölkə Səudiyyə Ərəbistanıdır. Burada əcnəbi xanımlara sükan arxasına əyləşməyə icazə verilmir.

### Onlara sürücülük vəsiqəsi daha çox hədiyyə olunur

Statistikaya görə, Azərbaycanda qadın sürücülər xırda qəza və yol pozuntusu hallarına kişilərə nisbətən daha çox yol versələr də, ağır yol-nəqliyyat hadisələrini daha az törədirlər. DİN Baş Dövlət Yol Polis İdarəsindən verilən məlumatda bildirilir ki, Azərbaycanda qadın sürücülər daha çox yüngül toqquşmalara düşürlər. Ağır qəzalarda hələ də kişilər liderlik edirlər. Kişi sürücülər ən çox sürət həddini aşmağa və ötmə qaydalarını pozmağa meyllidirlər. Qadınlar isə manevr və sıranı dəyişərkən xətaya yol verirlər.

STOP: Azərbaycanda 30 mindən artıq qadının sürücülük vəsiqəsi var. Onlardan 20 minə yaxını nəqliyyat vasitəsini idarə edir. 10 minə yaxın qadının sürücülük vəsiqəsi olsa da, avtomobil sürmür. Sürücülük vəsiqəsi olan qadınların 26 minə yaxını Bakı şəhərinin, qalanları isə respublikanın digər rayonlarının sakinləridir.

Bu arada DYP-dən onu da öyrəndik ki, qadın sürücülərin yol verdiyi pozuntular sırasında - avtomobili idarə edərkən kəmər taxmama, manevr edərkən və sağa-sola dönərkən işıq siqnallarından istifadə etməmə, yolayrıcı keçmə qaydalarını pozma, piyadalara yol verməmə kimi xətalar üstünlük təşkil edir.

Əvvəllər yol polisi əməkdaşları qadın sürücülər tərəfindən törədilən kiçik qayda pozuntularına göz yumurdular və xanım sürücülərə xəbərdarlıqla kifayətlənirdilər. Lakin ilbəil qadın sürücülərin və onlar tərəfindən yol verilən pozuntuların sayının artması onlara qarşı ciddi tədbirlər görülməsini zəruri edir.

Yol polisi əməkdaşları isə hesab edir ki, qadınların yolda qəzaya yol verməsi və ya qəza vəziyyəti yaratmasının kökündə onların həm də sürücülük məktəbinə getməməsi, yəni qaydaları bilməməsi, maşın idarə etmənin incəliklərinə yiyələnməməsidir. Belə demək mümkünsə, bir çox qadınlara sürücülük vəsiqəsi həyat yoldaşları tərəfindən hədiyyə olunur. İmtahanlarda iştirak etmirlər, qaydaları öyrənmirlər. Sadəcə bir neçə dəfə "yezda" dərslərinə getməklə bu işi öyrəndiklərini zənn edirlər. Daha bir tendensiya isə qadınların bir-birinin acığına sürücülüyə başlamasıdır. "Filankəs sürə bilər, mən yox" deyə-deyə bir çox qadınlar öz potensiallarını, reaksiyalarını nəzərə almadan sükan arxasına keçir.

### Qadınlar yüngül toqquşmalara düşürlər, ağır qəzalara kişilər liderlik edir

Deyəsən, sözügedən qəza statistikası zərif cins nümayəndələrinin gözünü o qədər qorxudub ki, artıq bununla bağlı sığorta şirkətlərinə müraciət edənlər də çoxdur. MBASK sığorta şirkəti təkcə 2007-ci ildə 109 qadın sürücü üçün sığorta siyasəti açmışdı. Həmin qadınların 94-ü yol-nəqliyyat hadisələrinə düşüb. Bu isə sığortalanmış qadınların 86 faizindən çoxdur.

MBASK ekspertlərinə görə, qadınlar daha çox yüngül toqquşmalara düşürlər. Ağır qəzalarda hələ də kişilər liderlik edir. "Turan"a əsasən, şirkət rəsmiləri kişilər ən çox sürət həddini aşmağa və ötmə qaydalarını pozmağa meyllidirlər.

İngilis online satış araşdırmaları şirkəti - "One-poll.com"un 3 min kişi üzərində icra etdiyi bir araşdırmaya görə, kişilərin üçdə biri qadınların istifadə etdiyi avtomobillərdə özlərini etibarda hiss etmirlər. Onlara görə, qadınların avtomobil istifadə edərkən etdiyi ən böyük 10 səhv bunlardır: 1. Konsentrasiya (diqqət) pozuntusu; 2. Əyləcə çox gec basma; 3. Avtomobili birdən sürətləndirmək; 4. Yoldakı xətlərə diqqət yetirməmək; 5. Digər vasitələrə çox yaxınlaşmaq; 6. Əyləcə çox sərt basmaq; 7. Radio ilə oynayarkən yola diqqət yetirməmək; 8. Siqnal verməmək; 9. Avtomobili həddindən artıq sürətlə idarə etmək; 10. Maşını yolun ortası ilə sürmək

### "Günahımız olmayanda da bizi günahkar çıxarırlar"

10 illik sürücülük təcrübəsi olan Aynur Musayeva deyir ki, maşın sürməyə hələ Bakı yollarında tıxaclar, hərc-mərclik bu qədər çox olmadığı vaxt başlayıb. Onun sözlərinə görə, son iki-üç ildə paytaxtda maşınla hərəkət etmək olduqca çətinləşib: "İlk vaxtlar yolda kişi sürücülər adama xortdan görmüş kimi baxırdılar. Bəziləri isə ya yolda sıxışdırır, ya da qəsdən qaydanı pozub adamı çaşdırırdı. İndi təəccüblənənlərin sayı azalıb, amma başqa hallar hələ qalıb. Yenə də kişilər qadın sürücünü həzm edə bilmir. Əgər qadın onlardan daha bahalı xarici maşın sürürsə, bu, ikiqat qıcıq yaradır və onda onların gözünün düşməninə çevrilirsən".

Aynur deyir ki, əslində qadın sürücülərlə bağlı qabardılan qəza, neqativ hal məlumatları şişirdilib. Onun sözlərinə görə, əksinə, qadınlar qayda-qanuna daha çox əməl edir: "Mən fikir vermişəm, qadınlar adətən sürət həddini keçmir, lap qəza törədəndə də hadisə yerindən qaçmırlar. Humanistdilər deyə, zərər verdikləri adama yardım edirlər. Qadın sürücülər qaydalara ifrat dərəcədə əməl edirlər. Bəzən bu, həm yola, həm sürücülərə, həm də xanımın özünə zərər versə də".

A.Musayevanın sözlərinə görə, bütün qəzalarda qadını haqsız çıxarmağa cəhd var: "Bir dəfə Rəsulzadə qəsəbəsində tıxaca düşmüşdüm. MSK-nın qabağına çatanda sağdakı və soldakı maşın eyni vaxtda məni sıxdı. Nəticədə hər üçümüzün maşını cızıldı. Amma maşından düşəndə hər ikisi məni haqsız çıxardı. Halbuki məni hər iki yandan bunlar sıxmışdı".

### Sürücü Tərlan: "Soruşursan ki, niyə yolun solu ilə asta-asta gedirsən? Qayıdır ki, başqasının arvadına sataşma..."

Tərlan Allahverdiyev də təcrübəli sürücü kimi qadın sürücüləri çox da həzm edə bilməyənlərdəndir. Onun fikrincə, qadın sürücülərin ilk xətası güzgüdən yola baxmaq üçün yox, özlərinə bəzək-düzək vermək üçün istifadə etmələridir: "Mən maşın sürə-sürə makyaj çəkən qadın görmüşəm. Demək, işıqforda qırmızı işıq yanan kimi başlayırlar makyaja, yaşıl yanır, arxadakı maşınlar siqnal verir, bunlar hələ tərpənmirlər, çünki bəzək-düzəkləri bitmir. Özü də qadınlar heç vaxt kişilərə yol vermirlər. Halbuki yola çıxmısansa, bərabərlikdən danışırsansa, burda centlmenlik söhbəti ola bilməz. Sən də yol verməlisən, nəqliyyatda hamı bərabərdir. Bir də görürsən, yolun solu ilə bir maşın asta-asta, öz kefi ilə gedir. 80-lik yolda 50 ilə sürür, özü də solla gedir. Yüz faiz bilirsən ki, qadındır. Gəlib çatanda siqnal verirsən, pəncərədən deyirsən ki, ay bacı, asta getmək istəyirsən, sağnan get. Qayıdıb deyir ki, "sənin anan-bacın yoxdur? Niyə başqasının arvadına sataşırsan?" Bax belə, əcəb işə düşmüşük. (gülür) Ona görə də adam deyir, get bozbaşını bişir, maşın sənlik deyil..."

❑ **Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT
N 206 (5915) 18 avqust 2014

# Avropanın imtina etdiyi internat məktəbləri...

## Ekspertlər bu tipli müəssisələrin ləğvini, ailə tipli uşaq evlərinin yaradılmasını təklif edirlər

**İnternat məktəbləri dedikdə, çoxlarının təsəvvüründə kimsəsizlərin oxuduğu, daimi qaldığı təhsil müəssisəsi canlanır. Burada əslində kimlər təhsil almalıdır, hazırda internatlarda durum necədir? Bunları araşdırdıqda maraqlı məqamlarla rastlaşdıq.**

Ümumtəhsil internat məktəbləri aztəminatlı, zəruri sosial-məişət şəraiti olmayan ailələrdən qəbul edilmiş, yetim və valideyn himayəsindən məhrum, sağlamlığının bərpasına ehtiyacı olan uşaq və yeniyetmələrin təlim-tərbiyəsinin təşkilində, onların xalqımızın milli ənənələri ruhunda böyüməsi və layiqli vətəndaşlar kimi yetişməsində mühüm əhəmiyyətə malik təhsil müəssisələridir.

Dövlət Statistika Komitəsinin rəsmi saytında 2014 -cü ilin hesablamalarına görə, Azərbaycanda 4 körpələr evi, 6 uşaq evi, sağlamlıq imkanları məhdud və valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün 12 internat məktəbi, əqli cəhətdən zəif olan uşaqlar üçün 2 internat evi, 21 ümumi tipli internat məktəbi var.

Ölkə qanunvericiliyinə görə, bu müəssisələr əsasən Təhsil Nazirliyinin tabeliyində olsa da, rayon icra hakimiyyətlərinin, Səhiyyə Nazirliyinin, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində fəaliyyət göstərən internat evləri də var.

Hazırda ümumilikdə 4 körpələr evində 163 nəfər, 6 uşaq evində 509 nəfər, 12 internat məktəbində 2653 nəfər, 21 ümumi tipli internat məktəbində 5734 uşaq yaşayır və təhsil alır. Onlardan 685 nəfər valideyn himayəsindən məhrum olmuş və ya valideynini itirmiş uşaqlardır.

Statistik göstəricilərə nəzər salsaq, son 10 ildə ölkəmizdə ümumi tipli internat məktəblərinin sayı iki dəfə azalıb. Bu tipli məktəblərin sayı 1991 -ci ildə 50, 2000 -ci ildə 38 olub. Hazırda isə 21 belə məktəb var. Müvafiq olaraq şagirdlərin də sayı azalıb. Belə ki, müstəqilliyin ilk illərində 20 mindən artıq uşaq ümumi tipli internat məktəblərində təhsil alırdısa, hazırda bu rəqəm 6 minə çatmır.

Bəs, görəsən 20 - 30 il öncə valideynlərin könül rahatlığı ilə övladlarını əmanət etdiyi internat məktəblərində hazırda vəziyyət necədir? Orada verilən təhsilin keyfiyyəti beynəlxalq standartlar uyğundurmu? Dünya təcrübəsində internat evlərinin taleyi necə həll olunub?




Azərbaycanda ailə himayəsindən kənarda qalan uşaqların taleyi necə həll olunur?

### Şərait var, təhsil yoxdur

Bu suallara aydınlıq gətirən Uşaq Hüquqları üzrə Azərbaycan QHT Alyansının milli koordinatoru Nabil Seyidov bildirdi ki, hazırda internat evlərinin şəraiti əvvəlki illərə nisbətən yaxşılaşsa da bunu təhsil haqqında demək olmaz: “Bizim apardığımız monitorinqlərin nəticələrinə görə, son illərdə Azərbaycandakı bir çox internat məktəblərinin binaları əsaslı şəkildə təmir olunub və məktəb standartlarına cavab verir. Ancaq bunu hamısına şamil eləmək olmaz. Əsasən Bakıda, qismən də regionlarda internat məktəblərinin bir qismi Heydər Əliyev Fondunun dəstəyi ilə, bəziləri isə dövlət büdcəsi hesabına və xarici xeyriyyəçilərin dəstəyi ilə təmir olunub. Keçmiş MDB ölkələri ilə müqayisədə Azərbaycanda internat məktəblərinin durumu daha normaldır. Ancaq hamıya məlumdur ki, internat məktəblərindəki təhsilin keyfiyyəti digər orta məktəblərlə müqayisədə çox aşağıdır. Bunu TQDK-nın qəbul nəticələrinə baxarkən də görmək olar. Orada uşaqların zehni inkişafı, dünyagörüşünün formalaşması çox aşağı səviyyədədir.

Bundan əlavə həmin internat müəssisələrinin texniki imkanları müasir tələblərə cavab vermir. Kompüter sinifləri yoxdur, dərslərdə yeni texniki imkanlardan istifadə olunmur".

### Uşaq zorakılığına qarşı “mühafizə orderi”

Azərbaycanda internat evlərində uşaqlara qarşı edilən zorakılıq hallarına və işgəncə faktlarına gəlincə, Nabil Seyidov qeyd etdi ki, bu kimi hallar təkcə adı çəkilən müəssisələrdə deyil, həmçinin azyaşlıların olduğu cəzaçəkmə evlərində və hətta ailələrdə də müşahidə olunur: “Bu məsələ ilə bağlı ciddi tədbirlə görülməlidir. Uşaqların zorakılıqdan qorunması üçün qanunvericilikdə xüsusi mühafizə orderinin yaradılması ilə bağlı maddə var. Ancaq onun icrası ilə bağlı mexanizm yoxdur. Azərbaycanda zorakılığa məruz qalmış uşaqların reabilitasiyası üçün mərkəz yoxdur. Bu məsələlər mütləq həllini tapmalıdır”.

### Kimsəsiz uşaq harada yaşamalıdır?

Nabil Seyidov onu da vurğulayıb ki, hazırda internat məktəblərinin durumu yox, uşaqların orada yaşayıb, təhsil almasının nə dərəcədə məqsədə uyğun olması müzakirə olunmalıdır: “Birmənalı şəkildə demək olar ki, uşaqların internat müəssisəsində yaşaması, təhsil-tərbiyə alması qəbuledilməzdir. Azərbaycanın da qatıldığı beynəlxalq uşaq hüquqları konvensiyasına, ölkə konstitusiyasına və ”Uşaq Hüquqları Haqqında" Azərbaycan Respublikasının qanununa görə, uşaqlar ilk növbədə ailə mühitində böyüməli, heç bir ayrı-seçkiliyə məruz qalmadan, eyni keyfiyyətli təhsil almalıdırlar. Uşaqların internat evlərində yaşaması, təhsil alması bu prinsiplərə cavab vermir" .

Ekspert qeyd edib ki, beynəlxalq təşkilatlar, BMT, Avropa Şurası və bütün ekspertlər təsdiq edir ki, uşaqlar öz ailələrində, bu mümkün olmadıqda qohumlarının yanında, bu da olmasa xüsusi hazırlanmış ailələrdə və icmalarda yaşamalı, tərbiyə almalı və orta ümumtəhsil məktəblərinə getməlidir: “Bu prinsiplər təkcə sağlam uşaqlar üçün deyil, həmçinin kimsəsiz, eləcə də əlilliyi olan uşaqlar üçün keçərlidir. Bunun üçün həmin ailələrə yardımlar edilməli, məktəblərdə də bu uşaqların təhsil alması üçün xüsusi şərait olmalıdır” .

### “Azərbaycanda üç mühüm məsələ həllini tapmalıdır”

Xarici təcrübəyə gəlincə, ekspert bildirdi ki, Avropa ölkələrində internat müəssisələri demək olar ki, ləğv olunub. İnkişaf etmiş demokratik dövlətlərdə ümumiyyətlə internat müəssisələrindən imtina olunub: “İtaliyada və Skandinaviya ölkələrində hətta əlilliyi olan uşaqlar üçün də internat məktəbləri yoxdur. Bizim təkliflərimiz də məhz Avropa təcrübəsi əsasında qurulub. Azərbaycanda İnternat müəssisələrinin ləğvi üçün üç mühüm məsələ öz həllini tapmalıdır:

**Birincisi**, bölgələrdə ailələrə və uşaqlara sosial dəstək xidmətləri olmalıdır. Bu olmadıqda ailələr çətinliklə üzləşir və uşağını internata yerləşdirir.

**İkincisi**, Azərbaycanda alternativ ailələr yaradılmalıdır. Yəni, uşağı müvəqqəti və ya uzunmüddətli himayəyə götürmək üçün xüsusi ailələr yaradılmalıdır, onlar təlimlərdən keçməlidir, məlumatlandırılmalıdır, uşaqlara göstərdikləri qayğının müqabilində müvafiq maliyyə yardımı göstərilməlidir. Kiçik həcmli, ailə tipli uşaq evləri yaradılmalıdır ki, hər birində ən çoxu 8 uşaq yaşaya bilsin. Burada psixoloq, pedaqoq və digər işçilər də ola bilər. Məqsəd budur ki, həmin uşaqlar da ailə şəraitində yaşasın və bütün yaşıdlarının getdikləri məktəblərə getsinlər.

**Üçüncüsü**, bütün təhsil müəssisələri əlilliyi olan uşaqları qəbul edə bilmək üçün uyğunlaşdırılmalıdır, əlil uşağın orada təhsil alması üçün partasından tutmuş, pilləkənlərə qədər hər yerdə müvafiq şərait olmalıdır. Eləcə də, məktəb kollektivinin bu uşaqlara olan münasibəti dəyişməlidir".

**Sonda isə** qeyd edək ki, kimsəsiz uşaqlarının, əlilliyi olan azyaşlıların cəmiyyətə qayıtması, adi məktəblərə getməsi onlara edilən yaxşılıq deyil, bu onların hüquqlarıdır. Azərbaycan hökuməti bu hüquqların təmin olunması üçün beynəlxalq təşkilatlar qarşısında öhdəlik götürüb. Bu nə qədər tez baş versə bir o qədər xeyirlidir. Çünki, hər il bu baxımdan yüzlərlə uşaq cəmiyyət üçün itirilmiş sayılır.

**İllərlə bağlı qapılar arxasında qalan və itirilən uşaqlar da hamı kimi cəmiyyətə müxtəlif sahələrdə xeyir verə bilərlər.**

❑ **Nərgiz LİFTİYEVA**

**Beynəlxalq Təhsil Mərkəzi**

***Biz sizi Ukraynanın, Belorusun, Rusiyanın və Gürcüstanın dövlət universitetlərində bakalavr və magistr dərəcələri üzrə əyani, qiyabi və ikinci ali təhsil almağa dəvət edirik.***

*< Kiyev Dövlət Texniki Universiteti*
*< Kompüter mühəndisliyi. Hüquq. İqtisadiyyat.*
*< Kremençuk Dövlət Universiteti*
*< Psixologiya. Jurnalistika. Hüquq. Filologiya*
*< Kiyev Dövlət Dəniz Akademiyası*
*< Gəmi sürmə. Dəniz və çay nəqliyyatı. Hüquq*
*< Tbilisi Dövlət Tibb Universiteti*
*< Müalicə işi. Stomatologiya. Əczaçılıq. Pediatria*
*< Minsk Dövlət Universiteti*
*< Beynəlxalq Münasibətlər. İqtisadiyyat. Jurnalistika*
*< Qrodno Dövlət Universiteti*
*< Hüquq. İqtisadiyyat. Pedoqoqika. Tərcüməçilik*
*< Volqoqrad Dövlət Aqrar Universiteti.*
*< Aqronom. Yerölçmə və Kadastr. Elektrik təchizatı.*

**Bizim bu ölkələrin yuxarıda adları sadalanan və bu siyahıda adları olmayan bir çox digər dövlət universitetləri ilə əməkdaşlıq və təmsilçilik haqqında rəsmi müqavilələrimiz var. Diqqət! Bəzi ixtisaslar üzrə pulsuz təhsil almaq şansınız var!**

**Ünvan: Bakı ş. Məmmədzadə k. 13A Nərimanov m-su**
**Tel: (050) 3319999; (077)3319999; (055)2522525; (012)4379980**

**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur “Karl Etorts” firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks hələ qoyulması.*

SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34

**Elan**

**Bakının Türkan qəsəbəsində dənizdən 600-700 metr aralı, sahəsi 20 sot olan bag satılır. Bağın orderi, 82 metr dərinlikdən çıxan şirin suyu, hasar və darvazası, meyvə agacları, 1 otaq və mətbəxdən ibarət kiçik tikilisi var. Qaz və telefon xətti yaxınlıqdan keçir. Qiyməti razılaşma yolu ilə.**

**Əlaqə tel: 070-611-64-15**

**Kişilər!!!**

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət!
**İsrail təbabəti** tətbiq edilir! **Axırıncı şans!!!**
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə və** Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Qadınlarda uşaqlıq boruların keçməməzliyi**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

---

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com “doktor Vaiz Səmədov”.**

**Elan**

**Təcili olaraq, başqa ölkəyə köçməyimiz səbəbinə görə, Qəbələdə 60 sot ərazisi olan, dağın lap ətəyində yerləşən, suyu, işığı, qazı, meyvə verən şabalıd, qoz, fındıq, qızıl əhmədi alması və s. meyvə ağacları olan gözəl bir bağ təcili olaraq, çox münasib qiymətə satılır. Ciddi fikri olmayanlar zəng vurmasınlar.**

**Tel: (050) 371-01-60; (070) 335-90-15**

*Əyləncəli, sürətli, asan!*




*Klassik metodlardan fərqli olaraq, Siz passiv deyil, aktiv dinləyicisiniz!*

*Kursumuzun sizə vəd etdiyi bacarıqlar:*

✓ İlk dərsdən son dərsə qədər ingiliscə danışmaq!
✓ Sözləri əzbərləməklə deyil onları istifadə edərək öyrənmək!
✓ Danışaraq sürətli qrammatika bilgisi əldə etmək!
✓ Əla tələffüz və güvənlə danışmaq
✓ Real ingiliscə söhbətlər

BONUS
english EXPLOSION
*dərsləri kursumuz tərəfindən tələbələrimizə HƏDİYYƏ olunur!*

*Bakı şəhəri, Bünyat Sərdarov küç 2, ev 2.*
*(012) 492 61 75; (051) 433 46 87; (070) 806 56 63*
*(İçəri Şəhər metrosu, İran səfirliyinin yanı)*

YENİ MÜSAVAT
N 206 (5915) 18 avqust 2014





# "Qış bulvarı"nın növbəti dalğası gəlir

## "Sovetski" səddini aşan Hacıbala Abutalıbov R.Rza, Vidadi küçələrini də sökməyə hazırlaşır; kompensasiyanın məbləği dəyişməz qalır; olimpiya oyunlarınadək "evyıxma" əməliyyatı davam edəcək...

**Şəhərin Heydər Əliyev adına sarayının arxasındakı plana düşən daha bir yaşayış massivi söküləcək. Bakı Şəhər İcra Hakimiyyətinin (BŞİH) başçısı Hacıbala Abutalıbov Rəsul Rza, Vidadi küçələrindəki tikililəri də yaxın gələcəkdə yerlə-yeksan etdirəcək.**

Məlumatlara görə, Abutalıbov "Qış bulvarı"nın tikildiyi Füzuli və Şəmsi Bədəlbəyli küçələrində yaşayanlara verdiyi təzminatı, yəni mənzilin kvadratına 1500 manat konpensasiyanı eynilə yuxarıda adını çəkdiyimiz ərazilərdə yaşayan sakinlərə də verəcək. Bakının baş planına əsasən, sökülməsi nəzərdə tutulan bu yaşayış massivinin yerində göydələnlər inşa olunacaq.

Hökumət "Sovetski" məhləsində yaşayanlarla razılığa gəldikdən sonra tamamilə arxayınlaşıb və R.Rza, Vidadi küçələrindəki evləri də yaxın gələcəkdə sökməyi qərara alıb.

Çünki "Sovetski" camaatı ilə razılaşma bir qədər vaxt aldı, etirazlar oldu, məsələ ən yuxarı səviyyədə müzakirə edildi və ondan sonra vətəndaşlarla "dil tapdılar". Ona görə də "Qış bulvarı"na yaxın ərazilərdə yerləşən evlərin sökülməsi bir müddət ertələndi.

Elə ki, "Sovetski" problemi həllini tapdı, artıq "Qış bulvarı"nın ikinci dalğası da reallaşmaq üzrədir. Burada yüzlərlə ev uçurulma növbəsini gözləyir. Sakinlərə bu haqda şifahi xəbərdarlıq olunub və bildirilib ki, mənzilinin kvadratı 60-dan aşağı olanlara şəhərin mərkəzindən kənarda evlər veriləbilər. Bu qayda Füzuli və Ş. Bədəlbəyli küçələrində yaşayanlara da şamil edilmişdi.

Ərazidə olarkən öyrənirik ki, söküntü işlərinə hissə-hissə başlanacaq. H.Əliyev sarayının arxasından üzü Akademik Milli Dram teatrına qədər evlər buldozer qabağına veriləcək. Yalnız bu massivdə yerləşən sinaqoq olduğu kimi saxlanacaq, ətrafındakı tikililər isə söküləcək.

Onu da deyək ki, R.Rza küçəsinin "Qış bulvarı"na açılan hissəsində müəyyən söküntü işləri aparılıb. Yan tərəfində isə plaza inşa olunur. Baş plana əsasən, söküntünün miqyası M.İbrahimov, M.Əliyev, Zərgərpalan küçələrinin "Qış bulvarı"na yaxın ərazisini də əhatə edəcək. Beləliklə, yaxın aylarda Bakının mərkəzində daha bir "evyıxma əməliyyatı"na start veriləcək.

"Bizdən qabaqdakılar nə edə bildi ki, biz də nə isə edə bilək?! Onsuzda öz bildiklərini edəcəklər. Bizə ancaq danışmaq, əsəbiləşmək qalıb. Bu boyda "Sovetski"də millət ayağa qalxdı, amma nə olsun. Yenə də əvvəl gündən dedikləri pulu verdilər. Uzaqbaşı 5-10 adama guya güzəştə getdilər ki, səsləri çıxmasın. Adını baş plan qoyub yaxşı alver edirlər. camaata qəpik-quruş verib ev-eşiyindən didərgin salırlar", - deyə **Vidadi küçəsinin sakini Həsən Cavadov** şikayətləndi.

Onun sözlərinə görə, 1500 manat kvadratı çox olanlara sərf edir: "Mənim kimi şəhərin mərkəzində böyümüş adamları kənar yerlərə köçürürlər. Sonra da bu yerləri tikinti şirkətlərinə od qiymətinə satıb milyonlar qazanırlar. Nə bir tarixi tikini qoruyurlar, nə vətəndaşı sayırlar, nə də sökülən yerlərdə düz-əməlli iş görürlər. Budur, tikdikləri parka bax. Axı bu kimə lazımdı?! Yan-yörədə tikilən təzə binalarda da mənzilin kvadratı 5 mindən aşağı satılmır. Ona görə də qardaş, bizim evləri də sökəcəklər, camaata qəpik-quruş verib yola salacaqlar".

Sakinlər deyir ki, ərazinin sökülməsi sox uzun da çəkməyəcək. Hətta ola bilsin ki, "Sovetski" ilə paralel köçürülmə prosesi icra edilsin. Vətəndaşlara deyilib ki, kompensasiyanın 1500 manatdan olması dəyişməz qalır. İcra nümayəndələri bildirirlər ki, bundan qabaq da belə olub. Odur ki, şikayət etməyin mənası yoxdur.

R.Rza küçəsinin sakini Şamil Əliyev danışır ki, hökumətin bu ünvanlarla bağlı planları var. Məqsəd mərkəzi ərazilərdə köhnə tikililəri Avropa Yay Olimpiya Oyunlarına qədər şumlamaqdır. Yuxarıların fikrində hətta yarışma başlanılana qədər bu ərazilərdə yeni inşa işləri aparılmasa da, köhnə daxmaların gözə görünməməsi məsləhətdir.

Sonrakı dövrdə isə göydələnlər, otellər, ticarət mərkəzləri, həmçinin, növbəti avtopark tikilməsi nəzərdə tutulub. Bu da mərkəzdəki nəqliyyat sıxlığını aradan qaldırmağa hesablanıb. Ş.Əliyevin sözlərinə görə, bütün bu olanlardan sonra qədim Bakının mərkəzi "keçəl" görünəcək, tarixi koloriti itəcək, Badukübə Dubaya oxşayacaq: "Bizə deyilib ki, bu yerlər plandadır. Bir-bir həyətlərə gəlib ölçüb-biçəcəklər, bildirişlər verəcəklər. Bu işləri də yaxşı bacaran "sağ əli" Zülfəli İsmayılov həyata keçirəcək. Bu adamla danışıq aparmaq heç cür mümkün deyil. O ki qaldı kvadratı 1500 manata, bu çox azdı. Mənim evim 36 kvadratdı. O pulla haradan ev ala biləcəyik".

**Bakıda "evsizlər batalyonu" siyahısına Dilarə Əliyeva, Vidadi, Bəşir Səfəroğlu, Səməd Vurğun, Rəsul Rza, Şamil Əzizbəyov, Süleyman Rəhimov, İslam Səfərli, Təbriz Xəlil Rza oğlu və Mirzə İbrahimov küçələrindəki evlərin sakinləri də daxil olacaq.** Sökülməsi nəzərdə tutulan Bəşir Səfəroğlu, Rəsul Rza, Şamil Əzizbəyov, Süleyman Rəhimov və digər küçələrdə XIX əsrə aid çox gözəl tarixi binalar var. Bu binaların hamısı Nazirlər Kabinetinin sərəncamı ilə tarixi abidələr siyahısına salınıb. İndiyədək Ş.Bədəlbəyli və Füzuli küçələrində 43 tarixi abidə məhv edilib.



❑ **E.SALAMOĞLU**
**Fotolar müəllifindir**

# "İstəyirsən düz sırı, istəyirsən əyri"

## Dolanışığı yorğan-döşək sırımaqdan çıxan xanımlar...

**...Havanın çox isti olmasına rəğmən alnından tər axan 2 xanım həyətdə yorğan sırıyırdı. Onlara yaxınlaşaraq işləri, həyat şəraitləri ilə bağlı söhbət etdik. R.Rüstəmov küçəsi 50 ünvanında yerləşən binanın həyətində yaşayan bu xanımlar sifarişlə yorğan-döşək sırıdıqlarını bildirdilər.**

Əslən Göyçə mahalından olan Sərfinaz xanım artıq 8 ildir ki, bu işlə məşğul olduğunu söylədi. Bir yorğanı sırımaq üçün 15, döşək üçün adətən 30 manat aldığını deyən müsahibimiz yay aylarında hər gün işlərinin olduğunu dedi: "Ərə gedən qızların cehizlərini çox vaxt sifariş edirlər. Biz də yavaş-yavaş düzəldirik. Əvvəllər evlər geniş olardı. Hər gəlinə 6 dəst yorğan-döşək verirdilər. İndi isə bu "kibrit qutusu"nun harasına o qədər yorğan-döşək yığsınlar?! İkincisi, bu evlər çox isti olur, bir yandan da palazın, döşəyin istisi. Ona görə də cehiz kimi bir taxt döşəyi, uzağı yanında da bir-iki adi döşək verirlər. Yorğan da ona uyğun".

Yorğanı müxtəlif cür naxışlarla sırıya bildiklərini deyən, Sərfinaz xanım və Mahizər xanım bu zaman qiymətlərdə fərq yarandığını dedilər: "Qabırğa, paxlava kimi sırıqlar bilirik. Amma müştərilər əsasən sadə sırığ istəyirlər".

Əvvəllər xalçaçılıqla məşğul olduğunu deyən Sərfinaz xanım 30 il bu işlə məşğul olub. O, həyat yoldaşı dünyasını dəyişəndən sonra yorğan-döşək sırımaqla məşğul olduğunu dedi.

5 övlad sahibi Sərfinaz xanım qızlarının üçündən heç birinə bu işi öyrətmədiyini dedi: "Nəylərinə lazımdı öyrənsinlər, istəsələr mən onlara düzəldirəm".

"Beş-on il sonra sizlər də bu sənəti atandan sonra kim məşğul olacaq" sualını cavablandıran xanımlar belə dedilər: "Niyə öyrənmirlər, öyrənəcəklər. Bizi kimi pulsuz-parasızlar məcbur öyrənəcəklər".

Yun yuyulub hazır olandan sonra 1 yorğanın hazırlanması prosesinin təqribən 1 saat yarım çəkdiyini dedilər. Zəhmətkeş xanımlar bir günə 2-3 yorğan sırımaq imkanlarının olduqlarını bildirdilər.

Hazırda yunun 1 kiloqramının 5 manat olduğunu söyləyən Sərfinaz xanım 1 yorğanın xam malı daxil, əmək haqqı ilə birlikdə təxminən 30 manata başa gəldiyini söylədi.

İşlərində ən çox çətinliyin külək vaxtı yaşandığını bildirən xanımlar həmin zamanlarda zülmlə işlədiklərini dedilər: "Külək oldu, yunun dalınca qaçırıq. Əziyyətdi bütün".

Qızları və oğlanları evli olan Sərfinaz xanım hazırda tək yaşayır. Özü tək yaşamağı seçdiyini deyən müsahibimiz əslində, bu işi görməyə səhhətinin imkan vermədiyini dedi: "Başıma qan yaxşı işləmir, həkim deyib ki, çox da günün altında olmayım. Mənim də ürəyim evdə tək sıxılır. Həm də burdan qazandığım pulla işıq, qaz pulumu verirəm, nəvələrimə pay alıram. Ayda da 140 manat pensiya alıram. Şükür, dolanıram".

Sərfinaz xanımgillə söhbətimiz vaxtı binanın sakinləri olan iki xanım da həyətdə idi.

"Mən öz evimin döşəyini sırıyıram" - deyən xanımlardan biri bu işin çətinliyindən danışdı. Söhbətə qoşulan Şəlalə xanım isə zarafatyana belə dedi: "Uşaq saxlamaq deyil ki, məsuliyyətin olsun. Yundu da. Səsi yox, səmiri yox. Yu, doldur mitilə. İstəyirsən düz sırı, istəyirsən əyri"...





❑ **Fəridə ABDIYEVA**

YENİ MÜSAVAT
Son səhifə
N 206 (5915) 18 avqust 2014



## Dünya 886 il sonra məhv olacaq

Amerikalı alimlər 16 mart 2880-ci ildə dünyaya çırpılacaq meteorun dünyanı məhv edəcəyini deyiblər. Bu nəhəng meteor sunamilər yaradacaq və dünyanı məhv edəcək. "Asteroit 1950DA" adlanan meteor qeyri-adi surətlə dünyaya yaxınlaşacaq və yer kürəsini məhv edəcək. Dünyaya 61 min kilometr sürətlə yaxınlaşan meteor 45 min meqatonluq partlama gücü ilə dünyanın sonunu gətirəcək.

## Arvadını öldürtmək istədi, həbsə girdi

Arvadını öldürmək üçün killer axtaran rus iş adamı 5 dəfə aldadılıb. Rusiyada yayımlanan "Moskovski Komsomoles" qəzetinin xəbərinə görə, o, 4 min avro verərək bir adamla anlaşıb. Lakin qatil işini yerinə yetirməyib. Məlumatlara görə, Konstantin Monastyrsky adlı biznesmen bundan əvvəl də arvadını öldürmək üçün ayrı-ayrılıqda 4 dəfə killer tutaraq 100 min avro xərcləyib. Sonuncu dəfə tutduğu killer biznesmenin arvadını öldürmək istəmədiyi üçün Konstantin onu təhdid etməyə başlayıb. Təhdidlərdən qorxan killer polislərə xəbər verib. Nəzarətə götürülən biznesmenə arvadını öldürmək istədiyi üçün 8 il həbs cəzası verilib. Onun boşanarkən paylaşmaq istəmədiyi bütün sərvəti isə arvadına verilib.

# Əməliyyat zamanı skripka çaldı

Professional skripkaçı Roger Fresch beyin əməliyyatı zamanı nəticələri daha yaxşı anlamaq üçün skripka çalıb. Roger Fresch bəlkə də bu günə qədər edilmiş ən qəribə əməliyyatlardan birini keçirib. "Esansiyel tremor" adlı nadir bir beyin xəstəliyinə tutulan skripkaçıya 2009-cu ildə diaqnoz qoyulub. Həkimlər çox nadir hallarda rast gəlinən bu xəstəliyin nə olduğunu anlamaq üçün araşdırmalar aparıblar. Fresch isə xəstəliyinin ciddi olmadığını düşündüyü üçün həkimlərin əməliyyat istəyi ilə razılaşıb. Keyidici iynə vurulduqdan sonra əməliyyata girən kişi skripkasını da özü ilə birlikdə götürüb və əməliyyat müddətində musiqi ifa edib.



# Təyyarəni gecikdirən qəribə səbəb

Bədənində 453 ədəd iynə və sırğa olan alman Bucholz Türkiyə Hava Yollarına məxsus təyyarədə hər kəsi qorxuya salıb. Heç kəs Bucholzun yanında oturmaq istəmədiyi üçün təyyarə bir saat gecikib. Qəribə hadisə İstanbul-Dubay səfərini edən təyyarədə baş verib. Dubaydakı "Freak shov" adlı qəribə insanların iştirak etdiyi yarışa getmək üçün təyyarəyə minən Bucholz dünyada ən çox iynəsi olan şəxs kimi "Ginnesin Rekordlar kitabı"na düşüb. O, təyyarəyə mindiyi zaman öz yerində oturmaq istəyib, lakin yanında oturan sərnişin ondan qorxaraq buna etiraz edib. Təyyarədəki stüardessalar Bucholzun yanında oturması üçün könüllü axtarsalar da tapa bilməyiblər. Məhz bu səbəbdən də təyyarə 1 saat gecikib. Sonunda üzü iynələrlə dolu olan adamın yanında oturmağı sərnişinlərdən biri qəbul edib. Bucholzun dodaq çevrəsində 94, qaşlarında 25, burnunda 8, ayaqlarında 278 ədəd iynə var. 52 yaşlı alman 11 ildir bədəninə iynə yapışdırmaqdan xüsusi zövq aldığını deyir.



## Facebookun sahibindən qeyri-adi hərəkət

Facebook-un qurucusu Mark Zukerberq qeyr-adi hərəkəti ilə gündəmə gəlib. Mark ALS adlı xəstəliyə qarşı diqqət çəkmək üçün bir vedrə dolu buzlu suyu başından aşağı boşaldıb. Nyu Cersi qubernatoru Kris Kristi tərəfindən başından aşağı buzlu su tökməyə dəvət edilən Mark bu təklifə razılıq verib. Facebookun qurucusu Mark Zukerberq Bill Qeyts ("Microsoft"un qurucusu), Şerl Sandberq ("Facebook" vitse-prezidenti) və Rid Hastinqsə ("Netflix" vitse-prezidenti) meydan oxuyub və onlara 24 saat müddət verib. Mark onlara üzünü tutaraq "ya 24 saat ərzində lazım olanı edərsiniz, ya da ALS vəqfinə 100 $ hədiyyə edərsiniz" deyərək dostlarına səslənib. Vedrəni başından aşağı boşaltdıqdan sonra Mark bir anlıq donub qalıb. Bu videonu izləyən Bill Qeyts isə bir qurğu düzəltmək qərarına gəlib. Həmin qurğu ilə suyu başından aşağı tökən Qeyts Zukerberqin istəyini yerinə yetirib.




**QOÇ** - İşgüzar sövdələşmələr, pulla bağlı danışıqlar üçün münasib gün olmadığından bu kimi məsələləri təxirə salın. İndi sizə hər şeydən əvvəl orqanizminizi, xüsusən də əsəblərinizi qorumaq lazımdır.

**BUĞA** - Səhhətinizdə passivlik hökm sürdüyündən dincəlməyiniz daha məqsədəuyğundur. Ağır fiziki işlərdən, səfərə çıxmaqdan yayının. Axşamsa sevdiyiniz adamlarla təmiz havada gəzişməyə çalışın.

**ƏKİZLƏR** - Şəxsi büdcənizdə artım olacağı gözlənilir. Deməli, ev şəraitində az olmağınız lazım gələcək. Sizə ehtiyac duyanları sevindirməyə çalışın. Texniki avadanlıqlarla ehtiyatlı olun.

**XƏRÇƏNG** - Bürcünüzdəki planetar quruluş maddi dirçəlişdən xəbər verir. Ola bilsin ki, sizə borclu olanlarla rastlaşasınız. Saat 19-21 arası xoş bir təsadüflə rastlaşma ehtimalınız da var.

**ŞİR** - Nəhayət ki, qarşınızda duran bu tarixi üzəyiniz istəyən tərzdə keçirə biləcəksiniz. Ətrafınızda baş verən bütün olaylar ruh yüksəkliyinizə səbəb olacaq. Qazanmaq ehtimalınız da var.

**QIZ** - Müəyyən gərginlik müşahidə olunsa da, özünüzü ələ almaqla gözlənilən neqativliyi dəf edə bilərsiniz. Yaxşı olar ki, bu təqvimdə işlə bağlı heç bir danışıq və sövdələşmədə iştirak etməyəsiniz.

**TƏRƏZİ** - Darıxdırıcı məqamlarınız artıq arxada qalmaqdadır. Ruh düşkünlüyünə son qoyun. Çünki ulduzlar bu gündən başlayaraq taleyinizə müsbət məqamlar paylayacaq. Axşam maraqlı görüşləriniz mümkündür.

**ƏQRƏB** - Hiss olunur ki, qarşıdakı həftə üçün böyük bir sınaq meydanına çəkiləcəksiniz. Elə isə bəri başdan buna hazır olun. Dualar oxuyun, ziyarət edin və Tanrının varlığını başınız üstündə hiss edin.

**OXATAN** - Yaxşı olar ki, saat 16-ya qədər vaxtınızı ev şəraitində keçirəsiniz. Əks təqdirdə əsəbi situasiyalarla üzləşəcəksiniz. Sonrakı müddətdə isə maraqlı adamlarla rastlaşacaqsınız.

**OĞLAQ** - Qarşınızda əlamətdar bir təqvim durur. Vaxtınızın əsas hissəsini əyləncə və qonaqlıqlara həsr etməklə səmərəli anlar yaşaya bilərsiniz. İmkan daxilində səfərə də çıxmaq olar.

**SUTÖKƏN** - Ailə-sevgi münasibətlərində uğurlarınız gözlənilir. Bütün umu-küsüləri bir kənara atın. Taleyinizdə dönüş yarandığı indiki məqamda yalnız əzmkarlığınızı artırmalısınız.

**BALIQLAR** - Ayın sonuna qədər nəzərdə tutduğunuz işləri reallaşdırmaq istəyirsinizsə, bu təqvimdən səmərəli şəkildə yararlanın. Gün ərzində mühüm şəxslərlə sövdələşmələr aparın.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Qadınlar üçün özəl taksi



Tacikistanda sürücülərinin qadın olduğu və sadəcə qadınların minə biləcəyi özəl taksilər xidmətə verilib. Tacik mediasındakı xəbərlərə görə, "Lady Taksi"lər əvvəlcə ölkənin paytaxtında xidmətə başlayacaq. Ölkədə qadınların kişilərin idarə etdiyi maşınına tək minməri yaxşı qarşılanmır. Məhz bu səbəbdən islam amilləri gözönünə alınaraq belə bir addım atılıb. Hər kəs qadınların bu işdən razı qalacağını düşünür.

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN
e-mail adres: yenimusavat@mail.ru
Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)
Redaktor: Zahid SƏFƏROĞLU
"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Lisenziya N: B 114
SAYI: 5.000